Yeganə CƏLİLOVA
Kəmalə CƏFƏRZADƏ

# TƏSVİRİ İNCƏSƏNƏT

**4-cü sinif**

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
04.07.2011-ci il tarixli
1197 nömrəli əmri ilə
təsdiq olunmuşdur.

BAKI NƏŞR
Bakı – 2015

Çap üçün deyil

Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları) əsasında hazırlanmışdır

Ümumtəhsil məktəblərinin
4-cü sinfi üçün "Təsviri incəsənət"
dərslik komplektinə daxildir:

- Dərslik
- **Müəllim üçün metodik vəsait**

**Təsviri incəsənət** – 4.
Müəllim üçün metodik vəsait
Cəlilova Y., Cəfərzadə K.
Bakı, "Bakınəşr", 2015, 80 səh.

www.bakineshr.az
ISBN-978-9952-8145-3-8

© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2015

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Dil redaktoru: S.Hüseynov
Korrektor: A.Məsimov

---

Format: $57 \times 82^{1}/_{8}$.
Ofset çapı. Fiziki çap vərəqi: 10.
Çapa imzalanmışdır: 09.04.2015.
Tiraj: 7900. Pulsuz.

Çap üçün deyil

## — DƏRSLİK KOMPLEKTİ HAQQINDA —

Azərbaycan Respublikasında ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları) əsasında hazırlanmış 4-cü siniflər üçün "TƏSVİRİ İNCƏSƏNƏT" fənnindən dərslik komplekti **dərslik və müəllim üçün metodik vəsait**dən ibarətdir.

## DƏRSLİK

Əlvan illüstrasiyalarla zəngin olan dərslik kiçikyaşlı məktəblilərdə incəsənət aləmi ilə ünsiyyət yaratmağa, "Təsviri incəsənət" fənni üzrə bədii biliklərin sistemləşməsinə və yaradıcı təfəkkürün formalaşmasına yardım göstərir. Dərslik dörd tədris vahidindən ibarətdir.

İlk üç vahid "Doğma incəsənətin mənbəyi", "Qədim abidələr diyarı" və "Yurdumuzun incəsənəti" əvvəlki illərdə doğma yurdumuzun incəsənəti haqqında alınmış biliklərə və baxışlara yekun vurur.

Sonuncu vahid – "Bütün xalqlar yaradıcıdır" şagirdlərin diqqətini mədəniyyətlərin müxtəlifliyinə cəlb edir. Burada müxtəlif təbii şəraitdə yaşayan xalqların özünəməxsus və təkrarolunmaz mədəniyyətləri haqqında danışılır. Hər mövzu tapşırıqlarla müşayiət olunur. Müəllim onlardan hər hansı birini seçə bilər.

I vahiddə Azərbaycan mədəniyyətinin kökləri və onların başa düşülməsinin əsasları göstərilir. Dərslik müəllimə fənn kurikulumunda nəzərdə tutulmuş bacarıqların reallaşdırılmasına şərait yaradır. Məzmunu sadəcə oxumaq deyil, şagirdlərə onun mənasını izah etməyə çalışmaq lazımdır. Bu prosesdə əsas yardımçı elementlər mətn və illüstrasiyalardır. Ona görə də dərslikdə bir məşğələ üçün nəzərdə tutulan məlumatın həcmi bilərəkdən əhatəli verilmişdir. Mövzuya marağı artırmaq və bilikləri dərinləşdirmək məqsədi ilə etnoqrafik, diyarşünaslıq, dekorativ-tətbiqi və xalq incəsənəti muzeylərinə ekskursiyalar təşkil etmək məsləhət görülür.

II və III vahidlər – "Qədim abidələr diyarı" və "Yurdumuzun incəsənəti" – ölkəmizin memarlıq obrazları ilə tanışlığa həsr olunur. Azərbaycan torpaqlarında qədim tikililər – əsasən qala-şəhərlərin dekor elementləri mədəni irsimizi əks etdirdiyi üçün onların diqqətlə öyrənilməsi vacibdir.

Kənd obrazı tədricən dəyişsə də, özünün əsas xüsusiyyətlərini saxlamışdır. Ona görə də kənd tikililərində gözəlliyin başa düşülməsində, hər şeydən əvvəl, insanın təbiətlə əlaqəsi öz əksini tapmışdır. Şəhər obrazında isə təkcə təbiətlə əlaqə deyil, həm də real tarixi hadisələr göstərilmişdir: binalar öz görünüşündə xalqın tarixi yolunu və həyat hadisələrini əks etdirir.

Hər bir şəhərin özünəməxsus siması və xarakteri vardır. Bu isə onun tikililərində öz əksini tapır. Müəllim şəhər mühitinin quruluşunda olan gözəlliyi, mükəmməlliyi qeyd etməklə Azərbaycanın konkret şəhərlərinin memarlığının parlaq xüsusiyyətlərini aça bilər.

Dərs ilinin ilk üç rübü ərzində öyrənilən materiallar əsasında uşaqlar Azərbaycanın orta əsr memarlığı və məişət mədəniyyətinin tarixi barədə təsəvvürlər əldə edirlər.

Mövzular metodiki və məntiqi ardıcıllıqla işlənilmişdir. Müəllim bu mövzuların daha ətraflı müzakirə olunmasına şərait yarada bilər. Dərslikdəki mövzu adları (başlıqları) obrazlı xarakter daşıyır, başlıqaltı sözlər isə şagirdlərin fəaliyyətinə yönəlmişdir və şagird fəaliyyətində əsas istiqaməti müəyyən edir.

"Bütün xalqlar yaradıcıdır" vahidi müəllimə yaradıcılıq üçün geniş imkanlar açır: seçim və onun əsasında müstəqil, hər dərsə aid planlaşma tələb edir. Bu vahidin tədrisində əsas məqsəd dünya xalqlarının bədii mədəniyyəti haqqında təsəvvürləri formalaşdırmaqdır. Müəllim bir ölkənin mədəniyyətinin öyrənilməsini vurğulaya, digərlərini isə səthi təqdim edə bilər. Dərslikdəki material bu barədə minimal bilikləri özündə cəmləşdirmişdir. Dərsliyin vəzifəsi müxtəlif mədəniyyətlərin obrazlı təsəvvürünü bütövşəkildə və təkrarolunmazlığını göstərməkdir. Tam təsəvvür yaratmaq üçün müəllim bədii söz və musiqidən də istifadə edə bilər.

Müxtəlif xalqların mədəniyyəti haqqında təsəvvürlər təbiətin, memarlığın, insanın xarici və daxili gözəlliyinin müqayisəsi nəticəsində yaranır. Onlar başqa xalqların mədəniyyətinə də xasdır. Şagird gözəlliyin müxtəlifliyini görür və ona sevinir.

Dərslikdə yadda saxlanılması zəruri olan termin və adlar seçdirilərək izah edilir. Burada məqsəd vizual yaddaşa əsaslanaraq yeni anlayışların daha yaxşı yadda qalmasıdır.

Uşaqların incəsənətlə ünsiyyəti prosesində müəllimin rolu danılmazdır. Məhz müəllim dərsdə emosional-bədii atmosfer yaradır, məqsədlər qoyur, şagirdlərin bədii əsərlərlə canlı ünsiyyətini təşkil edir. Bu

Çap üçün deyil

da uşaqların estetik dünyagörüşlərinin inkişafına səbəb olur. İncəsənətə dair hər bir mövzu təkcə öyrənilməli deyil, daxilən yaşanmalıdır.

## ŞƏRTİ İŞARƏLƏR

Mövzuların tədrisində dərslikdə bəzi şərti işarələrdən istifadə olunmuşdur. Bu işarələr yaşıl və qəhvəyi rəngdədir. Yaşıl rəng müzakirə, qəhvəyi rəng intellektual diskussiya üçün nəzərdə tutulan sual və tapşırıqlardır.

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

Müəllim üçün vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- IV sinif üzrə məzmun standartları;
- dərslik komplektinin mövzular üzrə strukturu;
- fənn üzrə məzmun standartlarının reallaşma cədvəli və illik iş planı;
- fənlərarası inteqrasiya cədvəli;
- şagird nailiyyətlərinin qiymətləndirilməsi (prinsiplər və formalar);
- inklüziv təlim prinsipləri haqqında ümumi məlumat;
- təlimin təşkilində istifadə olunan üsullar;
- dərsin fəal təlim mərhələləri üzrə planlaşdırılma nümunələri;
- terminlər lüğəti;
- qiymətləndirmə vasitələri;
- dərslikdə istifadə olunan reproduksiyaların siyahısı;
- mənbələr.

Vəsaitdə verilmiş materiallar ilk baxışda lazım olandan artıq görünə bilər. Lakin bu materialların hamısından istifadə edilməsi vacib deyil. Müəllim sinfin hazırlığından, vaxtdan, texniki təchizatdan və digər məsələlərdən asılı olaraq bu materiallardan lazım bildiyi qədər istifadə edə bilər.

Tədqiqat işlərində qruplarla və cütlərlə iş formalarına daha çox üstünlük verilir. Məşğələ zamanı isə şagirdlərdə fərdi bacarıqların formalaşdırılması üçün, əsasən, fərdi və cütlərlə iş üsullarından istifadə edilməsi daha məqsədəuyğundur.

Tədqiqat zamanı müəllim xüsusi qayğıya ehtiyacı olan şagirdlərə böyük həssaslıqla yanaşmalıdır. Praktik işləri yerinə yetirərkən 1, 2 və 3-cü siniflərdə mənimsənilən bacarıqların yada salınmasına ehtiyac olarsa, müəllim dərsin əvvəlində bu bacarıqları bir daha nümayiş etdirə bilər.

Vəsaitin sonunda 1-4-cü sinifləri əhatə edən terminlər lüğəti verilmişdir.

Çap üçün deyil

## IV SİNİF ÜZRƏ MƏZMUN STANDARTLARI

**IV sinfin sonunda şagird:**

- Təsviri sənətin cəmiyyətdə rolunu və əhəmiyyətini anladığını nümayiş etdirir.
- Görkəmli təsviri və dekorativ sənət nümayəndələrini tanıyır (M.Q.İrəvani, M.M.Nəvvab, Usta Qəmbər Qarabaği, Ö.Eldarov, T.Nərimanbəyov).
- Təsviri və dekorativ sənət növlərini tanıdığını nümayiş etdirir.
- Təsviri və dekorativ sənət üzrə bədii ifadə vasitələrindən istifadə bacarıqlarını nümayiş etdirir.
- Təsviri və dekorativ sənət əsərinə estetik reaksiya nümayiş etdirir.

**1. Cəmiyyət və təsviri sənət / Şagird:**

**1.1. Təsviri sənətin cəmiyyətdə rolunu və əhəmiyyətini anladığını nümayiş etdirir.**

1.1.1. Təsviri sənətin rolu və əhəmiyyətinə aid kiçik təqdimatlar edir.

1.1.2. Təsviri sənətin insanlara təsirini nümunələr əsasında şərh edir.

**1.2. Görkəmli təsviri və dekorativ sənət nümayəndələrini tanıyır (M.Q.İrəvani, M.M.Nəvvab, Usta Qəmbər Qarabaği, Ö.Eldarov, T.Nərimanbəyov).**

1.2.1. Görkəmli təsviri və dekorativ sənət nümayəndələrini sadalayır.

1.2.2. Yaradıcılıq sahələrinə görə görkəmli sənət nümayəndələrini fərqləndirir.

1.2.3. Görkəmli təsviri və dekorativ sənət nümayəndələrinin əsərlərini sadalayır.

1.2.4. Görkəmli təsviri və dekorativ sənət nümayəndələri barədə kiçik təqdimatlar edir.

**2. Təsviri və dekorativ yaradıcılıq / Şagird:**

**2.1. Təsviri və dekorativ sənət növlərini tanıdığını nümayiş etdirir.**

2.1.1. Təsviri və dekorativ sənət növlərini əsas xüsusiyyətlərinə görə şərh edir.

2.1.2. Təsviri və dekorativ sənət növləri və janrları barədə kiçik təqdimatlar edir.

**2.2. Təsviri və dekorativ sənət üzrə bədii ifadə vasitələrindən istifadə bacarıqlarını nümayiş etdirir.**

2.2.1. Fırçadan istifadə etməklə sulu boya, quaş vasitəsilə sadə təsvirlər, dekorativ kompozisiyalar yaradır.

2.2.2. Üçölçülü əşyaları naturadan, habelə yaddaş əsasında nisbi dəqiqliklə təsvir edir.

2.2.3. Nümunəvi təsvirlərin surətini nisbi dəqiqliklə əks etdirir.

2.2.4. Müxtəlif əşyaların xarici səthində bəzək kompozisiyaları yaradır.

2.2.5. Real əşya və hadisələri mücərrəd formada təsvir edir.

2.2.6. Çəkdiyi təsvirlərdə ifadə olunmuş fikir və ideyaları şərh edir.

2.2.7. Özünün və digərlərinin çəkdiyi təsvirlərə münasibət bildirir.

**3. Estetik reaksiya / Şagird:**

**3.1. Təsviri və dekorativ sənət əsərinə estetik reaksiya nümayiş etdirir.**

3.1.1. Verilmiş təsviri və dekorativ sənət nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun şərh etməklə ona münasibət bildirir.

Çap üçün deyil

## DƏRSLİK KOMPLEKTİNİN MÖVZULAR ÜZRƏ STRUKTURU

| TƏDRİS VAHİDİ | MÖVZULAR | |
|---|---|---|
| **1. DOĞMA İNCƏSƏNƏTİN MƏNBƏYİ** | 1. | Doğma diyar |
| | 2. | Torpağımızın nemətləri |
| | 3. | İnsan tikir, bəzəyir, təsvir edir |
| | 4. | Tikililərin müxtəlifliyi |
| | 5. | Yurdumuzun insanları |
| | 6. | Elimizin adətləri |
| **2. QƏDİM ABİDƏLƏR DİYARI** | 7. | Tariximizin yaddaşı – daş fiqurlar |
| | 8. | Türbələr-məqbərələr |
| | 9. | Qədim məbədlər |
| | 10. | Qədim körpülər |
| | 11. | Qalalar |
| | 12. | Saraylar |
| | 13. | Karvansaralar |
| **3. YURDUMUZUN İNCƏSƏNƏTİ** | 14. | Qədim şəhərlər |
| | 15. | Sənətkarlar şəhəri |
| | 16. | Süjetli xalçalar |
| | 17. | Novruz adət-ənənələri |
| | 18. | Mirzə Qədim İrəvani |
| | 19. | Usta Qəmbər Qarabaği |
| | 20. | Mir Möhsün Nəvvab |
| | 21. | Ömər Eldarov |
| | 22. | Toğrul Nərimanbəyov |
| **4. BÜTÜN XALQLAR YARADICIDIR** | 23. | Gündoğan ölkə |
| | 24. | Şimalda, dağ və düzənlikdə yaşayan xalqlar |
| | 25. | Səhralıqdakı şəhərlər |
| | 26. | Qədim Ellada |
| | 27. | Orta əsr Avropa şəhərləri |

Çap üçün deyil

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ VƏ İLLİK İŞ PLANI

Cədvəldə kurikulumda tələb olunan bacarıqlar əsasında tövsiyə edilən illik planlaşdırma nümunəsi verilmişdir. İş planı həftədə 1 saat olmaqla, ildə 34 həftəyə və ya 34 saata nəzərdə tutulmuşdur. Tədris ili ərzində 5 saat KSQ, 2 saat BSQ, 27 saat hər mövzuya 1 saat olmaqla, 27 mövzunun tədrisi üçün nəzərdə tutulmuşdur.

| TƏDRİS VAHİDİ VƏ MÖVZULAR | | MƏŞĞƏLƏ NÖVÜ | Cəmiyyət və təsviri incəsənət | | | | | | Təsviri və dekorativ yaradıcılıq | | | | | | | | | Estetik reaksiya | SAAT |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | 1.1. | | 1.2. | | | | 2.1. | | 2.2. | | | | | | | 3.1. | |
| | | | 1.1.1. | 1.1.2. | 1.2.1. | 1.2.2. | 1.2.3. | 1.2.4. | 2.1.1. | 2.1.2. | 2.2.1. | 2.2.2. | 2.2.3. | 2.2.4. | 2.2.5. | 2.2.6. | 2.2.7. | 3.1.1. | |
| 1. DOĞMA İNCƏSƏNƏTİN MƏNBƏYİ | **1.** Doğma diyar | M.ü.r. | | + | | | | | | | + | | | | | + | + | + | 1 |
| | **2.** Torpağımızın nemətləri | N.r. | | + | | | | | | + | + | + | | | | | | | 1 |
| | **3.** İnsan tikir, bəzəyir, təsvir edir | M.ü.r. | | + | | | | | | | + | | | | | + | + | | 1 |
| | **4.** Tikililərin müxtəlifliyi | D-t.f./K. | | | | | | | | | | + | | | | + | + | | 1 |
| | **5.** Yurdumuzun insanları | M.ü.r. | | | | | | | | | + | | | | | + | + | + | 1 |
| | **6.** Elimizin adətləri | M.ü.r. | | + | | | | | | | + | | | | | + | + | | 1 |
| | **Kiçik summativ qiymətləndirmə № 1** | | | | | | | | | | | | | | | | | | 1 |
| 2. QƏDİM ABİDƏLƏR DİYARI | **7.** Tariximizin yaddaşı – daş fiqurlar | Y. | | | + | | | | + | | | | | + | + | + | | | 1 |
| | **8.** Türbələr-məqbərələr | D-t.f. | | | | | | | + | | | | + | + | | | + | | 1 |
| | **9.** Qədim məbədlər | M.ü.r. | | | | | | | | | + | + | | | | | + | | 1 |
| | **10.** Qədim körpülər | M.ü.r. | | + | | | | | + | | | + | | | | | + | | 1 |
| | **11.** Qalalar | M.ü.r. | + | | | | | | + | | | + | | | | | + | | 1 |
| | **12.** Saraylar | M.ü.r. | | + | | | | | | | + | | | | + | | + | | 1 |
| | **13.** Karvansaralar | M.ü.r. | + | | | | | | | | | + | + | | | | + | | 1 |
| | **Kiçik summativ qiymətləndirmə № 2** | | | | | | | | | | | | | | | | | | 1 |
| | **Böyük summativ qiymətləndirmə № 1** | | | | | | | | | | | | | | | | | | 1 |
| 3. YURDUMUZUN İNCƏSƏNƏTİ | **14.** Qədim şəhərlər | M.ü.r. | + | | | | | | | | + | | | | | + | + | | 1 |
| | **15.** Sənətkarlar şəhəri | N.r. | + | | | | | | | | | + | + | | | | | + | 1 |
| | **16.** Süjetli xalçalar | D-t.f. | | | | | | | + | | | | | + | | + | | | 1 |
| | **17.** Novruz adət-ənənələri | M.ü.r. | | + | | | | | | | + | | | | | + | + | | 1 |
| | **Kiçik summativ qiymətləndirmə № 3** | | | | | | | | | | | | | | | | | | 1 |
| | **18.** Mirzə Qədim İrəvani | M.ü.r. | | | + | + | + | + | | + | | | | | | | | | 1 |
| | **19.** Usta Qəmbər Qarabaği | M.ü.r. | | | + | + | + | + | | + | | | | | | | | | 1 |
| | **20.** Mir Möhsün Nəvvab | M.ü.r. | | | + | + | + | + | | + | | | | | | | | | 1 |
| | **21.** Ömər Eldarov | Y. | | | + | + | + | + | | + | | | | | | | | | 1 |
| | **22.** Toğrul Nərimanbəyov | M.ü.r. | | | + | + | + | + | | + | | | | | | | | | 1 |
| | **Kiçik summativ qiymətləndirmə № 4** | | | | | | | | | | | | | | | | | | 1 |
| 4. BÜTÜN XALQLAR YARADICIDIR | **23.** Gündoğan ölkə | M.ü.r. | | + | | | | | | | | | | | + | + | | | 1 |
| | **24.** Şimalda, dağ və düzənlikdə yaşayan xalqlar | M.ü.r. | | + | | | | | | | | | | | | + | + | + | 1 |
| | **25.** Səhralıqdakı şəhərlər | D-t.f./A. | | + | | | | | + | | | | | | | + | + | | 1 |
| | **26.** Qədim Ellada | M.ü.r. | | + | | | | | | | | | | | | + | + | | 1 |
| | **27.** Orta əsr Avropa şəhərləri | D-t.f. | | + | | | | | + | | | | | | | + | | + | 1 |
| | **Kiçik summativ qiymətləndirmə № 5** | | | | | | | | | | | | | | | | | | 1 |
| | **Böyük summativ qiymətləndirmə № 2** | | | | | | | | | | | | | | | | | | 1 |

Təsviri incəsənət dərsləri bu məşğələ növləri vasitəsilə təqdim edilir: ***mövzu üzrə rəsm, naturadan rəsm, dekorativ-tətbiqi fəaliyyət, yapma, təsviri sənət haqqında söhbət.***

**M.ü.r.**– Mövzu üzrə rəsm; **D-t.f.** – Dekorativ-tətbiqi fəaliyyət; **A.** – Aplikasiya**; Y.** – Yapma; **K.** – Konstruksiya; **N.r.** – Naturadan rəsm.



Çap üçün deyil

## FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| TƏDRİS VAHİDİ VƏ MÖVZULAR | | FƏNNİN ADI VƏ ALT-STANDARTIN NÖMRƏSİ |
|---|---|---|
| **1. DOĞMA İNCƏSƏNƏTİN MƏNBƏYİ** | **1.** Doğma diyar | H-b.: 1.3.1; 3.1.1; 3.2.1; A-d.: 2.2.5; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.4; Mus.: 2.1.1. |
| | **2.** Torpağımızın nemətləri | H-b.: 1.3.1; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **3.** İnsan tikir, bəzəyir, təsvir edir | H-b.: 1.3.1; 3.1.1; 3.2.1; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4; A-d.: 2.2.5. |
| | **4.** Tikililərin müxtəlifliyi | A-d.: 2.2.5; H-b.: 3.1.1; 3.2.1; Tex.: 1.2.2; 1.2.3; İnf.: 3.3.1. |
| | **5.** Yurdumuzun insanları | A-d.: 2.2.5; H-b.: 3.1.1; 3.2.1; Mus.: 1.1.2; 2.1.1; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **6.** Elimizin adətləri | H-b.: 1.3.2; 3.1.1; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | | |
| **2. QƏDİM ABİDƏLƏR DİYARI** | **7.** Tariximizin yaddaşı – daş fiqurlar | A-d.: 2.2.4; H-b.: 3.1.1; Tex.: 1.3.3; 4.1.2; İnf.: 3.3.2; 3.3.4. |
| | **8.** Türbələr-məqbərələr | H-b.: 3.1.1; Tex.: 1.3.3; 4.1.2; İnf.: 3.3.1; 3.3.2. |
| | **9.** Qədim məbədlər | H-b.: 3.1.1; Tex.: 4.1.3.; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **10.** Qədim körpülər | H-b.: 1.3.2; 3.1.1; Tex.: 1.2.3; 1.3.2; 3.1.2. |
| | **11.** Qalalar | A-d.: 2.2.4; H-b.: 3.1.1; Tex.: 1.2.3; 1.3.3; 1.3.4; 1.3.6; İnf.: 3.3.4. |
| | **12.** Saraylar | H-b: 1.3.2; 3.1.1; Tex.: 1.3.3; 3.1.2; 4.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **13.** Karvansaralar | H-b.: 3.1.1; İnf.: 1.1.4; 3.3.1. |
| | | |
| **3. YURDUMUZUN İNCƏSƏNƏTİ** | **14.** Qədim şəhərlər | İnf.: 3.3.1; 3.3.3; 3.3.4; H-b.: 3.1.1; A-d.: 2.1.1; 2.2.4. |
| | **15.** Sənətkarlar şəhəri | A-d.: 2.2.4; H-b.: 3.1.1; Tex.: 1.3.3; 4.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **16.** Süjetli xalçalar | A-d.: 2.2.4; H-b.: 3.1.1; 3.2.1. |
| | **17.** Novruz adət-ənənələri | A-d.: 2.1.1; 2.2.4; H-b.: 3.1.1; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **18.** Mirzə Qədim İrəvani | H-b.: 3.1.1; Tex.: 1.3.3; 4.1.2; İnf.: 3.3.1; 3.3.2; 3.3.4. |
| | **19.** Usta Qəmbər Qarabaği | A-d.: 2.2.4; H-b.: 1.3.2; Tex.: 1.3.3; 1.3.4; 4.1.2. |
| | **20.** Mir Möhsün Nəvvab | A-d.: 2.2.4; H-b.: 1.3.2; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **21.** Ömər Eldarov | H-b.: 1.3.2; 3.1.1; Tex.: 3.1.2; Mus.: 2.1.1; 3.3.1; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **22.** Toğrul Nərimanbəyov | A-d.: 2.2.2; 2.2.4; H-b.: 3.2.1; İnf.: 1.1.4. |
| | | |
| **4. BÜTÜN XALQLAR YARADICIDIR** | **23.** Gündoğan ölkə | Tex.: 1.2.3; Mus.: 1.2.2; 2.1.1; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **24.** Şimalda, dağ və düzənlikdə yaşayan xalqlar | H-b.: 1.3.2; 3.1.1; 3.2.1; A-d.: 2.2.5; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **25.** Səhralıqdakı şəhərlər | H-b.: 1.3.2; 3.1.1; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **26.** Qədim Ellada | H-b.: 1.3.2; 3.1.1; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |
| | **27.** Orta əsr Avropa şəhərləri | A-d.: 2.2.5; H-b.: 1.3.2; 3.2.1; Tex: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. |

*A-d. – Ana dili, H-b. – Həyat bilgisi, Tex. – Texnologiya, Mus. – Musiqi, İnf. – İnformatika*

Çap üçün deyil

## — ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏ PRİNSİPLƏRİ VƏ ÜSULLARI —

Təlim prosesinin ən mühüm mərhələlərindən biri qiymətləndirmədir. Hər bir fənn üzrə təlim prosesinin müxtəlif mərhələlərində aparılan qiymətləndirmə şagirdlərdə mənfi emosiya doğurmamalıdır. O cümlədən təsviri incəsənət fənni üzrə əldə edilən bilik və bacarıqların qiymətləndirilməsində bir yaradıcılıq, şəffaflıq, yüksək estetik zövq və daimi yüksəlişə, ümumbəşəri dəyərlərə köklənmiş müsbət emosiya hiss olunmalıdır. Bu prosesdə müəllim şagirdin səhvlərini deyil, daha çox əldə etdiyi nailiyyətləri, keyfiyyət göstəricilərini və qazandığı dəyərləri vurğulamalıdır. Müəllim təlim prosesində müəyyənləşdirilmiş hər hansı bir səhvin ən asan həlli yollarını tapmaqda onlara dəstək verməklə stimul yaratmalıdır.

Azərbaycan Respublikası Təhsil nazirinin 2 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə 1-7-ci siniflərdə məktəbdaxili qiymətləndirmə qaydalarında bir sıra dəyişiklik edilmişdir.
( http://www.muallim.edu.az/arxiv/2013/34/26.htm)

Vəsaitdə I tədris vahidində hər bir dərsin sonunda təlim nəticələrinə uyğun formativ qiymətləndirmə meyarları göstərilmişdir. Digər tədris vahidlərində reallaşdırılacaq standartlar əsasən, eyni olduğundan müəllim müvafiq altstandartların qiymətləndirilməsi üçün I tədris vahidində verilmiş nümunələrdən istifadə edə bilər. II tədris vahidindən başlayaraq hər bir dərsin sonunda isə müxtəlif qiymətləndirmə formaları təklif olunur. Kiçik summativ qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin sonunda verilmişdir. Qiymətləndirmə dərslərində müəllim vəsaitdəki vasitələrdən yararlana və ya bu nümunələr əsasında yeni qiymətləndirmə vasitəsini özü tərtib edə bilər.

Fənn kurikulumlarına görə, qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir, onu idarə edən vacib amil kimi meydana çıxır. Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. Məktəbdaxili qiymətləndirmə *diaqnostik, formativ* və *summativ* qiymətləndirmələrdən ibarətdir.

***Diaqnostik qiymətləndirmə*** fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir. Diaqnostik qiymətləndirmə, adından da məlum olduğu kimi, şagirdə və ya bütöv sinfə qoyulan diaqnozdur. Şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat almağa imkan verir. Bu qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılır.

Diaqnostik qiymətləndirmədə istifadə olunan metod və vasitələr:
müsahibə;
söhbət;
müşahidə;
tapşırıqlar;
valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq.

Diaqnostik qiymətləndirmə həm də şəraitə görə təlim məqsədləri və üsullarda çevik dəyişikliklər aparılmasına imkan yaradır.

**Formativ qiymətləndirmə**nin məqsədi (2 sentyabr 2013-cü il tarixli təlimata əsasən) təhsilalanın təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, bu zaman qarşıya çıxan problemləri müəyyən etməkdən və onları aradan qaldırmaqdan ibarətdir. Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil.

Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır. Tədris prosesində formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə oluna bilər.

Müəllim qiymətləndirmə meyarlarına uyğun dördsəviyyəli rubriklər (I-IV səviyyələr) hazırlayır. Zəruri hallarda rubriklər 3 və ya 5 səviyyədə tərtib oluna bilər.

Müəllim şagirdin fəaliyyətinin nəticəsini "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubrikə uyğun olaraq rum rəqəmləri (I, II, III və IV) ilə, "Məktəbli kitabçası"nda isə sözlərlə yazır.

"Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubriklərin məzmunu və şagirdin formativ qiymətləndirilməsinə dair məlumatlar sərbəst formada aparılır. Müəllim yarımillərin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri" əsasında şagirdin yarımil ərzində fəaliyyətinin qısa təsvirini hazırlayır və portfolioda saxlayır.



Çap üçün deyil

***Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr***

| **Üsullar** | **Vasitələr** |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Oxu | Dinləmə üzrə qeydiyyat vərəqi |
| | Oxu üzrə qeydiyyat vərəqi |
| Yazı | Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

Formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə olunur. Rubrik xüsusi növ qiymətləndirmə şkalasıdır. O, iki əsas suala cavab verir:

• Mən nəyi qiymətləndirməliyəm? (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyətlər);
• Aşağı, orta, yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə bilmək olar?

Rubrik vasitəsilə qiymətləndirmə nəticəsində şagirdlərin keçilmiş materialı necə mənimsədiklərini, buraxdıqları xarakterik səhvləri müəyyən etmək, növbəti dərsdə qarşıya çıxa biləcək problemlər üzərində görüləcək işləri dəqiqləşdirmək olar.

Qiymətləndirmə şkalası nailiyyət səviyyələrinə qiymət (bal) verilməsi üçün mexanizmdir. Rubriklərin hazırlanması üçün əvvəlcə dərsin məqsədləri müəyyən olunmalıdır. Qiymətləndirmənin formalarından biri seçilməlidir (diaqnostik, formativ və ya summativ).

**Müəllimlər üçün rubriklərin üstün cəhətləri:**

- Rubriklər qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl olmasına imkan verir.
- Rubriklər tələb edir ki, müəllimlər müvafiq şərtlər üzrə öz meyarlarını müəyyənləşdirsinlər.
- Rubriklər müəllimləri tədrisin səmərəliliyi ilə bağlı faydalı məlumatlarla təmin edir.
- Rubriklər keyfiyyət səviyyələrinin intervalı vasitəsilə müxtəlif qabiliyyətli şagirdlərin olduğunu nəzərə alır.

***Səviyyələr üzrə təsvirlərin hazırlanması üçün təlimat:***

1. Qısa və sadə tərzdə, şagirdin anlayacağı sadə dildən istifadə edilməlidir.
2. Müqayisəli və ya normativ dildən fərqli olaraq, deskriptiv dildən istifadə edin. Pis, orta, kafi, yaxşı, əla kimi qeyri-müəyyən deskriptorlardan uzaq durulmalıdır.
3. Səviyyə deskriptorları müşahidə oluna bilən davranışlar və ya nəticənin xüsusiyyətləri baxımından mümkün dərəcədə ifadə edilməlidir.
4. Qiymətləndirmə səviyyələri arasında sərhəd aydın olmalıdır, üst-üstə düşməməlidir.
5. Şkala şagird nailiyyətləri intervalını tam əhatə etməlidir.
6. Təsvirlərin məzmunu nailiyyət səviyyələri üzrə eyni formalı tərtib edilməlidir.
7. Fəaliyyət səviyyələri bütün aspektlər üzrə uyğun olmalıdır (məsələn: bir aspekt üzrə “4” qiyməti digər aspekt üzrə “4” qiyməti ilə müqayisə oluna bilməlidir).
8. Əvvəlcə “ən yüksək”, sonra “ən aşağı” səviyyələr, sonda “aralıq” səviyyələr təsvir edilməlidir.
9. Ən yüksək səviyyə: yüksək tələbkarlığa malik, bununla yanaşı, real olmalıdır.
10. Ən aşağı səviyyə: yalnız çatışmazlıqları deyil, həmçinin minimal nailiyyətin xüsusiyyətlərini əks etdirməlidir.



Çap üçün deyil

**Summativ qiymətləndirmə** təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Summativ qiymətləndirmə məzmun standartlarının mənimsəmə səviyyəsinin etibarlı göstəricisidir.

Summativ qiymətləndirmə kiçik summativ və böyük summativ qiymətləndirmədən ibarətdir.

Kiçik summativ qiymətləndirmə (KSQ) bəhs və ya bölmələrin sonunda müəllim tərəfindən, böyük summativ qiymətləndirmə (BSQ) isə yarımillərin sonunda məktəb rəhbərliyinin və ya məktəbdə yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur.

Kiçik summativ qiymətləndirmə fənn kurikulumları tətbiq olunan siniflərdə bəhs və ya bölmələrin sonunda altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir. Onun nəticələri yarımillik qiymətlərin hesablanmasında nəzərə alınır.

Kiçik summativ qiymətləndirmə vasitələri (test, tapşırıq, yazı işləri və s.) fənni tədris edən müəllim tərəfindən hazırlanır.

Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. Ona görə də metodik vəsaitdə böyük summativ qiymətləndirmə üçün testlərin nümunəsi verilməyib.

Şagirdin illik qiyməti aşağıdakı cədvələ uyğun hesablanır:

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 2 | 2 | 2 |
| 2 | 3 | 3 |
| 2 | 4 | 3 |
| 2 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 3 | 2 | 2 |
| 3 | 3 | 3 |
| 3 | 4 | 4 |
| 3 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 4 | 2 | 2 |
| 4 | 3 | 4 |
| 4 | 4 | 4 |
| 4 | 5 | 5 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 5 | 2 | 2 |
| 5 | 3 | 4 |
| 5 | 4 | 5 |
| 5 | 5 | 5 |

Şagirdin qiyməti düzgün cavabların maksimum bala nisbəti ilə faiz göstəricisinə uyğun müəyyənləşdirilir:

| № | Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı | Şagirdin qiyməti |
|---|---|---|
| 1 | (0% – 40%] | 2 (qeyri-kafi) |
| 2 | (40% – 60%] | 3 (kafi) |
| 3 | (60% – 80%] | 4 (yaxşı) |
| 4 | (80% – 100%] | 5 (əla) |

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ FORMATİV QİYMƏTLƏNDİRMƏ ZAMANI İSTİFADƏ OLUNAN ÜSUL VƏ VASİTƏLƏR

| FƏALİYYƏT NÖVLƏRİ | ÜSULLAR | VASİTƏLƏR |
|---|---|---|
| **Müşahidəetmə** | **Müşahidə** (müəllim şagirdlərin fəaliyyətini müşahidə edərək qiymətləndirir). | **Müşahidə vərəqi** (şagirdin təlim fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarların yazıldığı cədvəl):<br>• natura, təbiət, interyer, meyvə, tərəvəz, məişət əşyaları və s.;<br>• təsviri incəsənət əsərləri (rəsm və heykəltəraşlıq nümunələri);<br>• dekorativ-tətbiqi sənət nümunələri (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər). |
| | **Tapşırıqvermə** | **Təsviri sənət əsərləri, rəsm işləri** |
| | Nəzəri tapşırıqlar | |

Çap üçün deyil

| | | |
|---|---|---|
| **Təsvirlərin təhlili** | Sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili. | Təsviri (reproduksiya, fotoşəkil və s.) və dekorativ sənət əsərlərinə (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər) münasibət. |
| | Praktiki tapşırıqlar: | |
| | ***Məzmun*** | ***İşləmə texnikası*** |
| | səth üzərində | rəsm, rəngkarlıq, aplikasiya |
| | həcmli (model) | kağız, karton, plastilin, gil, maket |
| | • rəsm çəkmək (naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ fəaliyyət və s.);<br>• dekorativ-tətbiqi fəaliyyət (texnikalar: aplikasiya, panno, kollaj, dekupaj, vitraj, mozaika, batika, tikmə, hörmə, keramik məhsullar və s.);<br>• yapma (relyefli və ya həcmli);<br>• kompüter qrafikası. | • karandaş, flomaster, diyircəkli və rəngli qələm, tuş, kömür, qrafit, pastel tabaşir, rəngli kağız, karton, qutu, parça, boya (quaş, akvarel, akril, yağlı boya və s.) və s.;<br>• təbiət materialları (düyü, buğda, şam qozası, ağac, budaq, toxum, yarpaq və s.);<br>• plastilin, gil, gips, duzlu xəmir;<br>• qrafik redaktor (Paint və s.). |
| **Sorğu** | Şifahi sual-cavab | Təsviri incəsənət əsərləri, ətraf aləm, qayda və anlayışlar üzrə sual-cavablar, təhlil, müzakirə üzrə ***qeydiyyat vərəqi*** |
| **Təqdimat** | Şifahi, yazılı, rəmzi, təsviri, kompüterdə təqdimatlar | Şifahi cavablar;<br>bədii əsərlərə esselərin yazılması;<br>rəmzi təsvirlər (işarələr);<br>bədii yaradıcılıq və əl işləri, slayd vasitəsilə təqdimat; layihələr |
| **Qiymətləndirmə** | Qrup işlərinin qiymətləndirilməsi, özünüqiymətləndirmə, rubrik üzrə qiymətləndirmə, qrafik, sxem, şkala, test və s. | Qiymətləndirmə vərəqləri, qiymətləndirmə sxemləri, meyarlar cədvəli, şkalalar, sxemlər, test tapşırıqları və s. |

Müvafiq qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin arxasında verilmişdir. Müəllim üçün metodik vəsaitdə bir sıra qiymətləndirmə üsullarından istifadə olunması tövsiyə edilir. Müəllim bu üsul və formalardan öz məqsədinə uyğun şəkildə istifadə edib, yenilərini yarada bilər.

***Dərəcələr üzrə qiymətləndirmə.*** Müəllim uşaqlara yaxşı nəticə dedikdə nəyin nəzərdə tutulduğunu bildirməlidir. Buna nail olmaq üçün qiymətləndirmə meyarlarını aydınlaşdırmaq tələb olunur. Müasir üsullara əsaslanan təlimdə şagird nailiyyətlərini qiymətləndirərkən yaxşı və pis cavabların, sadəcə, cəmi nəzərdə tutulmur. Bu zaman biliyi qiymətləndirmək üçün dərəcələrdən istifadə etmək məqsədəuyğundur. Dərəcələr dedikdə şagirdlərin fəaliyyətini yüksək, orta və aşağı balla qiymətləndirməyə imkan verən dəqiq ifadə olunmuş qaydalar nəzərdə tutulur. Ballar müxtəlif qradasiyalarda da ola bilər. Məsələn, əla, çox yaxşı, yaxşı, orta, aşağı, zəif, çox zəif və s. İbtidai siniflərdə şagirdlərin fəaliyyətini konkret söz və ya rəqəmlərlə deyil, müxtəlif işarələrlə göstərmək də olar. Məsələn, naturadan rəsm məşğələsində dərsin məqsədlərindən asılı olaraq, müəllim şagirdlərlə müzakirə edərək qiymətləndirmə meyarlarını müəyyən edir. Bu meyarlar yazı lövhəsində yazılır və ya şagirdlərə paylanılır.

| № | Meyarlar | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1. | Naturadan rəsmi vərəqdə necə yerləşdirmişəm? | + | + | + | + |
| 2. | Təsvirdə naturanın əsas səciyyəvi xüsusiyyətlərini nə dərəcədə göstərmişəm? | + | + | + | – |
| 3. | Formanı nə dərəcədə göstərmişəm? | + | + | + | – |
| 4. | Hissələr arasında ölçü fərqlərini necə göstərmişəm? | + | – | – | + |
| 5. | Əsas rəngləri nə dərəcədə göstərmişəm? | + | + | + | + |
| 6. | Naturadan rəsmi nə dərəcədə səliqəli yerinə yetirmişəm? | + | + | – | – |

Çap üçün deyil

Burada qiymətlər belə müəyyən oluna bilər: 6 meyar üzrə "+" işarəsi qoymuş şagirdlərin fəaliyyətləri "əla" (1-ci sütun); 5 meyar üzrə "+" işarəsi qoymuş şagirdlər "yaxşı" (2-ci sütun); 4 meyar üzrə "+" işarəsi qoymuş şagirdlər "orta" (3-cü sütun); 3 meyar üzrə "+" işarəsi qoymuş şagirdlərin fəaliyyəti isə "zəif" (4-cü sütun) qiymətlərlə qiymətləndirilir. "Əla", "Yaxşı", "Orta", "Zəif" sözləri əvəzinə onları xarakterizə edən mimikalardan (gülən, adi, qəzəbli, qəmli obrazlar) da istifadə etmək olar. Müəllim əvvəlcədən mimikalara aid hazırladığı kağızları şagirdlərə paylayır.

***Fərdi özünüqiymətləndirmə.*** Şagirdlərin təlim prosesindən daha çox faydalanmalarında müəllimin düzgün istiqamətdə köməklik göstərməsi üçün onlar özünüqiymətləndirmə formalarını doldurmalıdırlar. Bununla yanaşı, müəllim müxtəlif formalardan da istifadə edə bilər. Məsələn, süjetli rəsm çəkərkən şagirdin doldurması üçün müəllim aşağıdakı cədvəli formalaşdıra bilər. O, uyğun gələn səviyyəni seçərək "+" və ya "–" işarəsi ilə işarələyir.

| № | Meyarlar | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1. | Kompozisiya həllini necə tapmışam? | + | + | + | + |
| 2. | Varlıqların formasını necə vermişəm? | + | + | – | – |
| 3. | Varlıqların ölçülərindəki fərqi necə göstərmişəm? | + | + | + | + |
| 4. | İstifadə etdiyim rənglər ətrafdakı varlıqlara uyğundurmu? | + | – | – | – |
| 5. | Rəsm səliqəlidirmi? | + | + | + | + |
| 6. | Təsviri tapşırılan vaxt ərzində yerinə yetirdim? | + | + | + | – |

***Qrup fəaliyyətinin qiymətləndirilməsi.*** Şagirdləri qiymətləndirmək üçün müəllim özü də şagirdlərlə birlikdə meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər.
Bunun üçün o, tədqiqat işinə başlamazdan əvvəl şagirdlərlə birlikdə qrupun fəaliyyətini qiymətləndirmək üçün meyarlar işləyib hazırlamalıdır. Qiymətləndirmə ballarını ulduzlardan, müxtəlif işarələrdən, simvollardan (smayliklərdən) istifadə etməklə göstərmək olar. Nəticədə isə hər qrupun topladığı ulduz, simvol (smayliklər) sayılır.

| QRUP | MEYARLAR | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Dinləmə** | **Əməkdaşlıq** | **Tapşırıq tam və uyğun yerinə yetirilib** | **Əlavələr** | **Tərtibat** | **Vaxtında yerinə yetirilib** |
| **I** | | | | | | |
| **II** | | | | | | |
| **III** | | | | | | |
| **IV** | | | | | | |

***Toplum halında qiymətləndirmə.*** Toplum halında qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarını ən obyektiv şəkildə qiymətləndirməyə imkan verir. Lakin bu üsul digər qiymətləndirmə formalarına nisbətən mürəkkəb olduğu üçün daha çox səy tələb edir. Bunun üçün hər bir şagirdə bir qovluq (portfolio) ayrılır. Qiymətləndiriləcək işlər sinifdə müəllim və ya şagirdin özü tərəfindən bu qovluğun içinə yığılır. Müəllim və şagirdlər qiymətləndiriləcək materialları müəyyən etdikdən sonra şagirdlərin qoyulmuş məqsədə çatma səviyyəsini müəyyən etmək üçün bu materiallar üzrə qiymətləndirmə meyarları barədə razılığa gəlirlər.

Bu materiallar dərsin mövzuları üzrə çalışma və tapşırıqlardan, müxtəlif testlərdən, layihələrdən, tədqiqat işlərindən, ev tapşırıqlarından, özünüqiymətləndirmə formalarından, dərsdənkənar praktik tapşırıqlardan, şagirdlərin formalaşdırdığı suallar toplusundan və s. ibarət ola bilər. Bu, toplum vasitəsilə summativ qiymətləndirmə adlanır.

## — İNKLÜZİV TƏLİM PRİNSİPLƏRİ —

Hər bir şagird fərdi keyfiyyətlərindən asılı olaraq tədris materiallarını müxtəlif cür qavrayır. Buna baxmayaraq, təhsilin əsas məqsədi bütün təhsilalanların müəyyən ictimai status qazanması və öz sosial əhəmiyyətini təsdiq etməsidir. ***İnklüziya*** sağlamlıq imkanları məhdud uşaqlarda özünə inam yaratmaqla, onlara digər yaşıdları ilə eyni məktəbdə təhsil almaq şəraitinin yaradılmasıdır.



Çap üçün deyil

Xüsusi təlimə tələbatı olan bu cür uşaqların diqqət və yardıma böyük ehtiyacları var. Onların qabiliyyətlərinin və irəliləyişlərinin inkişaf etdirilməsi çox vacib amildir.

İnklüziya təkcə fərqli inkişaf xüsusiyyətləri olan uşaqlara deyil, həmçinin digər xüsusiyyətləri ilə yaşıdlarından fərqlənən uşaqların da yuxarıda sadalanan məqsədlərə çatmalarına yardım edir. Onlar başqa dildə danışan, başqa mədəniyyətə malik, fərqli həyat tərzi sürən, təhsilə müxtəlif maraq və qavrama qabiliyyəti göstərən uşaqlar da ola bilər. Belə uşaqlarla işləyərkən müəllim informasiyanı onlara müxtəlif forma və variantlarda çatdırmağa çalışmalıdır.

Yeni təlim prinsipləri imkanları məhdud olan uşaqların ümumi təhsil mühitinə inteqrasiya etmələrini və ümumi proqram əsasında təhsil almalarını tələb edir.

İnklüziv təlimin əsasını hər bir şagirdə fərdi yanaşılma ideyası təşkil edir. Belə ki, təlim hər bir uşağa məxsus tələbatların ödənilməsi zəminində təşkil olunmalıdır. Hər bir şagird təlimdə uğur qazanması üçün tələb olunan psixoloji yardım, diqqət və qayğı ilə əhatə olunmalıdır.

4-cü sinif təsviri incəsənət dərslərində inklüzivliyin aşağıdakı vasitələrlə təmin olunması nəzərdə tutulur:

- Bütün dərslərdə diskussiya, müsahibə və fərdi, cütlərlə və qrup işi formalarından istifadə etməklə interaktiv təlim vasitəsilə şagirdlərin aktivliyi təmin edilir;
- Uşaqları cütlərə və qruplara ayırarkən, məqsəddən asılı olaraq, orada təlim nəticələri müxtəlif olan şagirdlərin iştirak etməsi nəzərə alınır;
- Müəllim fərdi və cütlərdə aparılan tədqiqat işləri zamanı fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqlara xüsusi yardım göstərir;
- Müəllim qrup işlərində fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqların ümumi diskussiya və müzakirələrə aktiv qoşulmalarını təmin edir;
- Müəllim fərqli inkişafa malik uşaqlara tapşırıqlar verərkən çalışmaların işarələrinə diqqət yetirib diferensial yanaşma prinsipini gözləyir;
- Özünüqiymətləndirmə və formativ qiymətləndirmə zamanı meyarlar elə müəyyən edilir ki, şagirdlərdə qiymətləndirmə ilə bağlı stresslərin əmələ gəlməsinin qarşısı alınsın. Fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqların qiymətləndirilməsi prosesində müəllimin onlara xüsusi münasibətinin böyük əhəmiyyəti var.

## — MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİTDƏ İSTİFADƏ OLUNAN ÜSULLAR —

### BİBÖ cədvəlindən istifadə

BİBÖ cədvəlindən istifadə şagirdlərə əvvəlki bilik və təcrübə, yeni biliklər arasında əlaqə yaratmağa imkan verməklə şagirdin düşünməsini optimallaşdırır. Bu üsulu tətbiq etmək üçün müəllim şagirdlərlə birlikdə yazı lövhəsində aşağıdakı qaydada cədvəl çəkir.

| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
|---|---|---|
| • | ? | • |
| • | ? | • |
| • | ? | • |

Mövzuya uyğun olaraq şagirdlər "Bilirik" qrafasında ümumi razılıqla əldə olunan fikirləri yazırlar. Suallar isə vahid razılıq əldə olunmayan detallardan, dəqiq müəyyənləşməmiş mövqelərdən və fikir ayrılığından irəli gəlir. Həmin sualları "İstəyirik bilək" qrafasında yerləşdirirlər.

Mövzunu oxuyan zaman həmin sualları yaddaşlarında möhkəm saxlayırlar. Şagirdlər mətni oxuduqdan sonra onların diqqəti "İstəyirik bilək" qrafasında sadalanan sualların üzərinə qaytarılır. Oxu zamanı sualların hansına cavab tapdıqlarını aydınlaşdırırlar və bu cavabları "Öyrəndik" hissəsinə yazırlar. Cavabsız qalan sualları isə müəllimin göstərişi ilə şagirdlər müxtəlif yollarla cavablandırırlar.

Təsviri incəsənət dərsinin məqsədindən asılı olaraq, BİBÖ cədvəlinin "Öyrəndik" hissəsini dolduran zaman oraya sözlər, ifadələr deyil, öyrəndiklərini əks etdirən rəsm çəkmək olar.

Çap üçün deyil

## ZİQZAQ üsulu

Ziqzaq üsulu qısa vaxt ərzində mövzunu əhatəli keçməyə imkan verir. Bu üsulu tətbiq etmək üçün şagirdlər "doğma" qruplara bölünürlər. Sonra qrupdakı hər bir şagirdə təklif olunur ki, hərəsi bir rəqəm söyləməklə saysınlar. Öyrəniləcək mətnin həcmindən asılı olaraq, o, müəyyən hissələrə ayrılır (məsələn, dördhissəlidirsə, 1-dən 4-ə kimi sayırlar). Beləliklə, hər bir şagirdin söylədiyi rəqəm onun nömrəsi olacaqdır.

Sonra şagirdlərin diqqəti öyrəniləcək mətnə yönəldilir. Qısa şəkildə mövzunun adı və məzmunu müzakirə edilir. Müəllim izah edir ki, əsas vəzifə mətni araşdırmaq, məğzinə varmaqdır.

Məşğələnin sonunda hər bir qrup mətni tam başa düşməlidir. Şagirdlərin diqqətinə çatdırılır ki, mətn dörd hissəyə bölünmüşdür. Hər bir qrupdakı 1 nömrəli iştirakçı birinci hissə, 2 nömrəli iştirakçı ikinci hissə (3 və 4 nömrəli iştirakçılar da bu qayda ilə) üçün cavabdeh olacaqlar. Sonra eyni nömrəli üzvlər bir yerə toplaşırlar. İzah olunur ki, 1, 2, 3, 4 nömrəli şagirdlərdən ibarət olan qruplar indi "ekspert" qruplar adlanır.

"ZİQZAQ" sxemi




Onların vəzifəsi mətndən öhdələrinə düşən hissənin məzmununu diqqətlə öyrənməkdən ibarətdir. Onlar həmin hissəni oxumalı, tərəfdaşlar kimi onun məzmununu müzakirə etməli və materialı lazımınca qavradıqlarına əmin olmalıdırlar. Sonra onlar "doğma" qruplarına qayıdan zaman mətnin tədqiq etdikləri hissəsini həmin qrupun üzvlərinə hansı qaydada təqdim edəcəklərini qərarlaşdırmalıdırlar. "Ekspert" qruplarının işi başa çatdıqdan sonra "ekspert"lər öz "doğma" qruplarına qayıdaraq öyrəndiklərini, materialın məzmununu həmkarlarına izah edirlər. Nəticədə bütün qrup üzvləri mətnin məzmununu tam mənimsəməlidirlər.

## ESSE

Esse hər hansı problem haqqında şagirdlərin müstəqil düşüncələrini əks etdirən sərbəst yazı formasıdır və dərsin istənilən mərhələsində aparıla bilər. Bu yazı qısa vaxt ərzində yerinə yetirilir. Şagird lakonik və intensiv şəkildə mövzu üzrə öz mülahizələrini sərbəst yazır. Əgər biri nə yazmaq haqqında bilmirsə, yaza bilər: "Bilmirəm nə haqqında yazım". Əsas odur ki, dayanmadan, yazdığını oxumadan, düzəliş etmədən yazsınlar. Esse öyrənilən mövzuya dair biliklərin yekunlaşdırılmasına və şagirdlərin beynində nə baş verdiyi haqqında müəllimin xəbərdar olmasına kömək edir. Onun müddəti beş və on dəqiqəlikdir. Sonra müəllim yazılardan bəzilərini oxuda bilər və yaxud onları toplayıb başqa vaxt tanış ola bilər.

## VENN diaqramı

Venn diaqramı cisim və ya hadisələri müqayisə etmək və onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirməyə kömək edir. Bu diaqram nisbətən üst-üstə düşən iki və ya daha artıq çevrə üzərində qurulur. Ondan ümumi və fərqli cəhətləri olan iki aspektin müqayisəsi zamanı istifadə olunur. Çevrələrin üst-üstə düşdüyü hissədə nə isə yazmaq üçün kifayət qədər yer olmalıdır. Həmin yerdə ideyaların ümumi cəhətləri qeyd olunur. Sol və sağ tərəfdəki dairənin hissələrində isə yalnız onlara xarakterik olan cəhətlər göstərilir.

## ŞAXƏLƏNDİRMƏ (KLASTER)

Şaxələndirmə şagirdləri mövzu haqqında açıq və sərbəst düşünməyə sövq edən, əvvəlki təcrübəni nəzərdən keçirən pedaqoji üsuldur. O, yalnız fikirlərarası əlaqələr barədə düşünməyə təkan ve-

Çap üçün deyil

rən birləşmələr yaradır. Bu, təfəkkürün beynimizin necə fəaliyyət göstərməsi ilə daha sıx əlaqədə olan, qeyri-xətti formasıdır. Şaxələndirmədən mövzu ətraflı öyrənilməmişdən əvvəl, təfəkkürə təkan vermək üçün istifadə edilir. O, həmçinin öyrənilənləri yekunlaşdırma vasitəsi, yeni assosiasiyaların meydana gəlməsinin stimullaşdırılması üsulu və ya yeni təsəvvürlərin qrafik təsviri metodu kimi istifadə oluna bilər. Şaxələndirmə mərhələləri asan, yaddaqalan və sadədir.

- Mərkəzi sözü və ya ifadəni vərəqin, yazı lövhəsinin mərkəzinə yazın.
- Seçilmiş mövzu ilə əlaqəli ağlınıza gələn söz və ya ifadələri yazmağa başlayın.
- Fikirlər yada düşüb yazıldıqca onların arasında əlaqəli görünənləri xətlərlə birləşdirməyə başlayın.
- Vaxt bitənə və ya bütün fikirləriniz tükənənə qədər ağlınıza gələn mümkün qədər çox fikir yazın.

## T-sxemlər

Bu təsvirdən eyni bir konsepsiyanın iki aspektini müqayisə etmək üçün istifadə olunur. Məsələn, orta məktəblərin şagirdləri nədənsə esse yazmağa başlayarkən əvvəlcə aşağıda göstərilən qaydada müsbət və mənfi aspektlərin siyahısını tərtib edə bilərlər.

| **T-sxem** | |
|---|---|
| Müsbət aspektlər | Mənfi aspektlər |

## BEYİN HƏMLƏSİ

Şagirdlər fərdi şəkildə və yaxud cüt-cüt olmaqla mövzu üzrə onlara məlum olanların hamısını sadalayırlar. Bu zaman fikirlərin düzgün olub-olmamasının o qədər də əhamiyyəti yoxdur. Əsas məqsəd odur ki, şagird mövzu haqqında düşünməyə başlasın. Bu üsul problemin həlli yollarının araşdırılmasını öyrədir və müstəqil düşüncəni inkişaf etdirir.

## AUKSİON

Müəllim öyrənilən məsələni müəyyən edərək şagirdləri auksionun keçirilmə qaydaları haqqında təlimatlandırır. Öyrənilən əşya və ya hadisənin xüsusiyyətləri ardıcıl şəkildə adlandırılır.

Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir. Hər bir fikirdən sonra müəllim sayır: "Bir, iki..." Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir. Nümunə:

**"Elimizin bayramları, adətləri"** mövzusunda auksion keçirilir. Şagirdlər vərəqlərdə yazılmış anlayışlarla bağlı bildikləri fikri söyləyirlər.

| | | |
|---|---|---|
| **Novruz adətləri, oyunları** | **Novruzun etiqad və mərasimləri** | **Novruzun, baharın əlamətləri** |
| **Novruz süfrəsi** | **Novruz nəğmələri, deyişmələri** | **Novruzun acıtmaları** |

– həyət-bacanı təmizləyərlər;
– Novruza qədər ağacların dibini belləyərlər;
– səməni göyərdərlər;
– Novruz süfrəsi açarlar;
– tonqal yandırarlar;
– xonça bəzəyərlər;
– yumurta boyayarlar;
– axır çərşənbə günü şam yandırarlar;
– Novruz bayramında "Haxışta", "Bənövşə", "Kos-kosa" oynayarlar;
– birinci çərşənbə – su, ikincisi – od, üçüncüsü – yel, axırıncısı isə torpaq çərşənbəsidir və s.

Hər bir fikirdən sonra müəllim sayır: "Bir, iki...". Bu zaman digər şagird cəld bildiyini söyləyə bilər. Sonuncu fikri deyən şəxs (əgər ardını heç kim söyləmirsə) qalib sayılır.



Çap üçün deyil

## DƏYİRMİ MASA (KARUSEL)

Dərsdən əvvəl vatman kağızında mövzuya aid suallar yazılır. Həmin suallar kağız parçalarında da yazılaraq qruplara paylanır. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməyi ilə qruplara ötürülür.



Dairəvi şəkildə kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

## KONSEPTUAL CƏDVƏL

Konseptual cədvəl üç və ya daha çox məsələ, yaxud cəhətin müqayisəsini nəzərdə tutur. Cədvəlin şaquli sütununda müqayisə ediləcək obyektlər, üfüqi zolaqlarda isə onların müqayisə olunacaq xüsusiyyətləri və özəllikləri qeyd edilir. Nümunə:

| Rəssamın adı | Yaradıcılıq dövrü | Əsərləri | Əsərləri, əsasən, təsviri sənətin hansı növünə aiddir? |
|---|---|---|---|
| M.Q.İrəvani | | | |
| U.Q.Qarabaği | | | |
| M.M.Nəvvab | | | |
| Ö.Eldarov | | | |
| T.Nərimanbəyov | | | |

## QRUP MÜZAKİRƏSİ

Müəyyən mövzu verilir. Onun haqqında müxtəlif mülahizələri ortaya çıxarmaq məqsədilə mövzu ətrafında bütün qrup müzakirə aparır və hər bir qrup üzvünün fikrinə hörmətlə yanaşılır.

## İNTERAKTİV QEYDETMƏ SİSTEMİ – İQS (İNSERT)

Şagirdlərin davamlı məşğuliyyətini təmin edən bir çox tədris üsulu vardır. İQS (İNSERT) oxu zamanı şagirdlərin öz qavrayışını yoxlamasına imkan verən güclü vasitədir. Bu, səmərəli mütaliə və təfəkkür üçün İnteraktiv Qeydetmə Sistemi olub, işarələr sistemindən istifadə ilə mətni başa düşmək üçün biliyini yoxlamaqla düzgün cavab axtarmaq üsuludur. Bəzən bir səhifə materialı oxuyub qurtarırsan və məlum olur ki, yadında heç nə qalmayıb. Bu, fəal surətdə dərk etmək, anlamaq, qavradığını yoxlamaq üçün oxumağın ən yaxşı nümunəsidir. Bir çoxları mahiyyəti dərk etmədən oxu və digər öyrənmə proseslərini mənimsəmək istəyirlər. Öyrənmə prosesində mahiyyətin dərk edilməsi zəruridir. Lakin öyrənən şəxs proseslə məşğul deyilsə, öyrənmə imkanları hədər gedəcəkdir.

İnteraktiv Qeydetmə Sistemi vasitəsilə mətn xüsusi işarələrlə oxunur:

“+” – yeni informasiyadır, “–” – bildiyimə ziddir,
“?” – qarışıq informasiyadır, “✓” – əvvəl bilirdim.

Şagirdlərin yaş və hazırlıq səviyyəsindən asılı olaraq, işlədilən işarələr də müxtəlif olur. Aşağı siniflərdə iki işarədən istifadə edilsə yaxşıdır: “+” – yeni informasiyadır və “V” – əvvəl bilirdim. Oxunun məqsədindən və şagirdlərin işarə sistemi ilə işləmək təcrübəsindən asılı olaraq işarələr fərqli də ola bilər.

Çap üçün deyil

## KUBLAŞDIRMA

Kublaşdırma mövzuya müxtəlif cəhətlərdən nəzər salmağı asanlaşdıran tədris üsuludur. Bu üsul hər tərəfində təfəkkür və yazı üçün müxtəlif qısa göstərişlər olan kubdan istifadə olunmasını nəzərdə tutur. Kub (kiçik, yaxşı olar ki, tili 15-20 *sm* olsun) kağızdan hazırlanır. Kubun hər üzünə verilən altı qısa göstərişdən birini yazın:

**1. Təsvir et;**
**2. Müqayisə et;**
**3. Əlaqələndir;**
**4. Təhlil et;**
**5. Tətbiq et;**
**6. Lehinə, yaxud əleyhinə müqayisə et.**




## TƏRİFLƏR, SUALLAR, TƏKLİFLƏR

Təriflər, suallar, təkliflər üsulu tətbiq edilərkən şagird təqdimat zamanı başa düşmədiyi, onun üçün anlaşıqlı olmayan məsələlərə aid suallar verir. Çıxış zamanı məzmunla, nitqlə əlaqədar və s. xoşuna gələn cəhətlərin nədən ibarət olmasını şərh edir. Problemin həllinə aid öz təkliflərini irəli sürür. Bu üsul şagirdlərdə təhlil etmək bacarıqları formalaşdırır.

## TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ İKT-dən İSTİFADƏ İMKANLARI

Müasir tədris sistemində informasiya texnologiyaları o qədər geniş tətbiq olunur ki, artıq onların zəruriliyi şübhə doğurmur. Hazırda kənd məktəblərində də İKT-nin köməyi ilə dərslərin tədrisi mümkündür. Lakin vaxt keçdikcə daha yeni informasiya-kommunikasiya texnologiyaları yaranır, inkişaf edir, təkmilləşir. Təbii ki, məktəb bütün bu proseslərdən kənarda qala bilməz.

Artıq məktəbin gündəlik praktik həyatında interaktiv avadanlıqlar və elektron lövhələr tətbiq olunmaqdadır ki, bu da qısa müddət ərzində təlim-tədris prosesinin ayrılmaz hissəsinə çevrilib.

Çap üçün deyil

# 1. DOĞMA İNCƏSƏNƏTİN MƏNBƏYİ

## 1. DOĞMA DİYAR

— Təsvirlərdə məkan obrazı. Perspektiv —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.2.; 2.2.1.; 2.2.6.; 2.2.7.; 3.1.1. | |
| **Dərsin məqsədi** | • təbiətin insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• fırçadan istifadə etməklə akvarel, quaş vasitəsilə üfüqün üç əsas səviyyəsini, perspektivin qanunlarını nəzərə alaraq müxtəlif mənzərə təsvirləri yaradır;<br>• çəkdiyi mənzərə təsvirlərində ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• özünün və digərlərinin çəkdiyi təbiət təsvirlərinə münasibət bildirir;<br>• verilmiş mənzərə nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun şərh etməklə onlara münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 1.3.1.; 3.1.1.; 3.2.1.; A-d.: 2.2.5.; Tex.: 3.1.2.; İnf.: 3.3.1.; 3.3.4.; Mus.: 2.1.1. | |
| **Yeni sözlər** | perspektiv, hava perspektivi, qovuşma nöqtəsi, üfüq xətti, məkan planı | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi və qrup işi |
| | **ÜSULLAR** | şaxələndirmə (klaster), müzakirə |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, rəngli kağızlar, markerlər, mənzərə təsvirləri (rəssam əsərləri və ya fotoşəkillər), qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, akvarel, quaş, fırçalar, su, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

Müəllim sinfə müraciət edir: – Gördüyünüz rəsmlər təsviri sənətin hansı janrına aiddir? *(mənzərə).*
– Bu mənzərələrdə nələr təsvir olunub? *(dağ, düzənlik, dəniz).*





***Qeyd.*** *Müəllim motivasiyanı dərslikdə verilən rəssam əsərləri ilə də qura bilər.*

Müəllim **"MƏNZƏRƏ"** sözünü yazı lövhəsinin mərkəzində yazır və istiqamətləndirici suallar verir:
– Mənzərədə nələr təsvir olunur? Bunu çəkmək üçün nəyi bilmək lazımdır?

Bu anlayışla bağlı mümkün qədər söz və ya ifadələri 3 dəqiqə ərzində yazın. Şagirdlərə kiçik, rəngli vərəqlər paylayan müəllim onlardan ilkin biliklərini yazmağı xahiş edir. Vaxt tamam olduqda isə şagirdlərdən topladığı müxtəlif sözlər yazılmış rəngli vərəqləri yazı lövhəsində – **"MƏNZƏRƏ"** sözünün ətrafında bərkidir və şaxələndirməni qurur.

Çap üçün deyil

Nümunə:




– Kompozisiya baxımından mənzərələr bir-birindən nə ilə fərqlənir? *(1-ci mənzərədə yerin səthi az, qalan hissə isə çox yeri tutur; 2-ci rəsmdə səma ilə yerin tutduğu sahə bərabərdir; 3-cü mənzərədə isə əksinə, dəniz səthi çox, səma isə az hissəni tutur).* – Səmanın yerlə qovuşduğu xəttə **üfüq xətti** deyilir. Obyektlərdəki ölçü və rəngin fərqi nədədir? *(yaxındakı obyektlər iri və aydın, uzaqdakılar isə kiçik və solğun rəngdədir).* Mövzumuz **yaxın və uzağı** nəzərə alaraq mənzərənin təsviri olacaq.

*Tədqiqat sualı:* ***Mənzərə çəkmək üçün hansı qaydalara əməl etmək lazımdır? Üfüq xətti, "yaxın" və "uzaq" anlayışları mənzərənin təsvirlərində hansı rol oynayır?***

**Tədqiqatın aparılması**

Şagirdlər mətnlə tanış olurlar. Burada təbiətin rəngarəngliyi və müxtəlifliyini fotoşəkillərdə seyr etməklə sanki doğma diyarımıza ekskursiya edirlər və sualları cavablandırırlar.

Dərsliyin **"Tanış ol"** hissəsinin təhlilini aparır və 3-cü sinifdə aldıqları bilikləri xatırlamaqla əsərlərdə rəng palitrasını, əhvali-ruhiyyəni, obyektlərin müqayisəsini, rəng və ton kontrastını qeyd edirlər. Adətən, şagirdlər mənzərə təsvir edərkən ilk müraciət etdikləri günəş, dağ, ağac, ev, ot və s. olur. Belə "ənənə"dən uzaqlaşmaq üçün müəllim kompozisiyanın düzgün qurulmasının (rənglərin qarışdırılması, məkan seçimi, qovuşma nöqtəsi, üfüq) vacibliyini başa salır və rəssam əsərləri vasitəsilə perspektivi izah edir. Müəllim dərsin motivasiya mərhələsində nümayiş etdirdiyi 3 mənzərə növünün hər birini 4-6 xırda hissələrə bölərək şagirdlərə paylayır (şagirdlər çox olduqda 1 mənzərə də əlavə edilə bilər). Hissələri birləşdirərkən 3-4 qrup alınır.

Qrup üzvləri birləşir və 1-ci qrup dağ və səmanın, 2-ci qrup düzənlik mənzərəsində səma və torpağın, 3-cü qrup isə dəniz mənzərəsində dəniz və səmanın qovuşduğu xətti çəkir (4-cü qrup olarsa, dəniz və torpağın qovuşduğu xətti çəkir) və "Doğma diyarın mənzərəsi" mövzusunda maraqlı kompozisiya qururlar. Kompozisiyanın qurulmasında qruplar öncə üfüqü müəyyən edirlər. Müəllim bildirir ki, rəssamlar təsvirin dərinliyi deyəndə **3 "məkan planı"**nı nəzərdə tuturlar: **ön** (bu, aşağı hissədən birincidir), **orta** (ikinci) və **arxa** (üçüncü).

Onlar mənzərənin xüsusiyyətlərini müəyyənləşdirmək üçün dağ və düzənlik, çay və dəniz mənzərələrini bir-biri ilə müqayisə edirlər:

– Rəsmi çəkən zaman nəyə diqqət yetirmək lazımdır?

– Vərəqdə rəsmi nə üçün üfüqi və ya şaquli formatda çəkirlər? Bu nədən asılıdır?

Dağ mənzərəsində əsas diqqət uca zirvəli, başı qarlı dağların səmalara doğru ucaldığına yönəldilir. Düzənlik mənzərəsində isə əksinə, rəngarəng və geniş səmanın üfüq xətti havada əriyərək aşağı enir. Burada dəniz mənzərəsi haqqında da söhbət açılır. Bu mövzuda doğma diyarın təbiətinin xüsusiyyətini, obrazını daha dərindən hiss etmək, yaratmaq üçün musiqinin rolu əhəmiyyətlidir.

**Müəllim üçün əlavə məlumat**

**Perspektiv** (lat. "*perspicere*") – obyektlərin naturada olduğu kimi dəqiqliklə təsvir edilməsidir. Perspektiv elmi XIV–XV əsrlərdə (İntibah dövründə) İtaliya rəssamları və alimləri tərəfindən yaradılıb. Rəsmdə perspektiv qanunlar həlledici əhəmiyyətə malikdir. Əşyaların ölçüsü insan gözü ilə olduğu kimi deyil, bir qədər dəyişilmiş şəkildə qavranılır. Bu da **baxış nöqtəsi** ilə müəyyən obyekt arasındakı məsafədən asılıdır. Biz yaxındakı obyektləri böyük və aydın rəngdə, uzaqdakıları isə kiçik və solğun rəngdə görürük. Rəssam insanın görmə qavrayışına əsaslanan bu keyfiyyəti perspektiv qanunların köməyi ilə təsvir edir. Bununla yanaşı, **hava perspektivi** də vardır. Uzaqdakı obyektlər sanki zəif dumana bürünür. Çünki nəzər nöqtəsi ilə həmin obyektin arasında hava təbəqəsi var və həmin təbəqə onların əsl rənginə təsir göstərir. Buna görə də eyni yaşıl rəngli ağaclar, onların yaxında və ya uzaqda yerləşməsindən asılı olaraq, müxtəlif rəng çalarları ilə təsvir edilir.

**Məlumat mübadiləsi**

Qruplar rəsmlərini təqdim edirlər. Digər qruplar münasibətlərini bildirirlər.

**Məlumatın müzakirəsi və təşkili**

Müəllim suallar verir:



Çap üçün deyil

– Çəkdiyiniz rəsmlərdəki obyektlərin ölçüsü haqda nə deyə bilərsiniz? Kompozisiyalarda neçə plan çəkməyi nəzərdə tutmusunuz? Üfüq xəttini qeyd etməsəydiniz, rəsminiz necə olardı? Çəkdiyiniz hansı detallar təbiətdəki dəyişikliyi bildirir? Hansı fəsli təsvir etmisiniz? Fəsillərin rənglərini nəzərə almısınızmı?

**Ümumiləşdirmə və nəticə**

Şagirdlər "MƏNZƏRƏ" sözünün şaxələndirilməsini öyrəndikləri qaydalar əsasında davam etdirirlər.

**Nümunə:**




**Yaradıcı tətbiqetmə**

"Yay fəslinin obrazı" mövzusunda aplikasiya və ya kollaj düzəltmək.

**Qiymətləndirmə**

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Boyalar vasitəsilə təsviretmə;
- Münasibətbildirmə;
- Şərh etməklə münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təbiətin insanlara təsiri haqqında məlumata malikdir. | Təbiətin insanlara təsirini suallara əsasən şərh edir. | Təbiətin insanlara təsirini nümunələr əsasında müəllimin köməyi ilə şərh edir. | Təbiətin insanlara təsirini nümunələr əsasında sərbəst şərh edir. |
| Fırçadan istifadə etməklə akvarel, quaş vasitəsilə mənzərə təsvirləri yaratmağa çalışır. | Fırçadan istifadə etməklə akvarel, quaş vasitəsilə müxtəlif mənzərə təsvirləri yaradır. | Fırçadan istifadə etməklə akvarel, quaş vasitəsilə üfüqün üç əsas səviyyəsini nəzərə alaraq mənzərə təsvirləri yaradır. | Fırçadan istifadə etməklə akvarel, quaş vasitəsilə üfüqün üç əsas səviyyəsini, perspektivi nəzərə alaraq müxtəlif mənzərə təsvirləri yaradır. |
| Çəkdiyi mənzərə təsvirlərində ifadə olunmuş fikirləri sadə ifadələrlə izah etməyə çalışır. | Çəkdiyi mənzərə təsvirlərində ifadə olunmuş fikir və ideyaları müəllimin verdiyi suallar əsasında cavablandırır. | Çəkdiyi mənzərə təsvirlərində ifadə olunmuş fikir və ideyaları çətinliklə şərh edir. | Çəkdiyi mənzərə təsvirlərində ifadə olunmuş fikir və ideyaları səlis şərh edir. |
| Özünün və digərlərinin çəkdiyi təbiət təsvirlərinə münasibət bildirməyə çalışır. | Özünün və digərlərinin çəkdiyi təbiət təsvirlərindəki üfüq xəttinə münasibət bildirir. | Özünün və digərlərinin çəkdiyi təbiət təsvirlərindəki üfüq xəttinə, perspektivin qaydalarının nəzərə alınmasına münasibət bildirir. | Özünün və digərlərinin çəkdiyi təbiət təsvirlərinə münasibət bildirir. |
| Verilmiş mənzərə nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni öz yaş səviyyəsinə uyğun izah edir. | Verilmiş mənzərə nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni öz yaş səviyyəsinə uyğun izah etməklə onlara münasibət bildirir. | Verilmiş mənzərə nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni öz yaş səviyyəsinə uyğun şərh edir, suallar əsasında onlara münasibət bildirir. | Verilmiş mənzərə nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni öz yaş səviyyəsinə uyğun şərh etməklə onlara münasibət bildirir. |



Çap üçün deyil

## 2. TORPAĞIMIZIN NEMƏTLƏRİ

— Natürmort: işıq-kölgə, forma və həcm —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | naturadan rəsm | |
| **Alt-standart** | 1.1.2.; 2.1.2.; 2.2.1.; 2.2.2. | |
| **Dərsin məqsədi** | • payız məhsullarından ibarət natürmortun insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• rəngkarlıq növü və natürmort janrı barədə kiçik təqdimatlar edir;<br>• fırçadan istifadə etməklə akvarellə payız məhsullarından ibarət kompozisiya yaradır;<br>• payız məhsullarını naturadan nisbi dəqiqliklə təsvir edir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 1.3.1; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. | |
| **Yeni sözlər** | işıq-kölgə, blik, işıq, yarımkölgə, öz kölgəsi, düşən kölgə, refleks, lessirovka, proporsiya | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi və cütlüklərlə iş |
| | **ÜSULLAR** | beyin həmləsi, müzakirə |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait;<br>rəngli kağızlar, markerlər, natürmort təsvirləri (rəssam əsərləri və ya fotoşəkillər), masaüstü lampa və ya fənər, kürə və ya kürəyəbənzər əşya, BİBÖ və qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, akvarel, akvarel üçün kağız, fırçalar, plastik palitra, su, natürmort üçün meyvə, tərəvəz |

**Dərsin gedişi / Motivasiya**

*Müəllim 2 motivasiya nümunəsindən birini seçib tətbiq edə bilər.*

**1.** Müəllim yazı lövhəsinə 2 ədəd – qırmızı və yaşıl dairəni bərkidir və soruşur:

– Nə görürsünüz? Gördüklərinizdən birini dairə, digərini kürə adlandırmaq olarmı? *(xeyr, hər ikisi dairədir)*

– Ətrafınızda dairə formasında olan nələri nümunə olaraq söylərdiniz? *(düymə, boşqab və s.; şagirdlər dedikcə müəllim də yazı lövhəsinə yapışdırdığı qırmızı dairənin ətrafında qeyd edir)*

– Dairə ilə kürə necə fərqlənir? *(dairə – yastı, kürə – həcmli fiqurdur)*

– Kürəyəbənzər formaya malik olan hansı əşyaların adını çəkə bilərsiniz? *(top, portağal, heyva və s.; şagirdlər dedikcə müəllim də yaşıl dairənin ətrafında yazır)*

– Onların formasını necə müəyyən etdiniz? *(fərziyyələr)*

Əşyanın həcmi işıq və kölgə vasitəsilə müəyyən edilir.

*Nümunə:*




**2.** Müəllim günəş, ay, elektrik lampası, şam, tonqal təsvir olunmuş şəkilləri nümayiş etdirir və soruşur:

Çap üçün deyil



– Gördüklərinizi  bir sözlə necə adlandırardınız? *(işıq mənbələri)*
– Onların oxşar və fərqli cəhətləri haqqında nə deyə bilərsiniz? *(fərziyyələr)*
– Onları necə qruplaşdırmaq olar? Adlarını söyləyin *(təbii – Günəş, Ay və süni – elektrik lampası, şam, tonqal)*
– Əgər işıq olmasa, biz ətrafı görə bilərik? *(yalnız işıq mənbəyi vasitəsilə görmək olar)*
Müəllim kürəni süni işıq mənbəyi ilə işıqlandırır.

– Ən sadə əşyaya – kürəyə diqqətlə baxsanız, görərsiniz ki, onun üzərinə düşən işıq kürənin formasına yayılır, bu zaman müxtəlif tonları – *ən açıqdan ən tündə* qədər görmək olar. İşıq mənbəyinin əşya üzərinə hansı tərəfdən düşməsindən asılı olaraq onun işıqlanan hissəsi açıq rəngdə – işıqlı, işıqlanmayan hissəsi isə tünd rəngdə olur, yəni **kölgə** əmələ gəlir. İşıq və kölgə isə həcm yaradır. Əşyaları təsvir etmək üçün bu anlayışları mənimsəmək lazımdır.






*Tədqiqat sualı:* ***Natürmortda forma və həcmi göstərmək üçün nə etmək lazımdır?***

## Tədqiqatın aparılması

Şagirdlər mətni fərdi şəkildə və ya yanındakı yoldaşı ilə *(cütlükdə)* birlikdə oxuyurlar. Torpağımızın nemətləri olan meyvə, tərəvəz və giləmeyvələrin forma və rəng müxtəlifliyi ilə tanış olur, rəssam əsərlərinə yönəldilən sualları cavablandırırlar. Müəllim şagirdlərə işıq mənbəyinin müxtəlif istiqamətlərdə düşməsi nəticəsində *(ön tərəfdən, yuxarı və yandan – sağdan və ya soldan)* kürənin işıqlanması və kölgələrin formalarının müxtəlif ola bildiyini nümayiş etdirir. O, şagirdlərin diqqətini dərslikdəki mövzunun **"Tanış ol"** hissəsinə yönəldir və onlar rəsm zamanı ən vacib olan işıq və kölgənin əhəmiyyətini dərk edirlər. **"Yadda saxla"** hissəsində şagirdlər tonun dərəcələri olan **blik** və **refleks** haqda məlumatla tanış olurlar.

Payız fəslinə aid meyvə, tərəvəz və giləmeyvələrdən ibarət natürmort qurulur *(natürmortun quruluşu iş formasından asılı olaraq ümumi və ya hər partada qurula bilər).* Kompozisiya həlli şagirdlərə həvalə edilir. Naturanın quruluşunun təhlilindən sonra şagirdlər sərbəst işə başlayırlar. Dərslikdə – **"Sənətkar məsləhəti"** adlı guşədə akvarellə iş qaydaları – natürmortun çəkilməsi və rəngləmə mərhələləri, rəsmin kompozisiya həlli və üfüq xəttinin seçimi izah olunub *(şagirdlər natürmortu cütlükdə və ya fərdi şəkildə çəkirlər).* Çəkiləcək rəsm vərəqdə ümumi "qurma"dan başlayır. Sonra isə ölçülər müəyyənləşdirilir və hər bir əşyanın xırda detalları dəqiqləşdirilir. Müəllim mütəmadi olaraq şagirdlərə yaxınlaşır, onlara istiqamət verir və çəkdikləri rəsmi natura ilə müqayisə etməyi xatırladır. Karandaşla çəkilən rəsmdən sonra rəng həlli müzakirə olunur. Müəllim işığın hansı tərəfdən düşdüyünü və işıqlanan hissəyə xüsusi diqqət yetirməyi məsləhət görür. Rəsmə başlamazdan əvvəl müəllim xatırladır ki, **blik** *(ən açıq yer)* rənglənməməlidir *(natürmortu hissə-hissə çəkmək olmaz; məsələn, öncə alma, sonra portağal və s.).* Bütün əşya qrupuna əvvəlcə ümumi baxmalı, sonra ümumidən xırdalığa *(detallara)* keçmək lazımdır. Rənglə işləyən zaman əşyaların rəng əlaqələrini və detallarını çəkərkən onların açıq və ya tündlüyünə görə müqayisəsi münasib sayılır.

Çap üçün deyil

**Məlumat mübadiləsi**

Şagirdlər təsvir etdikləri natürmortu təqdim edirlər.

**Məlumatın müzakirəsi və təşkili**

Müəllim uşaqlara suallar verir: – Çəkdiyiniz natürmortun kompozisiyası xoşunuza gəlirmi? Torpağımız hansı nemətləri ilə tanınır? Rəssamlar bu nemətlərə münasibətlərini necə göstərirlər? Natürmort janrını təsviri incəsənətin hansı növündə işləmək olar? Niyə? Kolorit haqda nə deyə bilərsiniz? İşıq və kölgəni göstərmək üçün nə etdiniz? Yoldaşlarınız buna necə nail oldu?

**Ümumiləşdirmə və nəticə**

– İşıq və kölgə nədən asılıdır? *(1 – əşyanın formasından; 2 – səthindəki hamarlıq və ya kələ-kötürlükdən; 3 – rəngindən; 4 – işıqlanmasından; 5 – əşyaya qədər olan məsafədən).*

**Yaradıcı tətbiqetmə**

Natürmortun işləmə ardıcıllığına əməl edərək bardaq və meyvə ilə natürmort çəkmək.

**Qiymətləndirmə**

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təqdimatetmə;
- Təsviretmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Payız məhsullarından ibarət natürmortun insanlara təsirini şərh etməkdə çətinlik çəkir. | Payız məhsullarından ibarət natürmortun insanlara təsirini müəllimin sualları əsasında cavablandırır. | Payız məhsullarından ibarət natürmortun insanlara təsirini nümunələr əsasında izah edərkən bəzən səhvlərə yol verir. | Payız məhsullarından ibarət natürmortun insanlara təsirini nümunələr əsasında şərh edir. |
| Rəngkarlıq növü və natürmort janrı barədə səthi məlumat verir. | Rəngkarlıq növü haqqında təqdimat etməkdə çətinlik çəkir, lakin natürmort janrı barədə kiçik təqdimat edir. | Rəngkarlıq növü və natürmort janrı barədə verilmiş nümunələr əsasında kiçik təqdimatlar edir. | Rəngkarlıq növü və natürmort janrı barədə kiçik təqdimatlar edir. |
| Fırçadan istifadə etməklə akvarellə payız məhsullarını səliqəsiz rəngləyir, kompozisiyanın düzgün qurulmasında çətinlik çəkir. | Fırçadan istifadə etməklə akvarellə payız məhsullarını rəngləyir, kompozisiyanı səhvlərə yol verməklə yaradır. | Fırçadan istifadə etməklə akvarellə payız məhsullarını çəkir, kompozisiyanın yaradılmasında müəllimin köməyindən istifadə edir. | Fırçadan istifadə etməklə akvarellə payız məhsullarından ibarət kompozisiyanı sərbəst yaradır. |
| Payız məhsullarını naturadan nisbi dəqiqliklə təsvir etməkdə çətinlik çəkir. | Payız məhsullarını naturadan nisbi dəqiqliklə təsvir edir, lakin formaların quruluşunda səhvlərə yol verir. | Payız məhsullarını naturadan nisbi dəqiqliklə müəllimin köməyi ilə təsvir edir. | Payız məhsullarını naturadan nisbi dəqiqliklə təsvir edir. |

## 3. İNSAN TİKİR, BƏZƏYİR, TƏSVİR EDİR

— Tarixə səyahət —

| | |
|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm |
| **Alt-standart** | 1.1.2.; 2.2.1.; 2.2.6.; 2.2.7. |
| **Dərsin məqsədi** | • təsviri sənətin insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• fırçadan istifadə etməklə quaş, flomasterlər və rəngli karandaşlar vasitəsilə sadə təsvirlər, dekorativ kompozisiya – panno yaradır;<br>• təsvirlərdə ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• özünün və digərlərinin yaratdığı pannoya münasibət bildirir. |
| **Dərsin tipi** | deduktiv |
| **Fənlərarası inteqrasiya** | H-b.: 1.3.1; 3.1.1; 3.2.1; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4; A-d.: 2.2.5. |

Çap üçün deyil

| | | |
|---|---|---|
| **Yeni sözlər** | panno | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | qrup işi |
| | **ÜSULLAR** | anlayışın çıxarılması, dəyirmi masa (karusel), qrup müzakirəsi, təqdimat |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, müxtəlif panno nümunələri və ya şəkilləri, flomasterlər, markerlər, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan;<br>4 ədəd A2 formatlı iş vərəqləri, panno üçün ağ və rəngli A1 formatlı vərəqlər, quaş, fırçalar, su, flomasterlər |

**Dərsin gedişi / Motivasiya**

Müəllim suallar verir: – Gördüyünüz rəsmlərdə nələr təsvir olunub? (*heyvan dərisi, daş və sümükdən muncuq, ocaq yeri, əmək alətləri, qayaüstü rəsmlər*). – İnsanlar heyvan dərisindən, balıqqulağı və sümükdən necə istifadə edirdilər? *(bəzək əşyası düzəldirdilər).* – Ocaq və əmək alətləri necə əmələ gəldi? *(tikmək və düzəltməklə).* – Qaya və mağaraların üzərində nələr görmək olardı? *(müxtəlif təsvirlər).* – Dediklərinizin hər birini cəmləşdirsək, insan nələr edirdi? *(bəzəyir, tikir və təsvir edirdi).* – Bu 3 fəaliyyəti keçdiyiniz hansı fəndə daha çox istifadə edirsiniz? *(təsviri incəsənətdə).* – Sizin fikrinizcə, insanın bu fəaliyyətləri, yəni təsviri incəsənət nə vaxtdan yaranıb? *(qədim zamanlardan).* – Bu dərsimizdə siz qədim insanın fəaliyyətini əks etdirən panno yaradacaqsınız. Bilirsiniz panno nədir? – Panno – divarı bəzəmək üçün iri dekorativ şəkil deməkdir. Pannonu, adətən, qalın karton, parça, plastmas və ya nazik taxta layları üzərində yaradırlar.



*Tədqiqat sualı:* ***İnsan hansı məqsədlə tikir, bəzəyir və təsvir edir? Pannonu yaratmaq üçün nə etmək lazımdır?***

**Tədqiqatın aparılması**

Mövzunun məqsədi **"TARİXİMİZƏ SƏYAHƏT"**dir və şərti olaraq *3 hissəyə* bölünür.

Birinci – **"İNSAN TİKİR"** hissəsində şagirdlər insanın ən qədim dövrlərdə tikdiyi ilk yaşayış yeri, onun mağarası, əmək alətlərinin daş və ağacdan olduğu ilə tanış olurlar.

İkinci –**"İNSAN BƏZƏYİR"** hissəsində insanların istifadə etdikləri əşyalara **bəzək** vurmaq, nişan və işarələrlə bir-birindən fərqləndiyini anlayırlar.

Üçüncü – **"İNSAN TƏSVİR EDİR"** hissəsində qayaüstü təsvirlərlə tanış olurlar. Təsvirlər arasında ov səhnələri ilə əlaqədar rəsmlər və xüsusilə vəhşi öküz, maral, keçi şəkilləri çoxdur. Bu da təsadüfi deyildir, çünki Azərbaycanın ərazisində yaşayan ibtidai insanların həyatında ovçuluq mühüm yer tuturdu. Qədim insanların həyatında ov əsas yaşayış mənbəyi olduğu üçün təsvir edilən kompozisiyalarda da daim diqqət mərkəzində idi. Mağara üzərində heyvan təsvirləri çəkərkən və ya gildən onların fiqurlarını düzəldərkən qədim insan müəyyən praktik məqsəd güdürdü – o, bununla ovun uğurlu olmasının nə dərəcədə vacibliyini vurğulayırdı. Şagirdlər burada ibtidai insanların incəsənətində ritm və simmetriyanın rolunu da müzakirə edirlər. Müəllim şagirdləri fəaliyyət növlərinə görə 4 qrupa ayırır və onları SƏNƏTKARLAR adlandırır.

**1-ci** qrup – **QURMA SƏNƏTKARI** – qədim insanın qurduğu ilk ocaq yerini, düzəltdiyi əmək alətlərini;

**2-ci** qrup – **TƏSVİR SƏNƏTKARI** – qaya üzərindəki təsvirlərin hər birini A4 formatlı rəsm vərəqində ayrı-ayrılıqda çəkir, sonra təsvirləri pannoya bərkitmək və ya yapışdırmaq üçün kənar hissələrindən onları kəsir;

**3-cü** qrup – **BƏZƏK SƏNƏTKARI** – insanın mağarasının içini bəzəmək üçün lazım olan elementləri, insanın geyimini, bəzək əşyalarını;

**4-cü** qrup – **KOMPOZİSİYA SƏNƏTKARI**nın işi pannonun fonunu işləməkdir. Qrup, ilk növbədə, pannonun süjetini fikirləşib müəyyən edir. Buna ən yaxşı nümunə dərslikdəki təsvirlər ola bilər. Pannonun kompozisiyasının tərtibatı üçün – fon, təbiət, qayaları yerləşdirmək üçün A1 formatlı ağ və rəngli vərəqlərdən istifadə edirlər. Əvvəlcədən yaradacaqları pannonun eskizlərini çəkib müəyyənləşdirirlər. Rəng seçiminə xüsusi diqqət yetirmək lazımdır, bu, süjetdən asılı ola bilər.

Çap üçün deyil

**Müəllim üçün əlavə məlumat**

**Panno** (frans. "*panneau*", lat. "*pannus*" – "*parçanın bir hissəsi*" deməkdir) – divarın ornament və ya düzəldilmiş çərçivə ilə haşiyələnmiş, rəssam tərəfindən çəkilmiş və quraşdırılmış hissəsidir. Ağac oymalarına, mozaik kompozisiyalara, parça quramalara da panno deyilir.

**Qədim yaşayış məskəni.** Azərbaycanda ən qədim insan yaşayışı olan abidə Azıx mağarasıdır. O, Füzuli rayonu ərazisindədir. Orada yaşamış insan "Azıx adamı" adlanır. Burada qədim zamanlara aid ocaq izləri, çoxlu daş alət də tapılmışdır. Təsviri sənətin ən qədim nümunələri Qobustan qayalarıdır. Qayalar üzərində həkk olunmuş rəsmlərdə orada yaşamış qədim insanların həyat tərzi, məişəti, əməyi ilə əlaqədar təsvirlər bu gün də qalmaqdadır. Burada ovçuluq, maldarlıq, əkinçilik və məişətin digər sahələri ilə bağlı müxtəlif süjetlər, səhnələr, insan və heyvan təsvirləri dinamik tərzdə həkk olunmuşdur.

### Məlumat mübadiləsi

Qrupların hər biri onlara aid işləri çəkdikdən sonra kəsərək təqdim edir. Pannonun elementləri hazır olduqdan sonra hər qrup üzvü onları pannodakı münasib yerlərə yapışdırır. İşin başa çatdırılması üçün yaratdıqları pannonun kompozisiyasının xırda elementlərini də tamamlayırlar.

Müəllim: Panno da rəsm əsəri kimidir. Elə təsəvvür edin ki, bu, rəssamın kətan üzərində yaratdığı əsərdir. Lakin bu əsəri divarda asdıqda onun daha da möhtəşəm görünməsi üçün daha nə lazımdır? *(çərçivə)*

Müəllim cavabları dinlədikdən sonra deyir: – Deməli, siz də pannonuza çərçivə düzəltməlisiniz, onun ətrafını çərçivə ilə haşiyələmək lazımdır. Bu çərçivə kompozisiyanı tamamlayır və onu seyr edənlərin diqqətini ətrafa yayındırmır. Çərçivə özü də kompozisiyanın bir hissəsidir. Onu rəngli kağız və plastilinlə də düzəltmək olar.

Hazır pannonu divara bərkitmək üçün yuxarı kənar hissələrindən 2 dəlik açmaq, qalın sap keçirmək və onun arxa tərəfindən düyünləmək lazımdır.

### Məlumatın müzakirəsi və təşkili

Müəllim qruplara mövzuya dair 4-5 açıq sual və ya tapşırıq verir. Hər qrupun yazmaq üçün yeri çox olmalıdır. Bunun üçün müəllim A2 formatlı iş vərəqləri tərtib edir və orada sualları müxtəlif rənglərdə olan flomasterlərlə yazır. Qrupların hər birinə suallara aid cavabı həmin rəngdə olan flomasterlə yazmağı tapşırır.




***Qeyd.*** *Əgər dəyirmi masa (karusel) üsulu, müəllimin fikrincə, çox vaxt aparsa, o, müzakirəni, sadəcə, sual və cavabla yerinə yetirə bilər; məsələn: – Yaratdığınız panno haqda nə deyə bilərsiniz? O, sizdə hansı hisslər oyadır? Pannonun çərçivəsi olmasaydı, necə görünərdi?*

Qrup iş vərəqlərindəki yazıları nəzərdən keçirir və öz əlavələrini edir. Müəllim bir-birinə ötürmə prosesinə gecikmələr olmaması üçün nəzarət edir. Bu proses qrupların hamısı hər bir iş vərəqini nəzərdən keçirib əlavələr edənədək davam edir. Sonra bu vərəqlər ilkin qrupa qaytarılır, təqdimatlar və onların müzakirəsi başlayır

### Ümumiləşdirmə və nəticə

Müəllim suallar verir: Bu gün nə öyrəndiniz? Hansı yeniliklərlə tanış oldunuz? Panno nə üçün istifadə edilir? Onun yaradılmasında hansı materiallardan istifadə etmək olar? Çərçivə nə üçün lazımdır?

### Yaradıcı tətbiqetmə

Müxtəlif mənbələrdən qədim insan, onun yaşadığı yer, həyat tərzi, istifadə etdiyi geyimlər haqqında əlavə məlumat toplamaq, yazılı şəkildə və ya slaydlar vasitəsilə təqdimat hazırlamaq.

Çap üçün deyil

**Qiymətləndirmə**

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təsviretmə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətin insanlara təsirini nümunələr əsasında şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətin insanlara təsirini müəllimin suallarına əsasən cavablandırır. | Təsviri sənətin insanlara təsirini nümunələr əsasında izah edir. | Təsviri sənətin insanlara təsirini nümunələr əsasında şərh edir. |
| Fırçadan istifadə etməklə quaş, flomasterlər və rəngli karandaşlar vasitəsilə sadə təsvirlərin, pannonun düzgün yaradılmasında çətinlik çəkir. | Fırçadan istifadə etməklə quaş, flomasterlər və rəngli karandaşlar vasitəsilə sadə təsvirlər çəkir, pannonu səhvlərə yol verməklə yaradır. | Fırçadan istifadə etməklə quaş, flomasterlər və rəngli karandaşlar vasitəsilə sadə təsvirlər çəkir, pannonun yaradılmasında müəllimin köməyindən istifadə edir. | Fırçadan istifadə etməklə quaş, flomasterlər və rəngli karandaşlar vasitəsilə sadə təsvirlər, dekorativ kompozisiya – panno yaradır. |
| Təsvirlərdə ifadə olunmuş fikirləri sadə ifadələrlə izah etməyə çalışır. | Təsvirlərdə ifadə olunmuş fikir və ideyaları müəllimin verdiyi suallar əsasında cavablandırır. | Təsvirlərdə ifadə olunmuş fikir və ideyaları çətinliklə şərh edir. | Təsvirlərdə ifadə olunmuş fikir və ideyaları səlis şərh edir. |
| Özünün və digərlərinin yaratdığı pannoya münasibət bildirməyə çalışır. | Özünün və digərlərinin yaratdığı pannodakı təsvirlərə münasibət bildirir. | Özünün və digərlərinin yaratdığı pannodakı təsvirlərə, dekorativ çərçivəyə münasibət bildirir. | Özünün və digərlərinin yaratdığı pannoya münasibət bildirir. |

## 4. TİKİLİLƏRİN MÜXTƏLİFLİYİ

— Xalq memarlığı: konstruksiya, obraz —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | dekorativ-tətbiqi fəaliyyət / konstruksiya | |
| **Alt-standart** | 2.2.2.; 2.2.6.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • üçölçülü evlərin konstruksiyasını nisbi dəqiqliklə düzəldir;<br>• düzəltdiyi evlərin konstruksiyasında ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• özünün və digərlərinin düzəltdiyi konstruksiyalara münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | A-d.: 2.2.5; H-b.: 3.1.1; 3.2.1; Tex.: 1.2.2; 1.2.3; İnf.: 3.3.1. | |
| **Yeni sözlər** | alaçıq, çovustan, koma, daxma, keçə, küləş, qarğı, dirək | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | kollektiv iş |
| | **ÜSULLAR** | beyin həmləsi, konseptual cədvəl, müzakirə |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, evlərin, kəndin etnoqrafik fotoları, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, akvarel, quaş, fırçalar, su, plastilin, plastik bıçaq və lövhə, rəngli kağız və karton, qayçı, PVA yapışqanı, flomasterlər, pastel təbaşirlər, qutular, çöplər, dəri kəsikləri, kiçik daşlar, kibrit çöpləri |

**Dərsin gedişi / Motivasiya**

Motivasiya nümunələrindən yalnız biri sinfin səviyyəsinə uyğun olaraq təqdim etmək üçün seçilməlidir.

**1.** Müəllim yazı lövhəsindən qədim zamanlarda müxtəlif xalqlara məxsus olan evlərin təsvirlərini asır və soruşur:
– Gördüklərinizin hər biri nədir və nə üçündür? *(evlər – yaşayış yeri)*

Çap üçün deyil



– Onların bir-birindən fərqi nədədir? (*fərziyyələr*)
– Bu fərqləri ümumiləşdirsək, necə ifadə etmək olar? *(forma, konstruksiya, material)*

**2.** Müəllim *quşlar üçün yem qutusu (yuva), it damı, arı şanı, ilbiz çanağı, koğuş olan şəkillər* asır və soruşur:



– Gördüklərinizin hər biri nədir və nə üçündür? *(yaşayış yeri)*
Sonra onların altından canlıların – ilbiz, arı, sincab, sığırçın, it şəkillərini bərkidir və sinfə müraciət edir:



– Bu yaşayış yerləri hansı canlılara məxsusdur? Onları müvafiq saydığınız evin altında yerləşdirin.
Müəllim sonra yaşayış yerlərinin yanından böyük bir sual işarəsi asır və soruşur:
– Daha hansı canlını və onun yaşayış yeri haqqında deməyi unutduq? *(insan və onun evi)*
– Sizin fikrinizcə, yuva canlılara nə üçün lazımdır? *(fərziyyələr)*

*Tədqiqat sualı:* ***İnsanlar yaşayış tərzindən asılı olaraq hansı tikililərdə yaşayırdılar? Evin konstruksiyası, forması necə olmalıdır?***

**Tədqiqatın aparılması**

Şagirdlər qədim zamanlarda insanların məşğuliyyəti ilə bağlı olan yaşayış tərzi haqqında maraqlı məlumat alırlar. Onların yaşadıqları evlərin – forma, konstruksiya və obrazını təhlil edir, inşaatda istifadə edilən təbii materiallar haqqında məlumat alır və sualları cavablandırırlar.




Dərslikdə hər evin həyətində taxıl anbarı, su quyusu, təndir, samanlıq, tövlə, toyuq hininin olması haqqında məlumat şagirdlərdə kəndin obrazı haqqında ümumi təsəvvürlər yaradır. Naxışlı darvazalar, üzərindəki qoruyucu rəmzlər qədimdə insanların inanclarla, şər qüvvələrlə bağlı fikirlərinin ifadəsidir. Şagirdlərin sərbəst fəaliyyətləri üçün müəllim onları istədiyi kimi, evlərin formalarına, adlarına, inşaat materiallarına görə qruplara ayırır.

Onlar gətirdikləri ləvazimatlardan istifadə edərək maketlər hazırlayır və düzəldirlər:
**1-ci** qrup – **alaçığın, 2-ci** qrup – **çovustanın**, **3-cü** qrup – **koma**nın konstruksiyası üzərində işləyir. Digər qruplar isə kəndin obrazını yaratmaq üçün evin həyətindəki müxtəlif tikililəri düzəldir. **4-cü** qrup – **taxıl anbarı və su quyusu**, **5-ci** qrup – **tövlə və təndir**, **6-cı** qrup isə **toyuq hini** və plastilindən bir neçə **ağac, insan** düzəldir.

> ***Qeyd.*** *Bu mövzunu müəllim istədiyi kimi qura bilər. Ümumi panno, kollektiv iş, kağızdan maketlərin qurulması, aplikasiya, kollaj və ya mövzu üzrə rəsm ola bilər. Müəllim mövzuya yaradıcı yanaşmaqla bu fəaliyyətləri bir-biri ilə birləşdirərək uyğunlaşdıra da bilər. Müəllim evlərin konstruksiya və bəzəyini – əcdadlarımızdan miras qalmış bu mədəniyyət elementlərini şagirdlərin nəzərinə çatdırmalıdır. Ən əsası isə mədəni irsimizin, ənənələrin qorunub-saxlanmasının vacib olduğunu onlara vurğulamalıdır.*

**Məlumat mübadiləsi**

Qruplar işlərini təqdim edir. Hər bir qrupun işini bir yerə yığan müəllim onlarla birgə kənd həyati düzəldir.



Çap üçün deyil

**Məlumatın müzakirəsi və təşkili**

Yiyələndikləri biliklərə əsasən şagirdlər verilən KONSEPTUAL cədvəldə yaşayış yerinin müqayisəsini tərtib edirlər. *Nümunə:*

| TİKİLİLƏR | | | |
|---|---|---|---|
| | **Alaçıq** | **Çovustan** | **Koma (daxma)** |
| FORMA | Üçbucaq (piramida, konus), dairəvi (silindr) | Dördbucaq (kub, paralelepiped) | Dördbucaq (kub, paralelepiped) |
| XÜSUSİYYƏTLƏR | Köçəri – yığılıb-sökülən mənzil | Müvəqqəti yaşayış üçündür | Geniş və möhkəmdir |
| İNŞAAT MATERİALLARI | Qamış, çubuq, keçə | Qarğı, saman, palçıq, küləş | Daş, çiy kərpic, torpaq |
| HƏYAT TƏRZİ | Maldarlıqla məşğul olanlar, müvəqqəti yaşayış yeri | Əkinçiliklə məşğul olanlar | Daimi yaşayış yeri |

**Ümumiləşdirmə və nəticə**

– Evlərin konstruksiyaları haqda nə deyə bilərsiniz? Onlar hansı formaları xatırladır?
– Komanın damındakı baca nə üçündür? O olmasaydı, nə olardı?
– Keçəni nə ilə əvəz etmək olardı?
– Alaçıqdakı ocaq yerini nə üçün orta hissədə qururdular?
– Kəndin mərkəzindəki meydança nə üçün idi?
– “Evin dirəyi” sözünü necə başa düşürsünüz? Başqa mənalarda bu sözü necə istifadə etmək olar?

**Yaradıcı tətbiqetmə**

Evlərin konstruksiyasını, ətrafda yerləşən müxtəlif tikililəri təsvir etməklə kəndin obrazını yaratmaq. Darvazaya xüsusi naxışlar və rəng vermək. Onun üzərində hər hansı bir rəmzi təsvir etmək.

**Qiymətləndirmə**

*Qiymətləndirmə meyarları:*

- Konstruksiyaetmə;
- Şərhetmə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Üçölçülü evlərin konstruksiyasının düzəldilməsində çətinlik çəkir. | Üçölçülü evlərin konstruksiyasını müəllimin köməyi ilə düzəldir. | Üçölçülü evlərin konstruksiyasının düzəldilməsində kiçik səhvlərə yol verir. | Üçölçülü evlərin konstruksiyasını nisbi dəqiqliklə düzəldir. |
| Düzəltdiyi evlərin konstruksiyasında ifadə olunmuş fikir və ideyaları çətinliklə şərh edir. | Düzəltdiyi evlərin konstruksiyasında ifadə olunmuş fikir və ideyaları müəllimin köməyi ilə izah edir. | Düzəltdiyi evlərin konstruksiyasında ifadə olunmuş fikir və ideyaları izah edir. | Düzəltdiyi evlərin konstruksiyasında ifadə olunmuş fikir və ideyaları şərh edir. |
| Özünün və digərlərinin düzəltdiyi konstruksiyalara münasibət bildirməyə çalışır. | Özünün və digərlərinin düzəltdiyi konstruksiyalara suallar əsasında münasibət bildirir. | Özünün və digərlərinin düzəltdiyi konstruksiyalara müəllimin köməyi ilə münasibət bildirir. | Özünün və digərlərinin düzəltdiyi konstruksiyalara münasibət bildirir. |

## 5. YURDUMUZUN İNSANLARI

— Obraz: portret və məişət —

| | |
|---|---|
| **Fəaliyyət növü** | mövzu üzrə rəsm |
| **Alt-standart** | 2.2.1.; 2.2.6.; 2.2.7.; 3.1.1. |
| **Dərsin məqsədi** | • rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə zəhmətkeş insan obrazları çəkir;<br>• çəkdiyi təsvirlərdə ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• özünün və digərlərinin çəkdiyi insan obrazlarına münasibət bildirir;<br>• verilmiş portret janrında olan əsərlərin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun şərh etməklə ona münasibət bildirir. |

Çap üçün deyil

| | | |
|---|---|---|
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | A-d.: 2.2.5; H-b.: 3.1.1; 3.2.1; Mus.: 1.1.2; 2.1.1; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. | |
| **Yeni sözlər** | obraz | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi iş, cütlərlə iş |
| | **ÜSULLAR** | beyin həmləsi, müzakirə, anlayışın çıxarılması, esse |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, rəssam və şagird rəsmləri, mövzu ilə bağlı şeir və musiqi parçaları, motivasiya üçün fotoşəkil və ya slaydlar, rəngli işarələr, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, quaş, fırçalar, su, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

Motivasiyalardan yalnız biri nümayiş etdirilə bilər.

**1. Müəllim şəkillər asır və soruşur:**

– Şəkilləri bir sözlə necə ifadə edərdiniz?

– Bu məhsullar hansı peşə sahiblərinin əməyi nəticəsində alınır?

Şagirdlərin cavabları dinlənilir və müəllim düzgün olanı ortada sual işarəsi olan yerdə qeyd edir.

***a) torpaq, sünbül, buğda, dəyirman, un*** *(əkinçi, dəyirmançı);*

***b) qoyun, yun, yun sap, yumaq, xalça*** *(toxucu).*



*a*



*b*

**2. Müəllim rəngli kağızlarda yazılmış sözləri asır və deyir:**

– Verilən sözlərdən cümlələr qurun. Cümlələrə uyğun peşə sahiblərini müəyyənləşdirin və sual işarəsi olan yerə yazın:




***1. Torbadakı buğdanı şuma səpir.***
***2. Çəmənlikdə inək, keçi, qoyun otarır.***
***3. Dəniz sahilində tilovla balıq tutur.***

– Bunların hər birini həyata keçirmək üçün insandan nə tələb olunur? *(güc, qüvvə, sağlamlıq, ustalıq, məharət)*

– İnsan bunlara necə nail olur? Nə edərək?*(zəhmət çəkərək və sevərək)*

– Bəli, hər bir adam gördüyü işi sevməlidir.

*Tədqiqat sualı:* ***Kişi, qadın obrazlarını çəkmək və burada peşə sahibini müəyyənləşdirmək üçün nələri bilmək lazımdır?***

**Tədqiqatın aparılması**

Müəllim: – Şair və bəstəkar, rəssam və heykəltəraş öz yaradıcılığında insan obrazını daim tərənnüm edir. Bu gün biz də şair, bəstəkar, rəssam və heykəltəraş, ən əsası isə seyrçi olacağıq. Bunun üçün rəssam əsərlərinə diqqət yetirib, sizi düşündürən insan obrazları ilə tanış olacaqsınız. Onlar haqqında yazılanları oxuyaraq təsəvvür etdiyiniz zəhmətkeş, xeyirxah, əməksevər kəndli obrazını yaradacaqsınız.

– Ədəbiyyatda, musiqidə, incəsənətdə portret nədir? *(fərziyyələr)*



Çap üçün deyil

– İnsanın zahiri görünüşündə hansı elementlər onun xarakterinin ifadəsidir? *(fiquru, geyimi, sifət cizgiləri)*

– Portret nəyi görməyə kömək edir? *(nəinki xarici görünüşü, hətta daxili aləmini, duyğularını, cəmiyyətdə tutduğu yeri və s.)*

– Əmək mövzusu və onun xalq mədəniyyətində obrazı – insan gözəlliyi haqqında olan təsəvvürlərin inkişafıdır. Obraz deyəndə nə başa düşürsünüz? – **Obraz** – insanın yaddaşında qalan təəssüratdır. – Həyat tərzi, həyat obrazı nədir? – İllər ərzində insan müxtəlif mühitdə yaşayır və inkişaf edir. Bu onların məişəti, davranış və yaşayış tərzi, fəaliyyəti, insanlar arasında olan ünsiyyəti, münasibəti nəticəsində formalaşan prosesdir.

– Rəssam əsərlərində insan obrazlarının hansı əlamətləri əhvali-ruhiyyəni bildirir?

Zəhmətkeş insanın obrazını yaradarkən onun xarici görünüşünə, xüsusiyyətlərinə, geyim, sifət cizgilərinə – kədərli və sevincli olmağına fikir vermək lazımdır. Şagirdlərin sərbəst işi zamanı müəllim yaxınlaşır və lazım olan köməkliyi göstərir. Müəllim bu zaman musiqidən də istifadə edə bilər. Cütlükdə işləyən şagirdlər bir-birinə kömək edir, fikir mübadiləsi aparırlar:

1-ci cütlük – **əkinçi**;
2-ci cütlük – **çoban**;
3-cü cütlük – **evdar qadın**;
4-cü cütlük – **maldar;**
5-ci cütlük – **bənna**;
6-cı cütlük – **xalçaçı, dərzi, toxucu;**
7-ci cütlük – **aşpaz;**
8-ci cütlük – **müdafiəçi, əsgər**;
9-cu cütlük – **pambıqçı** və s.

Bu peşələri davam etdirmək olar. İnsan obrazı geyimlərin köməyi ilə müəyyən olunur. Zahiri görkəmini, geyimini nəzərə alaraq zəhmətkeş insan portreti təsvir edilir. Müəllim onların eskizini yazı lövhəsində çəkir.

**Məlumatın müzakirəsi və təşkili**

– Nəyə görə portretdəki obrazı məhz belə seçdiniz? Bu obrazda ən çox sizi cəlb edən xüsusiyyətlər hansılardır?

**Ümumiləşdirmə və nəticə**

İnsan gözəlliyi, əməyin insan həyatında rolu haqqında 5 dəqiqəlik esse yazırlar.

– Bu gün biz sizinlə bir daha portretdə nəinki xarici oxşarlıq, hətta müəllifin, istər rəssam, istər şair, istərsə də bəstəkar olsun, öz yaratdığı insan obrazına münasibətinin şahidi olduq. – Dərsin sonunda müəllim şagirdlərlə **psixoloji test** keçirir. Müəllimin stolu üstündən işarələri götürürlər və lövhəyə bərkidirlər.

**☺ - mövzu çox xoşuma gəldi;**
**😐 - yaxşı idi;**
**☹ - xoşuma gəlmədi.**

**Yaradıcı tətbiqetmə**

Kitablardan kəndli obrazının təsvirini tapmaq və onun gündəlik həyatı, yaşayış tərzi, geyimi haqqında danışmaq. Növbəti dərs üçün el bayramları haqqında məlumat toplamaq.

**Qiymətləndirmə**

*Qiymətləndirmə meyarları:*

- Təsviretmə;
- Şərhetmə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə zəhmətkeş insan obrazlarını çəkməkdə səhvlərə yol verir. | Rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə zəhmətkeş insan obrazlarının sifətinin ifadələrini çəkir, lakin geyimini obraza əsasən çətinliklə uyğunlaşdırır. | Rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə zəhmətkeş insan obrazlarını müəllimin köməyi ilə çəkir. | Rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə zəhmətkeş insan obrazları çəkir. |
| Çəkdiyi təsvirlərdə ifadə olunmuş fikir və ideyaları çətinliklə şərh edir. | Çəkdiyi təsvirlərdə ifadə olunmuş fikir və ideyaları müəllimin köməyi ilə izah edir. | Çəkdiyi təsvirlərdə ifadə olunmuş fikir və ideyaları izah edir. | Çəkdiyi təsvirlərdə ifadə olunmuş fikir və ideyaları şərh edir. |

Çap üçün deyil

| | | | |
|---|---|---|---|
| Özünün və digərlərinin çəkdiyi insan obrazlarına münasibət bildirməyə çalışır. | Özünün və digərlərinin çəkdiyi insan obrazlarına suallar əsasında münasibət bildirir. | Özünün və digərlərinin çəkdiyi insan obrazlarına müəllimin köməyi ilə münasibət bildirir. | Özünün və digərlərinin çəkdiyi insan obrazlarına münasibət bildirir. |
| Verilmiş portret janrında olan əsərlərin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun şərh etməkdə çətinlik çəkir. | Verilmiş portret janrında olan əsərlərin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun sadə sözlərlə münasibət bildirir. | Verilmiş portret janrında olan əsərlərin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun izah edərək, ona münasibət bildirir. | Verilmiş portret janrında olan əsərlərin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun şərh etməklə ona münasibət bildirir. |

## 6. ELİMİZİN ADƏTLƏRİ

— El bayramları —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.2.; 2.2.1.; 2.2.6.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • elimizin adətlərinin insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə bayramı əks etdirən təsvirlər, panno yaradır;<br>• çəkdiyi el adətlərinin təsvirində ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• pannoda özünün və digərlərinin çəkdiyi təsvirlərə münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 1.3.2.; 3.1.1; Tex.: 3.1.2.; İnf.: 3.3.1.; 3.3.3.; 3.3.4. | |
| **Yeni sözlər** | şum, şum mərasimi, mövsüm mərasimi, kotan, kotançı, gavahın, xış, hodaq, hodaqçı | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | qrup işi, kollektiv iş |
| | **ÜSULLAR** | auksion, müzakirə |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, mövzu ilə bağlı müxtəlif panno nümunələri və ya şəkillər, qruplar üçün 6 ədəd kiçik vərəq (auksion), panno üçün ağ və rəngli A1 formatlı vərəqlər, flomasterlər, markerlər; qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, quaş, fırçalar, su, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

Müəllim sinfə suallarla müraciət edir:

– Deyilənlərə görə, “Yaxşı işləməyi bacaran xalq yaxşı da dincəlməyi bacarır”. Bu cümləni necə başa düşürsünüz, necə izah edərdiniz? *(fərziyyələr)*

– İnsanlar nə zaman dincəlir? *(fərziyyələr)*

– Dincəlmək nə üçün lazımdır? *(güc, qüvvə toplamaq üçün dincəlmək lazımdır)*

– Xalqımız nə zaman dincəlir, istirahət edir? *(şənbə, bazar günləri və bayramlarda)*

– Adət-ənənə, bayram, mərasimlər necə yaranır? *(fərziyyələr)*

– Hər bir xalqın öz bayramı, adət-ənənələri var. Bayramların yaranması təsadüfi deyil. İnsanın hər zaman torpaqla təmasda olmasını, yazın gəlişini qarşılayıb, qışı yola salmasını, tarlada, bostanda əkin-biçin işlərinin başlanmasını da bayram saymaq olar.

– Bizim adət-ənənələrimizlə, əkinçiliklə bağlı hansı bayramımız var? *(fərziyyələr)*

Müəllim şagirdləri 5-6 nəfərdən ibarət 4-5 qrupa bölür. O, keçən dərsdə şagirdlərə elimizin bayramları haqqında məlumat toplamağı tapşırmışdı. Uşaqlar məlumatlı olduğu üçün müəllim onlarla **“Elimizin bayramları, adətləri”** mövzusunda auksion keçirir və şagirdləri qaydalarla tanış edir. Qruplar vərəqlərdə yazılmış anlayışlarla bağlı bildikləri fikri söyləyir. Fikirlərin təkrarlanmaması üçün hamı bir-birini dinləməlidir.

Hər bir fikirdən sonra müəllim sayır: **“**Bir, iki...”

Bu zaman başqa iştirakçı tez öz bildiyini deyə bilər. Sonuncu deyilən fikirlər *(əgər ardını heç kim söyləmirsə)* qalib sayılır, yəni axırıncı cavab verən qrup üzvü udur.

*Tədqiqat sualı:* ***Elimizin, kəndin adət-ənənələrini, şum mərasimini necə təsvir etmək olar?***



Çap üçün deyil

**Tədqiqatın aparılması**

Mövzu ilə tanışlıqdan sonra şagirdlər əcdadlarımızın hələ qədim dövrlərdən baharın gəlişini təsərrüfat işlərinin başlanması ilə bağlayıb, el mərasimi şəklində – öz milli adət və ənənələrimizə uyğun olaraq bayram etdikləri haqqında oxuyurlar. Dərslikdə rəssam əsərləri və yeni sözlərlə tanış olurlar.

Şagirdlər "Azərbaycan kəndi", "Kənddə bayram" mövzularında kollektiv panno yaradırlar.

***Qeyd.*** *Bu dərs ümumiləşdirici dərs hesab olunduğu üçün etnoqrafiya, tarix-diyarşünaslıq muzeylərinə ekskursiyaya getmək yaxşı olardı.*

**Məlumat mübadiləsi**

Qruplar işlərini təqdim edərək ümumi pannoda yerləşdirirlər.

**Məlumatın müzakirəsi və təşkili**

– İşləriniz haqda nə deyə bilərsiniz?

**Ümumiləşdirmə və nəticə**

– Yaratdığınız panno haqda nə düşünürsünüz? O sizdə hansı hissləri oyadır?

– Bayram – yalnız şənlik demək deyil. Onun təşkilində, keçirilməsində, adət-ənənələrimizdə, insanların davranışında, geyimlərində, nəğmə və rəqslərində xalqın səmimiyyəti, xüsusiyyəti öz əksini tapır.

**Yaradıcı tətbiqetmə**

Kənd həyatına aid kompozisiya çəkmək. Burada adət-ənənələri nəzərə alaraq milli bayramı təsvir etmək.

**Qiymətləndirmə**

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təsviretmə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Elimizin adətlərinin insanlara təsiri haqqında məlumata malikdir. | Elimizin adətlərinin insanlara təsirini suallar əsasında izah edir. | Elimizin adətlərinin insanlara təsirini nümunələr əsasında müəllimin köməyi ilə şərh edir. | Elimizin adətlərinin insanlara təsirini nümunələr əsasında şərh edir. |
| Rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə bayramı əks etdirən təsvirləri sadə şəkildə çəkir. | Rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə bayramı əks etdirən təsvirləri çəkir, pannoda kompozisiyanı quraraq, yerləşdirməyə çalışır. | Rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə bayramı əks etdirən təsvirlər çəkir, pannonu müəllimin köməyi ilə yaradır. | Rəngli karandaşlar, pastel təbaşirlər, quaş vasitəsilə bayramı əks etdirən təsvirlər, panno yaradır. |
| Çəkdiyi el bayramının təsvirində ifadə olunmuş fikir və ideyaları çətinliklə şərh edir. | Çəkdiyi el bayramının təsvirində ifadə olunmuş fikir və ideyaları müəllimin köməyi ilə izah edir. | Çəkdiyi el bayramının təsvirində ifadə olunmuş fikir və ideyaları izah edir. | Çəkdiyi el bayramının təsvirində ifadə olunmuş fikir və ideyaları şərh edir. |
| Pannoda özünün və digərlərinin çəkdiyi təsvirlərə münasibət bildirməyə çalışır. | Pannoda özünün və digərlərinin çəkdiyi təsvirlərə suallar əsasında münasibət bildirir. | Pannoda özünün və digərlərinin çəkdiyi təsvirlərə müəllimin köməyi ilə münasibət bildirir. | Pannoda özünün və digərlərinin çəkdiyi təsvirlərə münasibət bildirir. |

## QİYMƏTLƏNDİRMƏ (1 saat)

(1-ci vahidə aid sual və tapşırıqlar vəsaitin sonunda verilib)

Çap üçün deyil

# 2. QƏDİM ABİDƏLƏR DİYARI

## 7. TARİXİMİZİN YADDAŞI – DAŞ FİQURLAR

— Daş üzərində simvollar —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | yapma | |
| **Alt-standart** | 1.2.1.; 2.1.1.; 2.2.4.; 2.2.5.; 2.2.6. | |
| **Dərsin məqsədi** | • görkəmli təsviri incəsənət nümayəndələrini sadalayır və yaradıcılıq sahələrinə görə onları fərqləndirir;<br>• təsviri incəsənətin növlərindən olan heykəltəraşlığı əsas xüsusiyyətlərinə görə şərh edir;<br>• yapılmış heyvan fiqurlarının xarici səthində cızma üsulu ilə bəzək kompozisiyaları yaradır;<br>• real heyvan fiqurlarını mücərrəd formada təsvir edir;<br>• plastilindən düzəltdiyi fiqur və üzərindəki simvollarda ifadə olunmuş fikir və ideyaları şərh edir. | |
| **Dərsin tipi** | deduktiv | |
| **Fənlərarası inteqrasiya** | A-d.: 2.2.4; H-b.: 3.1.1; Tex.: 1.3.3; 4.1.2; İnf.: 3.3.2; 3.3.4. | |
| **Yeni sözlər** | daş büt | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi və qrup işi |
| | **ÜSULLAR** | qrup müzakirəsi |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, plastilin, plastik bıçaq və lövhə |

**Dərsin gedişi / Motivasiya**

Motivasiya mərhələlərindən yalnız biri istifadə oluna bilər.

**1**. Müəllim tapmaca deyir və şagirdlərdən onun açmasını soruşur:

Halalar, ay halalar,
Dağda kəklik balalar,
Nə kiçiyi böyüyər,
Nə irisi balalar.

*(daş)*

– Daş nədir? Ondan necə istifadə edirlər? *(ev tikirlər, heykəl düzəldirlər və s.).* Deməli, daşdan müxtəlif fiqurlar düzəltmək olur. Bu gün dərsimizdə bu haqda bildiklərimizi inkişaf etdirəcəyik.



**2.** Müəllim şagirdləri 1-dən 5-ə kimi saymaqla qruplara bölür. Eyni rəqəmli iştirakçılar (bütün “birlər”, bütün “ikilər” və s.) bir qrupda birləşir. Qrup üzvlərindən biri yazı lövhəsinin qarşısına dəvət edilir və ona heç kimin görə bilməyəcəyi (şagirdin özündən başqa) kiçik bir daş parçası olan qutu verilir və digər şagirdlərin qutuda nəyin olduğunu tapması üçün şagird bu daşın hər hansı bir xüsusiyyətini söyləyir. Digər şagirdlər müvafiq cavablar verir. Sonra bu qutu hər hansı qrupun üzvünə ötürülür.

O da daşa baxaraq onun xüsusiyyətləri haqqında ifadələr söyləyir. Beləliklə, qutu bir-birinə ötürülür, qrup üzvlərindən hansı ən çox xüsusiyyət deyə bilsə, həmin qrup qalib gəlir və dərsin mövzusunu açıqlayır.

*Daşın xüsusiyyətləri:*
– boz, qəhvəyi rənglərdə olur;
– bərkdir;
– böyük və kiçik ola bilər;
– yüngül və ağır ola bilər;
– müxtəlif formalarda olur;
– tikintidə istifadə edilir.

*Tədqiqat sualı:* ***Naxış daş üzərində hansı üsullarla işlənə bilər? Daşdan heyvan fiqurunu və onun üzərindəki naxışları necə yaratmaq olar?*** *(fərziyyələr)*

**Tədqiqatın aparılması**

Şagirdlər mövzu ilə tanış olurlar. İnsanı əhatə edən təbiət, heyvan, əşya mühitini əks etdirən materiallar içində daşın ən möhkəm olduğunu anlayırlar. Müəllim onları 6 qrupa ayırır və heyvan şəkilləri paylayır. Qruplarda mətn müzakirə edilir (məsələn: qoç – mərdlik və cəsarət, at – zənginlik və şərəf rəmzi sayılırdı). Sonra müəllim **1** və **2-ci** qruplara qoç, **3** və **4-cü** qruplara at, **5** və **6-cı** qruplara isə mövcud olmayan bir heyvan fiqurunu plastilindən yapmağı tapşırır. Fiqurların üzərini müxtəlif simvollarla bəzəyirlər. Naxış və simvollar cızma, oyma üsulundan istifadə edərək

Çap üçün deyil

yaradılır. Qruplar düzəltdikləri heyvanın əsas xüsusiyyətləri haqqında fərziyyələr söyləyəcəklərini də (təqdimat zamanı) nəzərə alırlar. İş prosesində müəllim şagirdlərə istiqamət verir.

Dərsin sonunda müəllim şagirdlərə özlərini **dərəcələr üzrə qiymətləndirəcəyini** xatırladır və meyarları yazı lövhəsindən asır.

**Müəllim üçün əlavə məlumat**

Daş – insanların məişətdə istifadə etdiyi ən qədim və təbii materialdır. İbtidai insanlar daş alətlər vasitəsilə özlərinə yemək əldə etmiş, ondan müxtəlif əşyalar düzəltmişlər. İbtidai insanların ilk yaşayış məskənləri (mağaralar və s.) daşdan tikilmiş, qadınların ilk bəzəyi, ilk qələm və lövhə də daşdan hazırlanmışdır. O, insanların estetik zövqünün inkişafında böyük rol oynamışdır. Əbəs deyildir ki, ən qədim rəsm nümunələri daş və qayalar üzərində təsvir olunub. Azərbaycan ərazisində ilahiləşdirilmiş təbii obyektlərdən ən qədimi daş olmuşdur. Oyma, yonma, cızma üsulu ilə daş üzərində həkk olunmuş təsvirlərin ən qədimi Qobustan qayaları üzərindəki təsvirlərdir. Qədim dövrlərə aid edilən plastik sənət nümunələrimizdə "daş insan" fiqurları əsas yer tutur. Plastik sənətimizin tarixindən danışarkən Azərbaycanın bir çox rayonlarında rast gəlinən qoç və at fiqurlarını xüsusi qeyd etmək lazımdır.

**Relyef** – heykəltəraşlığın növlərindən biridir. Həcmli heykəllərdə əşya və ya fiqurlara hər tərəfdən baxmaq olar. Relyef isə düz səth üzərində qabarıq formalı təsvirdir. Ona hər tərəfdən deyil, yalnız qarşıdan, sağdan və soldan baxmaq mümkündür. Relyeflərdə insan, əşya və ya mənzərələr təsvir etmək olar. Relyeflərlə qabların üzərini, qutuları, şəkil çərçivələrini, binanın fasadını və interyerini bəzəmək olar. Daşdan nəinki tikinti işləri və məişət əşyalarının düzəldilməsində, hətta ən kiçik zərgərlik nümunələrinin bəzəyində də geniş istifadə edilirdi. Daş üzərində bəzəkləri, əsasən, nəbati, həndəsi, quş, heyvan rəsmləri təşkil edirdi. Əsrin əvvəllərində yaradılmış daş bəzəkləri arasında nəbati naxışlara, sonralar isə həndəsi naxışlara daha çox rast gəlmək olardı. Daş üzərində oyma, cızma üsulu ilə bəzək açmaq və ya fiqur həkk etməklə bərabər, xalq ustaları daşdan müxtəlif məzmunlu heykəllər də düzəldirdilər.

**Məlumat mübadiləsi**

Qruplar yapmalarını nümayiş etdirirlər. Heyvan və üzərindəki simvollar, naxışlar haqqında məlumat verirlər. Digər qruplar isə yapmaya münasibət bildirirlər.

**Məlumatın müzakirəsi və təşkili**

– Siz yapmalarınızı necə, hansı ardıcıllıqla düzəltdiniz?

– Simvolları, naxışları fiqurun üzərində təsvir etdikdə nəyi nəzərə aldınız?

**Ümumiləşdirmə və nəticə**

– Daş fiqurları təsviri sənətin hansı növünə aid etmək olar? Niyə? Heykəltəraşlarımızdan kimləri tanıyırsınız?

– Daş üzərində simvol hansı məqsədlə həkk edilirdi?

**Yaradıcı tətbiqetmə**

Müəllim plastilindən heyvan fiquruna bənzəyən əşya düzəltmək və üzərini müxtəlif naxışlarla bəzəmək tapşırığı verir.

**Qiymətləndirmə**

***Dərəcələr üzrə özünüqiymətləndirmə*** *aparıla bilər.*

| № | MEYARLAR | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1. | Heyvan fiqurunun xarakterik xüsusiyyətlərini necə vermişik? | | | | |
| 2. | Cızma üsulunu nə dərəcədə göstərə bilmişik? | | | | |
| 3. | Fiqurun üzərində simvol və naxışlar nə dərəcədə həkk edə bilmişik? | | | | |
| 4. | Simvol və naxışların mənasını necə göstərmişik? | | | | |
| 5. | Düzəltdiyimiz heyvan fiquru nə dərəcədə qeyri-adidir? | | | | |
| 6 | Düzəltdiyimiz fiqurlarda ifadə olunmuş fikir və ideyaları necə izah edə bilmişik? | | | | |
| 7. | Təsviri incəsənət nümayəndələrinin adlarını sadalaya bilirikmi? | | | | |

Çap üçün deyil

## 8. TÜRBƏLƏR – MƏQBƏRƏLƏR

— Memarlıqda forma, naxış, ritm —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | dekorativ-tətbiqi fəaliyyət | |
| **Alt-standart** | 2.1.1.; 2.2.3.; 2.2.4.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • dekorativ sənət növünü əsas xüsusiyyətlərinə görə şərh edir;<br>• nümunəvi türbə təsvirinin surətini qrafik üsulla nisbi dəqiqliklə əks etdirir;<br>• türbə və məqbərələrin müxtəlif formalarını, divar üzərində naxışlar yaradır;<br>• özünün və digərlərinin düzəltdiyi türbənin formalarına münasibət bildirir. | |
| **Dərsin tipi** | deduktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 3.1.1; Tex.: 1.3.3; 4.1.2; İnf.: 3.3.1; 3.3.2. | |
| **Yeni sözlər** | türbə, məqbərə | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | qrup işi |
| | **ÜSULLAR** | qrup müzakirəsi, İQS (İNSERT), qalereya gəzintisi |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər, mətnin surətləri, A1 formatlı kağızda krossvord (və ya slayd) |
| | **Şagird üçün** | dərslik, rəngli karandaşlar, yapışqan, flomasterlər, qara qələm |

### Dərsin gedişi / Motivasiya

Şagirdlər aşağıda verilən krossvordu yerinə yetirirlər. *Soldan sağa yazın.*

*1. Təsviri incəsənətin janrlarından biri (mənzərə). 2. Qazonun mənası (çəmənlik). 3. Heykəltəraşlığın növlərindən biri (qabartma). 4. Gül və yarpaqlardan ibarət naxış növü (nəbati). 5. İnsanın həyat tərzini əks etdirən süjetli rəsm növü (məişət). 6. Şüşə üzərində təsvir (vitraj). 7. Xalçalarda ipliyin hörülən düyünü (ilmə).*




Müəllim sual verir:

– İlk şaquli sütunda, yuxarıdan aşağıya doğru hansı söz alındı? *(məqbərə)*

– Bugünkü mövzumuz *məqbərələr, türbələr* haqqındadır.

– Türbə nədir? Onu hansı məqsədlə tikirlər? *(türbə tanınmış insanların xatirəsini əbədiləşdirmək üçün ucaldılır)*

*Tədqiqat sualı:* ***Müxtəlif formalı türbələri çəkmək və naxışlarla bəzəmək üçün nə etmək lazımdır?*** *Müəllim fərziyyələri yazı lövhəsinə yazır.*

### Tədqiqatın aparılması

Müəllim Göy Günbəd (**1-ci** qrup), Qutlu Musa (**2-ci** qrup), Əhmədalılar (**3-cü** qrup), Qarabağlar (**4-cü** qrup) türbələrinin şəkilləri ilə şagirdləri qruplara ayırır. Şagirdlər dərslikdəki məlumatla tanış olurlar. Mətni İQS üsulu ilə oxuyurlar. Müəllim onlara mətnin surətini paylayır. Oxuduqca mətnin kənarında işarələr – **"+" – yeni informasiyadır, "–" – bildiyimə ziddir, "?" – qarışıq informasiyadır, "!" – əvvəl bilirdim** işarələri qoyurlar. Sonra onlar oxuduqlarını sistemləşdirib cədvələ yazırlar.

| **"+" – yeni informasiyadır** | **"–" – bildiyimə ziddir** | **"?" – qarışıq informasiyadır** | **"!" – əvvəl bilirdim** |
|---|---|---|---|
| 1. | 1. | 1. | 1. |
| 2. | 2. | 2. | 2. |
| 3. | 3. | 3. | 3. |
| 4. | 4. | 4. | 4. |

Cədvəli doldurduqdan sonra, əsasən, *bildiklərinə zidd* və *qarışıq informasiyalar* ümumi müzakirə edilir. Sonra onlar aplikasiya düzəltməyə başlayırlar. Bunun üçün hər qrupa "məxsus" türbənin silueti çəkilir və qrup üzvləri arasında iş bölgüsü aparılır. Türbənin ölçü və formasına uyğun naxışlar (nəbati və həndəsi fiqurlar) çəkilir. Çəkilən naxışlar türbənin ölçüsünə uyğun kəsilərək üzərinə yapışdırılır. Müəllim partalar arasında gəzir və çətinlik çəkən şagirdlərə kömək edir. Qiymətləndirmə meyarları yazı lövhəsindən asılır ki, təsvir prosesində nəzərə alınsın və sonra özlərini qiymətləndirsinlər.

Çap üçün deyil

**Məlumat mübadiləsi**

Qruplar işlərini yazı lövhəsindən asırlar. Onlar “Qalereya gəzintisi” vasitəsilə işlərə baxıb, münasibətlərini bildirirlər.

**Məlumatın müzakirəsi və təşkili**

– Siluet nədir?

– Türbə, məqbərəni qrupda hansı ardıcıllıqla düzəltdiniz? Onların formalarını necə verdiniz?

**Ümumiləşdirmə və nəticə**

– Türbə dedikdə nə başa düşürsünüz?

– Türbələr qədim yaşayış tikililərini xatırlatsa da, onlar daha yığcam və təmtəraqlı idi. Sizin də düzəltdiyiniz türbələrin naxışları çox rəngarəngdir.

**Yaradıcı tətbiqetmə**

Hər hansı türbə forması fikirləşmək və onu naxışlarla bəzəmək.

**Qiymətləndirmə**

Qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edilir.

| Qruplar | MEYARLAR | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Əlavələr | Tərtibat | Vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |

## 9. QƏDİM MƏBƏDLƏR

— Tarixə səyahət —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 2.2.1.; 2.2.2.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • fırçadan istifadə etməklə akvarel, quaş vasitəsilə məbədlər yaradır;<br>• üçölçülü məbədi və onun hissələrini yaddaş əsasında nisbi dəqiqliklə təsvir edir;<br>• özünün və digərlərinin çəkdiyi məbəd və onu ziyarət edənlərin təsvirlərinə münasibət bildirir. | |
| **Dərsin tipi** | deduktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 3.1.1; Tex.: 4.1.3; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. | |
| **Yeni sözlər** | məbəd, qübbə, günbəz, tağ | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi və cütlərlə iş |
| | **ÜSULLAR** | beyin həmləsi, qrup müzakirəsi, qalereya gəzintisi |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər, müxtəlif məbədlərin fotoşəkilləri və ya təsvirləri |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan; quaş, fırçalar, su, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

– Keçmişdə insanlar oddan necə istifadə edirdilər? *(ocaq qalayırdılar, evi qızdırırdılar, oda – təbiət qüvvələrinə sitayiş edirdilər)*

– “Oda sitayiş edənlər” sonralar onun ətrafını tikdilər. Qədim insanlar – atəşpərəstlər təbiətin qüdrətinə inanar, dini ayinlər icra edərdilər. – Müəllim “Yanardağ”, “Əbədi məşəl”, “Atəşgah” fotoşəkillərini yazı lövhəsindən asaraq soruşur: – Şəkillərdə nə müşahidə edirsiniz? *(alov, od, tikili).* Onlardan biri də “yanan“ təbii qazın ətrafında tikilən Atəşgahdır. Bu tikiliyə **məbəd** də deyirlər.

Çap üçün deyil


Yanardağ (fraqment)


Əbədi məşəl (fraqment)


Atəşgah (fraqment)

*Tədqiqat sualı:* ***Qədim məbədlərin təsviri zamanı onların xarakterik xüsusiyyətlərini necə vermək olar?***

### Tədqiqatın aparılması

Şagirdlər mövzu ilə tanış olurlar. Mətn kollektiv şəkildə müzakirə olunur. Bunun üçün müəllim suallarla müraciət edir:

– Hansı məbədləri tanıyırsınız? Məbəd hansı hissələrdən ibarətdir? – Suallara (dərslikdən topladıqları biliklər əsasında) cavab verdikdən sonra şagirdlər cütlükdə məbəd və ziyarətçilərin rəsmini çəkərək rəngləyirlər. Şagirdlərin sərbəst işi zamanı müəllim onların rəsmlərinə baxır və müəyyən istiqamətlər verir.

Müəllim şagirdlərə dərsin sonunda **dərəcələr üzrə özlərini qiymətləndirəcəklərini** xatırladır. Meyarlar isə yazı lövhəsindən asılır.

### Məlumat mübadiləsi

Cütlüklər hazır rəsmləri təqdim edir, müəllim onları yazı lövhəsindən asır və "Qalereya gəzintisi" təşkil edir. Bu üsul vasitəsilə onlar sinif yoldaşlarının işlərinə baxmaq imkanı qazanırlar və rəsmlər müzakirə olunur.

### Məlumatın müzakirəsi və təşkili

– Kilsə və məscidin fərqi nədir?

### Ümumiləşdirmə və nəticə

– Qədim məbədlərin xarakterik xüsusiyyətləri nədir?

### Yaradıcı tətbiqetmə

Plastilindən məbəd düzəltmək və üzərini naxışlarla bəzəmək.

### Qiymətləndirmə

Müəllim dərəcələr üzrə qiymətləndirmədən istifadə edir.

| Cütlər | Meyarlar | | | | | | | Nəticə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| № | Məbədi vərəqdə necə yerləşdirmişik? | Tikilinin xarakterik xüsusiyyətlərini nə dərəcədə göstərə bilmişik? | Forma, hissələr arasındakı fərqi, simmetriyanı necə göstərə bilmişik? | Tikilinin yerləşdiyi məkanı, insanları necə göstərə bilmişik? | Rəsmlərə münasibətimizi necə şərh etmişik? | Rəsmi tapşırılan vaxt ərzində yerinə yetirmişikmi? | Rəsmi boyalarla səliqəli işləmişikmi? | Əla | Yaxşı | Orta | Zəif |
| 1-ci | | | | | | | | | | | |
| 2-ci | | | | | | | | | | | |
| 3-cü | | | | | | | | | | | |
| 4-cü | | | | | | | | | | | |
| 5-ci | | | | | | | | | | | |
| 6-cı | | | | | | | | | | | |
| 7-ci | | | | | | | | | | | |
| 8-ci | | | | | | | | | | | |
| 9-cu | | | | | | | | | | | |
| 10-cu | | | | | | | | | | | |
| 11-ci | | | | | | | | | | | |
| 12-ci | | | | | | | | | | | |

Çap üçün deyil

# 10. QƏDİM KÖRPÜLƏR

— Konstruksiya, simmetriya, ritm —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.2.; 2.1.1.; 2.2.2.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • körpünün tikilişinin insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• konstruksiyanı əsas xüsusiyyətlərinə görə fərqləndirir;<br>• körpünün konstruksiyasını yaddaş əsasında çəkir;<br>• özünün və digərlərinin düzəltdiyi konstruksiyaya münasibət bildirir. | |
| **Dərsin tipi** | deduktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 1.3.2.; 3.1.1.; Tex.: 1.2.3.; 1.3.2.; 3.1.2. | |
| **Yeni sözlər** | təbii özül, taxta körpü, asma körpü, açılan körpü, daş körpü, aşırım, çapılmış daş | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi və cütlərlə iş |
| | **ÜSULLAR** | qrup müzakirəsi, suallar, təriflər və təkliflər |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, quaş, akvarel, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

Müəllim yazı lövhəsindən müxtəlif dövrlərə aid körpü şəkilləri asır və soruşur:



– Şəkillərdə gördükləriniz nədir? (*körpülər*). – Körpü hansı məqsədlə tikilir? (*bir tərəfdən digərinə keçid üçün*). – Şəkillərdə gördüklərinizi iki hissəyə necə ayırmaq olar? (*qədim və müasir körpülər*). – Biz sizinlə qədim körpülər haqqında öyrənəcəyik.

*Tədqiqat sualı:* ***Körpünü çəkmək üçün nəyi nəzərə almaq lazımdır?*** *(fərziyyələr)*

**Tədqiqatın aparılması**

Şagirdlər mətnlə tanış olur və müzakirə edirlər. Müəllim suallar verir:

– Körpüləri hansı xüsusiyyətlər eyniləşdirir? Müasir və qədim körpülərin fərqli cəhətləri hansılardır? Bəs oxşar cəhətləri hansılardır?

Şagirdlər cavab verən zaman sualların yaratdığı problemləri bir-biri ilə müzakirə etmək üçün onları istiqamətləndirmək lazımdır. Müəllim çalışmalıdır ki, kənarda qalsın və şagirdlər yaranan sualları bir-birinə verib müzakirə aparsınlar. Mövzu mənimsənildikdən sonra müəllim maraq yaratmaq üçün onun haqqında əlavə məlumat da verir. Şagirdlər (cütlüklə – yanındakı yoldaşı ilə) körpünün konstruksiyasını çəkirlər. Şagirdlərin sərbəst işi zamanı müəllim onların konstruksiyalarına baxır və müəyyən istiqamətlər verir.

*Müəllim şagirdlərə dərsin sonunda* ***dərəcələr üzrə özlərini qiymətləndirəcəklərini*** *xatırladır. Meyarlar isə yazı lövhəsindən asılır.*

**Məlumat mübadiləsi**

Rəsmlər yazı lövhəsindən asılır. Onların təqdimatı zamanı digər qruplar təriflərini, suallarını və təkliflərini bildirir.

**Məlumatın müzakirəsi və təşkili**

– Rəsmi çəkərkən hansı ardıcıllığı nəzərə aldınız?

**Ümumiləşdirmə və nəticə**

– Nə üçün bəzi tikililərə memarlıq abidəsi deyilir?
– Yaşadığınız yerdə körpü varmı? O, hansı materialdan tikilib?
– Körpü hansı hissələrdən ibarət olur?
– Azərbaycanda ən məşhur körpü hansıdır?

Keçmişdə körpü ölkənin qüdrət, firavanlıq rəmzi idi. Müasir dövrümüzə qədər gəlib çatan bu körpülər insan əməyinin nəyə qadir olduğunu göstərir.

Çap üçün deyil

**Yaradıcı tətbiqetmə**

Körpü təsviri olan mənzərə çəkmək.

**Qiymətləndirmə**

Müəllim dərəcələr üzrə qiymətləndirmədən istifadə edir.

| Cütlər | Meyarlar | | | | | Nəticə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| № | Körpünü çəkən zaman ardıcıllığa necə əməl etmişik? | Körpünün hissələri arasında fərqi, mütənasibliyi necə göstərmişik? | Vərəqlərdə nə dərəcədə səliqəli çəkmişik? | Körpünün növlərini (müxtəlifliyini) göstərə bilmişikmi? | Konstruksiyanı tapşırılan vaxt ərzində çəkmişikmi? | Əla | Yaxşı | Orta | Zəif |
| 1-ci | | | | | | | | | |
| 2-ci | | | | | | | | | |
| 3-cü | | | | | | | | | |
| 4-cü | | | | | | | | | |
| 5-ci | | | | | | | | | |
| 6-cı | | | | | | | | | |
| 7-ci | | | | | | | | | |
| 8-ci | | | | | | | | | |
| 9-cu | | | | | | | | | |
| 10-cu | | | | | | | | | |
| 11-ci | | | | | | | | | |
| 12-ci | | | | | | | | | |

## 11. QALALAR

— Müdafiə tikililəri: simmetriya, proporsiya, ritm —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.1; 2.1.1; 2.2.2; 2.2.7. | |
| **Dərsin məqsədi** | • doğma məkan tikililərində incəsənətin rolu və əhəmiyyətinə aid kiçik təqdimatlar edir;<br>• dekorativ sənət növlərini və konstruksiyanı əsas xüsusiyyətlərinə görə şərh edir;<br>• qədim qalanı (yaddaş əsasında, nisbi dəqiqliklə) təsvir edir;<br>• özünün və digərlərinin şəkdiyi qalalara münasibətini bildirir. | |
| **Dərsin tipi** | deduktiv | |
| **Fənlərarası inteqrasiya** | A-d.: 2.2.4; H-b.: 3.1.1; Tex.: 1.2.3; 1.3.3; 1.3.4; 1.3.6; İnf.: 3.3.4. | |
| **Yeni sözlər** | bürc, qüllə, qurşaq, mazğal | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi və qrup işi |
| | **ÜSULLAR** | qrup müzakirəsi, təriflər, suallar və təkliflər |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan; akvarel, fırçalar, su, flomasterlər |

**Dərsin gedişi / Motivasiya**

Müəllim tikililərin adı yazılmış kiçik vərəqləri yazı lövhəsindən asır və şagirdlərdən onların hansı məqsədlə tikildiyini söyləməyi xahiş edir.

| MƏBƏD | TÜRBƏ | EV | KÖRPÜ | ? |
|---|---|---|---|---|

– ... ibadət etmək yeridir. – ... insanın xatirəsini əbədiləşdirmək üçündür. – ... yaşayış yeridir. – ... çaylardan, dərələrdən keçmək üçündür.

– Onlar haqqında nə deyə bilərsiniz?

– Daha hansı tikililəri tanıyırsınız? Müdafiə məqsədilə inşa olunan tikililər hansılardır? *(qalalar)*

*Tədqiqat sualı:* ***Qalanı çəkən zaman hansı xarakterik xüsusiyyətləri nəzərə almaq vacibdir?*** *Müəllim fərziyyələri dinləyir.*

Çap üçün deyil

**Tədqiqatın aparılması**

Şagirdlər mövzu ilə tanış olurlar. Qala hasarının künclərində dairəvi bürclərin, divar boyu isə dördkünc formalı qüllələrin yerləşəcəyini öyrənirlər, çünki rəsm çəkərkən bu biliklərə istinad olunacaq.

Müəllim onları müxtəlif qüllə şəkilləri ilə qruplara ayırır. Qruplarda mətni müzakirə edirlər. Sonra onlara qalanı və onun sakinlərini çəkmək tapşırılır. İş zamanı şagirdlərə yaxınlaşıb istiqamət verir. Müəllim şagirdlərə dərsin sonunda dərəcələr üzrə özlərini qiymətləndirəcəklərini xatırladır. Meyarlar isə yazı lövhəsindən asılır.

**Məlumat mübadiləsi**

Hər qrup işini təqdim edir və qruplar konstruksiyalarını yazı lövhəsinin qarşısında düzürlər. Digər qruplar suallar, tәriflər və təkliflər üsulu vasitəsilə onların işlərini müzakirə edir.

**Məlumatın müzakirəsi və təşkili**

– Qüllə nə məqsədlə tikilirdi və hansı hissələrdən ibarətdir?
– Onu hansı ardıcıllıqla çəkdiniz?

**Ümumiləşdirmə və nəticə**

– Doğma məkan dedikdə xəyalınızda nə canlanır? Müasir və qədim tikililərin fərqi nədədir? Onların təsviri incəsənətin inkişafında əhəmiyyəti nədir?

**Yaradıcı tətbiqetmə**

Qalanın təsvirini aplikasiya vasitəsilə yerinə yetirmək. Bu mövzuya aid müxtəlif mənbələrdən əlavə məlumat toplamaq.

**Qiymətləndirmə**

Dərəcələr üzrə qiymətləndirmə aparılır.

| № | MEYARLAR | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1. | Qalanı çəkən zaman ardıcıllığa necə əməl etmişik? | | | | |
| 2. | Qalanın incəsənətdə rolunu necə əsaslandırdıq? | | | | |
| 3. | Vərəqdə nə dərəcədə səliqəli çəkilib? | | | | |
| 4. | Tikilinin hissələri arasında fərqi, proporsiyaları, ritmi necə vermişik? | | | | |
| 5. | Digər qrupların rəsmlərinə olan münasibətimizi nə dərəcədə əsaslandırdıq? | | | | |
| 6. | Rəsmi tapşırılan vaxt ərzindəmi yerinə yetirdik? | | | | |

## 12. SARAYLAR

— Saray həyatı —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.2.; 2.2.1.; 2.2.5.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • sarayların insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• fırçadan istifadə etməklə akvarel, quaş vasitəsilə saray həyatını təsvir edir;<br>• sarayı mücərrəd formada təsvir edir;<br>• özünün və digərlərinin çəkdiyi saray təsvirlərinə münasibət bildirir. | |
| **Dərsin tipi** | deduktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 1.3.2; 3.1.1; Tex.: 1.3.3; 3.1.2; 4.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. | |
| **Yeni sözlər** | divanxana | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi və qrup işi |
| | **ÜSULLAR** | beyin həmləsi, kublaşdırma |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, quaş, fırçalar, su, flomasterlər |

**Dərsin gedişi / Motivasiya**

Müəllim: Şəkillərdə nə görürsünüz? *(imarət, saray, qəsr)*



Çap üçün deyil









– Saray kim üçün tikilib? *(hökmdar üçün).* Onlar haqqında nə bilirsiniz? *(fərziyyələr).*
– Siz bu gün saraylar haqqında öyrənəcək və ona aid rəsmlər çəkəcəksiniz.

*Tədqiqat sualı*: ***Saray həyatını təsvir edən zaman hansı xarakterik xüsusiyyətləri nəzərə almaq lazımdır?***

*Fərziyyələr söylənilir.*

**Tədqiqatın aparılması**

Şagirdlər 1-dən 5-dək saymaqla 5 qrupa ayrılırlar. Müəllim hər qrupun qarşısına piramida qoyur. Piramidanın tərəflərində yazılan suallar aşağıda verilmişdir:

> ***Qeyd.*** *Müəllim kublaşdırma üsulunu tətbiq edir. Şagirdlərin yaş səviyyəsini nəzərə alaraq kubdan deyil, piramidadan istifadə olunur.*
> *Vaxta qənaət etmək üçün hər qrupa yalnız bir suala cavab vermək də tapşırıla bilər.*




*1. Sarayın bəzəkləri (forma, ölçü, hissələr, rəng) haqqında nə deyə bilərsiniz? (təsvir edin). 2. Onun digər tikililərdən oxşar və fərqli cəhətləri hansılardır? (müqayisə edin). 3. Bu sizi nə haqqında düşünməyə vadar edir? Nəyi xatırladır? (əlaqələndirin, assosiasiya yaradın). 4. O, hansı materialdan və necə tikilmişdir? (təhlil edin, təsvir edin, müqayisə edin, əlaqələndirin). 5. Ondan necə istifadə edə bilərsən? (tətbiq edin). Qruplara A1 formatlı kağız (vatman) verilir və onlar mövzunu öyrəndikdən sonra piramidanın tərəflərində yazılan suallara cavab verirlər.*

*Nümunə.* ***Saray*** *haqqında:* **1. Təsvir edin.** Müxtəlif tikililərdən – məscid, divanxana, türbə və s.-dən ibarətdir. Tikililərin üzəri hərdən naxışlarla bəzənir. **2. Müqayisə edin.** Sarayda inşa edilən tikililər əsasən müxtəlif həndəsi formalardadır. **3. Əlaqələndirin.** O, karvansaranı da yada salır. **4. Təhlil edin.** Daşdan hörülüb və möhkəmdir. Üzərinə naxışları *döymə, cızma, oyma* üsulu vasitəsilə həkk ediblər. **5. Tətbiq edin.** Ora varlı insanların, hökmdarların yaşayışı üçün nəzərdə tutulub.

Mətni oxuyub piramidada olan suallara cavab yazdıqdan sonra təqdimat edirlər.

Təqdimatdan sonra **1** və **2-ci** qruplar sarayın interyerini (daxili görünüş); **3, 4** və **5-ci** qruplar isə hökmdarı, əyanları, keşikçiləri çəkir. Müəllim sarayın xarakterik əlamətlərini – interyerdə hökmdarın taxtını, özünü, əyanları, sarayın naxışlarını təsvir etməyi məsləhət görür.

Müəllim çətinlik çəkən qruplara yaxınlaşıb kömək edir. O, təsvir zamanı qiymətləndirmə meyarlarını da yazı taxtasından asır və onlar rəsm zamanı bunu nəzərə alırlar.

**Məlumat mübadiləsi**

Saray həyatı haqqında çəkdikləri təsvirləri yazı lövhəsindən asırlar. Digər qruplar təsvirlərə münasibət bildirirlər.

**Məlumatın müzakirəsi və təşkili**

– Təsvirin saraya oxşaması üçün nə etdiniz?

**Ümumiləşdirmə və nəticə**

– Saray nə üçün hasarla əhatə olunurdu?
– Mühafizəçilərin geyimi əyanların geyimindən nə ilə fərqlənirdi?

**Yaradıcı tətbiqetmə**

Sarayın aplikasiyasını düzəltmək və müxtəlif mənbələrdən mövzuya uyğun əlavə material toplamaq.

**Qiymətləndirmə**

Qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edilir. Cədvəl yazı lövhəsindən asılır və qruplar özlərinə qiymət verir.

Çap üçün deyil

| Qruplar | MEYARLAR | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **Dinləmə** | **Əməkdaşlıq** | **Tapşırıq tam və uyğun yerinə yetirilib** | **Əlavələr** | **Tərtibat** | **Vaxtında yerinə yetirilib** | **Nəticə** |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |
| V | | | | | | | |

## 13. KARVANSARALAR

— Karvanlar üçün tikili —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.1.; 2.2.2.; 2.2.3.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • karvansaraların rolu və əhəmiyyətinə aid kiçik təqdimatlar edir;<br>• nümunəvi karvansara təsvirlərinin surətini nisbi dəqiqliklə əks etdirir;<br>• karvansaranı yaddaş əsasında nisbi dəqiqliklə təsvir edir;<br>• özünün və digərlərinin çəkdiyi təsvirlərə münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 3.1.1; İnf.: 1.1.4; 3.1.1. | |
| **Yeni sözlər** | karvansara, hücrə | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | böyük qruplarla iş |
| | **ÜSULLAR** | BİBÖ cədvəli, anlayışın çıxarılması, qrup müzakirəsi |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, quaş, fırçalar, su, flomasterlər |

**Dərsin gedişi / Motivasiya**

Müəllim yazı lövhəsində anlayışın çıxarılmasına dair cədvəl hazırlayır və soruşur:
– Oxuduğunuz sözlər sizə nəyi xatırladır? *(karvansaranı)*




*Tədqiqat sualı:* ***Karvansaranın əhəmiyyəti nə idi? Onu təsvir edərkən nə etmək lazımdır?***

Müəllim yazı lövhəsində **BİBÖ** cədvəli çəkir və ya əvvəlcədən A1 formatlı kağızda tərtib etdiyini yazı lövhəsindən asır.

| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
|---|---|---|
| •<br>•<br>• | ?<br>?<br>? | •<br>•<br>• |

Şagirdlərin karvansaralar haqqında bildikləri cədvəlin "**BİLİRİK**" hissəsinə, mövzuya aid olan sualları isə "**İSTƏYİRİK BİLƏK**" hissəsinə yazılır. Bu zaman müəllim təkrar fikirləri səsləndirməməyi tapşırır.



Çap üçün deyil

**Tədqiqatın aparılması**

Şagirdlər karvansara şəkilləri ilə qruplara ayrılır.


1-ci qrup


2-ci qrup


3-cü qrup


4-cü qrup

Onlar mövzu ilə fərdi şəkildə tanış olurlar. Sonra onu qrupda müzakirə edirlər. Müzakirə zamanı "**İSTƏYİRİK BİLƏK**" hissəsinə yazdıqları suallara da baxırlar. Cavab tapdıqları sualları qeyd edirlər.

Müəllim: – Uşaqlar, bu gün öyrəndiyiniz mövzuda sizin üçün yeni nə oldu? – Hər qrup bir yeni informasiyanı desin.

Hər qrup *(yeni öyrəndiklərindən)* bir informasiya deyir və müəllim onu "**ÖYRƏNDİK**" guşəsində qısa şəkildə yazır *(təkrar olmamalıdır)*. Mövzu mənimsənildikdən sonra qruplar karvansaranı və onun həyatini təsvir edirlər. Müəllim tapşırır ki, vaxta qənaət etmək üçün qrupda iş bölgüsü aparsınlar.

Hər qrup üzvü karvansaraya aid: **1-ci** qrup – karvansaranın ümumi görünüşünü; **2-ci** qrup – ticarət meydanını, dükanları; **3-cü** qrup – hücrələri, tacirləri; **4-cü** qrup – heyvanları, su quyusunu; **5-ci** qrup – müxtəlif geyimlərdə insan təsvir edir və sonda bu elementlərdən kompozisiya yaradırlar. Öncə qruplar çəkdikləri karvansaranın formasını, insan və heyvanın öndə, arxada, bir sözlə, harada olduğunu müəyyənləşdirməlidirlər. Nisbi ölçülər nəzərə alınaraq obyektlərin ölçüsü və forması karandaşla çəkilir və rənglənir. Müəllim partalar arasında gəzir və çətinlik çəkənlərə kömək edir. Qiymətləndirmə meyarları yazı lövhəsindən asılmalıdır ki, fəaliyyət zamanı şagirdlər onu nəzərə alsınlar.

**Məlumat mübadiləsi**

Şagirdlər hər qrup haqqında fikirlərini söyləyirlər.

**Məlumatın müzakirəsi və təşkili**

Bu zaman BİBÖ cədvəlinin **"**BİLMƏK İSTƏYİRİK" hissəsində şagirdlərin yazdıqları suallar oxunur və təhlil edilir. Şagirdlər cavabsız qalan sualları müəllimin istiqamətləndirici sualları ilə cavablandırırlar. Yaxud bəziləri ev tapşırığı kimi verilir və onlar tədqiqata həvəsləndirilirlər.

**Ümumiləşdirmə və nəticə**

– Karvansara dedikdə nə başa düşürsünüz? O nə məqsədlə tikilirdi?
– Təsvir zamanı hansı qaydalara əməl etdiniz?

**Yaradıcı tətbiqetmə**

Hücrələr arasındakı proporsiyaları nəzərə alaraq karvansaranın aplikasiyasını düzəltmək.

**Qiymətləndirmə**

Dərəcələr üzrə qiymətləndirmə aparılır.

| Qruplar | Təsvirdə kompozisiya həlli tapılıb | Obyektlərin forması verilib | Mütənasiblik verilib | Perspektiv, planlar düzgün göstərilib | Rəng həlli düzgündür | Nəticə |
|---|---|---|---|---|---|---|
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |

**QİYMƏTLƏNDİRMƏ (1 saat)**

(2-ci vahidə aid sual və tapşırıqlar vəsaitin sonunda verilib)

Çap üçün deyil

# 3. YURDUMUZUN İNCƏSƏNƏTİ

## 14. QƏDİM ŞƏHƏRLƏR

— Azərbaycan şəhərlərinin xüsusiyyəti —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.1.; 2.2.1.; 2.2.6.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • təsviri incəsənətdə qədim şəhərlərin rolu və əhəmiyyətinə aid kiçik təqdimatlar edir;<br>• rəngli karandaşlar, flomasterlər vasitəsilə qədim şəhərin kompozisiyasını yaradır;<br>• çəkdiyi təsvirlərdə ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• özünün və digərlərinin çəkdiyi təsvirlərə münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | İnf.: 3.3.1.; 3.3.3.; 3.3.4.; H-b.: 3.1.1.; A-d.: 2.1.1.; 2.2.4. | |
| **Yeni sözlər** | dabbaqxana, kirəmit | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi iş, qrup işi, böyük qrupla iş |
| | **ÜSULLAR** | BİBÖ cədvəli, qrup müzakirəsi; təriflər, suallar və təkliflər |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, flomasterlər |

**Dərsin gedişi / Motivasiya**

Şagirdlərə aşağıdakı tapmaca verilir və açması soruşulur:

*Şəhəri var, evi yox,*
*Meşəsi var, ağacı yox,*
*Dənizi var, suyu yox.*
*(xəritə)*

Müəllim yazı lövhəsindən xəritəni asır: – Xəritə nə üçündür? *(ölkələri, şəhərləri göstərmək üçün).* – Bizim ölkəmiz haradır? *(Azərbaycan).* – Yurdumuzun hansı şəhərlərini tanıyırsınız? – Xəritədə şəhərlərimizi göstərə bilərsinizmi? *(fərziyyələr).* – Şagirdlər könüllü olaraq xəritədə bir neçə şəhəri göstərir. – Sizcə, bu şəhərlərdən ən qədim olanı hansıdır? – Bu gün dərsimiz qədim şəhərlərimiz haqqındadır.

Nümunə:






Çap

*Tədqiqat sualı:* ***Qədim şəhərlərin incəsənətinin xarakterik xüsusiyyəti nədir?***

Müəllim şagirdləri şəhər adları ilə 4 qrupa ayırır. BİBÖ cədvəlini (əvvəlcədən hazırlanmış aşağıdakı qaydada) hər qrupun qarşısına qoyur. Şagirdlər isə mövzu barəsində və tədqiqat sualı haqqında əvvəlki biliklərini "BİLİRİK" sütununda yazırlar. Sonra onlar cədvəlin "BİLMƏK İSTƏYİRİK" hissəsində nə bilmək istədiklərinə dair suallar tərtib edirlər. Qruplar yazdıqlarını təqdim edir.

| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
|---|---|---|
| •<br>•<br>• | ?<br>?<br>? | •<br>•<br>• |

**Tədqiqatın aparılması**

**DƏRSLİK.** Şagirdlər dərslikdən "Qədim şəhərlər" mövzusunu oxuyurlar. Bu şəhərlərin əsas xüsusiyyətlərini, onların karvan yolu üstündə yerləşdiyini və s. məlumatlarla tanış olurlar. Müəllim onlara mövzunun məzmununu mənimsəmək, müzakirə etmək üçün müəyyən vaxt verir. Sonra şagirdlər mətndə öz suallarına da cavab axtarırlar. Sualların cavablarını tapdıqca onun qarşısında işarə qoyurlar. Yeni öyrəndiklərini cədvəlin 3-cü – **"ÖYRƏNDİK"** hissəsinə yazırlar. Müəllim şagirdlərə deyir:

– Mətnin məzmunu ilə tanış oldunuz. İndi isə qruplar mövzudakı məzmuna uyğun olaraq qədim şəhərin təsvirini yaratsın.

Qruplar sərbəst işləyirlər. Müəllim xəbərdarlıq edir ki, dərsin sonunda qrup fəaliyyətinin qiymətləndirilməsi aparılacaq.

**Məlumat mübadiləsi**

Qruplar BİBÖ cədvəllərini və çəkdikləri qədim şəhərin rəsmlərini yazı lövhəsinə bərkidirlər. Onlar əvvəlcə cədvəlin **"ÖYRƏNDİK"** hissəsində yazdıqlarını oxuyur, sonra isə həmin məzmuna uyğun olan rəsmlərini təqdim edirlər. Digər qruplar isə "Suallar, təriflər və təkliflər" üsulu vasitəsilə yoldaşlarının işlərinə aid sual, təklif verir, rəsmdə xoşlarına gələnləri qeyd edərək ona münasibətlərini bildirirlər.

**Məlumatın müzakirəsi və təşkili**

Müəllim dərsin bu mərhələsi zamanı şagirdlərin diqqətini yazı lövhəsində bərkidilən BİBÖ cədvəlinin 2-ci – "BİLMƏK İSTƏYİRİK" hissəsində olan suallara yönəldir. Onlar yenidən oxunur və təhlil edilir. Cavabı tapılmayan suallar müzakirə edilir və müəyyən nəticəyə gələ bilmədikdə o, ev tapşırığı kimi verilir.

**Ümumiləşdirmə və nəticə**

– Şəhərlər necə yaranıb? Nə üçün onlardan bəzilərinə qədim şəhərlər deyilir? Qədim şəhərə xas olan xüsusiyyətlər hansılardır?

**Yaradıcı tətbiqetmə**

**BİBÖ** cədvəlində cavabı tapılmayan suallara müxtəlif mənbələrdən istifadə edərək cavab yazmaq.

**Qiymətləndirmə**

Qrup fəaliyyətinin qiymətləndirilməsi aparılır. Müəllim özü meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Sonda qrupların nail olduğu nəticələr hesablanır.

| Qruplar | MEYARLAR | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Təsvirlərə münasibət bildirilib | Tərtibat | Vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |

Çap üçün deyil

## 15. SƏNƏTKARLAR ŞƏHƏRİ

— Xalq sənəti: misgərlik —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | naturadan rəsm | |
| **Alt-standart** | 1.1.1.; 2.2.2.; 2.2.3.; 3.1.1. | |
| **Dərsin məqsədi** | • mis qabların rolu və əhəmiyyətinə aid kiçik təqdimatlar edir;<br>• üçölçülü əşyaları yaddaş əsasında nisbi dəqiqliklə təsvir edir;<br>• mis qabların surətini nisbi dəqiqliklə əks etdirir;<br>• verilmiş misgərlik nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun şərh etməklə ona münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | A-d.: 2.2.4; H-b.: 3.1.1; 3.2.1. | |
| **Yeni sözlər** | zərxara, misgərlik | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi iş, qrup işi, kollektiv iş |
| | **ÜSULLAR** | beyin həmləsi, müzakirə, qalereya gəzintisi |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, quaş, fırçalar, su, pastel təbaşirlər, flomasterlər |

### Dərsin gedişi / Motivasiya

Müəllim müxtəlif materialdan düzəldilmiş qabların rəsmlərini və ya fotoşəkillərini nümayiş etdirir və soruşur:

– Gördüyünüz qablar hansı materiallardan hazırlanıb? (*fərziyyələr*)

– Mis qabların xüsusiyyəti nədədir? (*fərziyyələr*)

*Tədqiqat sualı:* ***Misgərlik məmulatlarından ibarət natürmort çəkmək üçün hansı ardıcıllığa əməl etmək lazımdır?*** *Şagirdlər fərziyyələrini söyləyirlər.*

### Tədqiqatın aparılması

Şagirdlər dərslikdəki mövzunu oxuyurlar. Qruplarda müzakirə etdikdən sonra müəllim onlara misgərlik məmulatları və onların xüsusiyyətləri haqqında əlavə məlumat verə bilər.

Müəllim xəbərdarlıq edir ki, dərsin sonunda qrup fəaliyyətinin qiymətləndirilməsi aparılacaq.

### Məlumat mübadiləsi

Şagirdlər rəsmlərini nümayiş etdirirlər. Bunun üçün onları yazı lövhəsindən asırlar. "Qalereya gəzintisi" vasitəsilə onlar rəsmlərə baxır və münasibətlərini bildirirlər.

### Məlumatın müzakirəsi və təşkili

Şagirdlər çəkdikləri natürmorta münasibət bildirirlər.

### Ümumiləşdirmə və nəticə

– Natürmortu hansı ardıcıllıqla çəkdiniz?

### Yaradıcı tətbiqetmə

Gəncə şəhərinin incəsənəti haqqında müxtəlif mənbələrdən əlavə məlumat toplamaq.

### Qiymətləndirmə

Qrup fəaliyyətinin qiymətləndirilməsi aparılır. Müəllim özü meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Sonda qrupların nail olduğu nəticələr hesablanır.

| Qruplar | MEYARLAR | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Təsvirlərə münasibət bildirilib | Tərtibat | Vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |

Çap üçün deyil

## 16. SÜJETLİ XALÇALAR

— Xalçalarda məişət təsvirləri —

<table>
<tr><td>Məşğələ növü</td><td colspan="2">dekorativ-tətbiqi fəaliyyət</td></tr>
<tr><td>Alt-standart</td><td colspan="2">1.1.2.; 2.1.1.; 2.2.4.; 2.2.6.</td></tr>
<tr><td>Dərsin məqsədi</td><td colspan="2">• xalçaçılıq sənətinin insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• xalçaçılıq növünü əsas xüsusiyyətlərinə görə şərh edir;<br>• təsvir etdiyi xalçaların xarici səthində bəzək kompozisiyaları, məişət səhnələri yaradır;<br>• təsvir etdiyi xalçalarda ifadə olunmuş fikir və ideyaları şərh edir.</td></tr>
<tr><td>Dərsin tipi</td><td colspan="2">induktiv</td></tr>
<tr><td>Fənlərarası inteqrasiya</td><td colspan="2">A-d.: 2.2.4; H-b.: 1.3.2; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4.</td></tr>
<tr><td>Yeni sözlər</td><td colspan="2">süjetli xalça</td></tr>
<tr><td rowspan="2">İstifadə olunan</td><td>İŞ FORMALARI</td><td>fərdi iş, cütlərlə və ya qrup işi</td></tr>
<tr><td>ÜSULLAR</td><td>beyin həmləsi, konseptual cədvəl, qrup müzakirəsi, İQS (İNSERT)</td></tr>
<tr><td rowspan="2">Təchizat</td><td>Müəllim üçün</td><td>dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər</td></tr>
<tr><td>Şagird üçün</td><td>dərslik, sadə və rəngli karandaşlar, pozan, flomasterlər</td></tr>
</table>

### Dərsin gedişi / Motivasiya

Müəllim şagirdlərə müxtəlif xalça fotolarını nümayiş etdirir və soruşur?

- Xalçaların bir-birindən fərqi nədədir? (*fərziyyələr*)
- Məişət səhnələri təsvir olunan xalçalar süjetli adlanır. Belə xalçaların dekorativ üslubu, fiqurları naxışlara çevirmək bacarığı Şamaxı xalçaçılarının məharətindən xəbər verir.

Mövzumuz süjetli xalçalar və onların xüsusiyyəti haqqında olacaq.

*Tədqiqat sualı:* ***Süjetli xalçaların əsas xüsusiyyətləri hansılardır? Onların təsvirində hansı ardıcıllığa əməl etmək lazımdır?*** *Fərziyyələr söylənilir.*

### Tədqiqatın aparılması

Şagirdlər dərslikdəki məlumatla tanış olurlar. Mətni İQS üsulu ilə oxuyurlar. Müəllim onlara mətnin surətini paylayır. Oxuduqca mətnin kənarında işarələr – **"+" – yeni informasiyadır, "–" – bildiyimə ziddir, "?" – qarışıq informasiyadır, "!" – əvvəl bilirdim** qoyurlar. Sonra onlar işarələri cədvələ yazaraq öyrəndiklərini sistemləşdirirlər.

| **"+" – yeni informasiyadır** | **"–" – bildiyimə ziddir** | **"?" – qarışıq informasiyadır** | **"!" – əvvəl bilirdim** |
|---|---|---|---|
| 1. | 1. | 1. | 1. |
| 2. | 2. | 2. | 2. |
| 3. | 3. | 3. | 3. |

Müəllim qrupların sərbəst işi zamanı Şamaxı haqqında əlavə məlumatlar da verə bilər. Təsvir zamanı müəllim qiymətləndirmə meyarlarını yazı taxtasından asır və şagirdlərə rəsmlərində bu meyarları nəzərə almağı tapşırır.

### Məlumat mübadiləsi

Şagirdlər çəkdikləri süjetli xalçaları yazı lövhəsinə bərkidirlər. "Qalereya gəzintisi"ndə işlərə baxıb münasibətlərini bildirirlər.

### Məlumatın müzakirəsi və təşkili

– Şamaxı tikililərinin sadəliyi və orada toxunan xalçaların rəngarəngliyi nə ilə izah oluna bilər?
– Şamaxının hansı abidələrini tanıyırsınız?
– Süjetli xalçalar haqqında nə deyə bilərsiniz?

### Ümumiləşdirmə və nəticə

– Xalçanı hansı ardıcıllıqla çəkdiniz?
– Şamaxı xalçalarından hansılarını tanıyırsınız?



Çap üçün deyil

– Xalçaların neçə növü olur? Onların bir-birindən fərqi nədədir?

**Yaradıcı tətbiqetmə**

Şamaxıya aid rəsm çəkmək.

**Qiymətləndirmə**

Müəllim dərəcələr üzrə qiymətləndirmədən istifadə edir.

| Cütlər | Meyarlar | | | | | Nəticə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| № | Kompozisiya necə verilmişdir? | Süjetli xalçada kontrastlıq nə dərəcədə nəzərə alınmışdır? | Təsvir zamanı naxışlarda ritm nəzərə alınmışdırmı? | Təsvir tapşırılan vaxt ərzində yerinə yetirilibmi? | Rəsm səliqəlidirmi? | Əla | Yaxşı | Orta | Zəif |
| 1-ci | + | + | + | + | + | * | | | |
| 2-ci | + | + | + | – | + | | * | | |
| 3-cü | + | – | + | – | + | | | * | |
| 4-cü | + | – | – | – | + | | | | * |
| 5-ci | | | | | | | | | |
| 6-cı | | | | | | | | | |
| 7-ci | | | | | | | | | |
| 8-ci | | | | | | | | | |
| 9-cu | | | | | | | | | |
| 10-cu | | | | | | | | | |
| 11-ci | | | | | | | | | |
| 12-ci | | | | | | | | | |

Çap üçün deyil

## 17. NOVRUZ ADƏT-ƏNƏNƏLƏRİ

— Novruz mərasimi və təsviri sənət —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.2.; 2.2.1.; 2.2.6.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • Novruz bayramının insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• rəngli karandaşlar, pastel təbaşirlər, flomasterlər, quaş vasitəsilə bayramı əks etdirən rəsm yaradır;<br>• çəkdiyi bayramın təsvirində ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• rəsmdə özünün və digərlərinin çəkdiyi təsvirlərə münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 1.3.2.; 3.1.1; Tex.: 3.1.2.; İnf.: 3.3.1.; 3.3.3.; 3.3.4. | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | qrup işi, kollektiv iş |
| | **ÜSULLAR** | auksion, müzakirə |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, mövzu ilə bağlı müxtəlif rəsm nümunələri və ya şəkillər, qruplar üçün 6 ədəd kiçik vərəq (auksion), flomasterlər, markerlər, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, quaş, fırçalar, flomasterlər, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

Müəllim sinfə suallarla müraciət edir:

– Xalqımız nə zaman torpağı yeni əkinə, yeni məhsula, bolluğa hazırlayır, baharın gəlişini qeyd edir, dadlı şirniyyatlar bişirir? *(Novruz bayramında)*

– Adət-ənənə, bayram, mərasimləri necə yaranır? *(fərziyyələr)*

– Hər bir xalqın öz bayramı, adət-ənənələri var. Bayramların yaranması təsadüfi deyil.

– Azərbaycanlılar lap qədimlərdən yeni ilin, yeni günün – Novruzun gəlişini, yazın, təsərrüfat və əkin-biçin işlərinin başlanmasını böyük şənliklə qarşılayır, bayram edirlər. Əkinçilik işləri baharın gəlişi ilə başlayardı.

– Novruzun hansı adət-ənənələri, əlamətləri var? *(fərziyyələr)*

Müəllim şagirdləri Novruzun əlamətlərinə, ənənələrinə və ya simvollarına görə 5-6 nəfərdən ibarət 4-5 qrupa bölür. Müəllim onlarla **"Elimizin bayramları, adətləri"** mövzusunda auksion keçirir və şagirdləri qaydalarla tanış edir. Qruplar vərəqlərdə yazılmış anlayışlarla bağlı bildiklərini söyləyirlər. Fikirlərin təkrarlanmaması üçün şagirdlər bir-birini dinləməlidirlər.

**Novruz adətləri, oyunları**

**Novruz etiqad və mərasimləri**

**Novruzun, baharın əlamətləri**

**Novruz süfrəsi**

**Novruz nəğmələri, deyişmələri, acıtmaları**

**Novruz geyimləri**

Hər bir fikirdən sonra müəllim sayır: "Bir, iki..."

Bu zaman başqa iştirakçı tez öz bildiyini söyləyə bilər. Sonuncu fikri söyləyən *(əgər ardını heç kim davam edə bilmirsə)* qalib sayılır, yəni axırıncı cavab verən qrup üzvü udur, məsələn: – həyət-bacanı təmizləyərlər; – Novruza qədər ağacların dibini belləyərlər; – səməni göyərdərlər; – Novruz süfrəsi açarlar; – tonqal yandırarlar; – xonça bəzəyərlər; – yumurta boyayarlar; – axır çərşənbə günü şam yandırarlar; – Novruz bayramında "bənövşə", "kos-kosa", "haxışta", oynayarlar; – birinci çərşənbə – su, ikincisi – od, üçüncüsü – yel, axırıncısı isə torpaq çərşənbəsidir; – ilk yaz əkinini xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayarlar və s.

Çap üçün deyil

*Tədqiqat sualı:* ***Elimizin adət-ənənələrini, Novruzun mərasimlərini necə təsvir etmək olar?***

**Tədqiqatın aparılması**

Mövzu ilə tanışlıqdan sonra şagirdlər əcdadlarımızın hələ qədim dövrlərdən baharın gəlişini təsərrüfat işlərinin başlanması ilə bağlayıb, el mərasimi şəklində – öz milli adət və ənənələrimizə uyğun olaraq bayram etdikləri haqqında oxuyurlar. Dərslikdə rəssam əsərləri ilə tanış olurlar.

Şagirdlər Novruz mərasimlərini əks etdirən rəsm çəkirlər. Rəsmlərində adət-ənənələri, bayramın rəngarəng oyun və tamaşalarını göstərməyə çalışırlar. Müəllim qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edəcəyini bildirir və meyarları yazı lövhəsindən asır.

**Məlumat mübadiləsi**

Qruplar işlərini təqdim edərək sərgiləyirlər.

**Məlumatın müzakirəsi və təşkili**

– Nə etdiniz? İşləriniz haqda nə deyə bilərsiniz?

**Ümumiləşdirmə və nəticə**

– Yaratdığınız rəsmlər haqda nə düşünürsünüz? O sizdə hansı hissləri oyadır?

– Bayram – yalnız şənlik demək deyil. Onun təşkilində, keçirilməsində, adət-ənənələrimizdə, insanların davranışında, geyimlərində, nəğmə və rəqslərində xalqın səmimiyyəti, xüsusiyyəti öz əksini tapır.

**Yaradıcı tətbiqetmə**

Novruz personajlarına aid kompozisiya çəkmək. Burada adət-ənənələri nəzərə almaqla milli bayramı təsvir etmək.

**Qiymətləndirmə**

Qrup fəaliyyətinin qiymətləndirilməsi aparılır. Müəllim özü meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Nəticədə hər qrupun topladıqları ballar hesablanır və nəticə çıxarılır.

| **Qruplar** | **MEYARLAR** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Təsvirlərə münasibət bildirilib | Tərtibat | Vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |
| V | | | | | | | |

**QİYMƏTLƏNDİRMƏ (1 saat)**

(3-cü vahidə aid sual və tapşırıqlar vəsaitin sonunda verilib)

Çap üçün deyil

# 18–22. AZƏRBAYCAN SƏNƏTKARLARI

— Mədəni irsimiz —

18. MİRZƏ QƏDİM İRƏVANİ
19. USTA QƏMBƏR QARABAĞİ
20. MİR MÖHSÜN NƏVVAB
21. ÖMƏR ELDAROV
22. TOĞRUL NƏRİMANBƏYOV

Azərbaycan sənətkarlarının yaradıcılığına həsr olunmuş mövzular eyni xarakterli olduğundan verilmiş nümunəyə uyğun olaraq tədris edilə bilər.

| **Məşğələ növü** | 18–20, 22 – mövzu üzrə rəsm, 21 – yapma | |
|---|---|---|
| **Alt-standart** | 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 2.1.2. | |
| **Dərsin məqsədi** | • görkəmli təsviri və dekorativ sənət nümayəndələrini sadalayır;<br>• yaradıcılıq sahələrinə görə görkəmli sənət nümayəndələrini fərqləndirir;<br>• görkəmli təsviri və dekorativ sənət nümayəndələrinin əsərlərini sadalayır;<br>• görkəmli təsviri və dekorativ sənət nümayəndələri barədə kiçik təqdimatlar edir;<br>• təsviri və dekorativ sənət növləri, janrları barədə kiçik təqdimatlar edir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | A-d.: 2.2.2; 2.2.4; H-b.: 3.2.1; İnf.: 1.1.4. | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi iş, qrup işi, kiçik qruplarda iş, cütlərlə iş |
| | **ÜSULLAR** | Ziqzaq üsulu, beyin həmləsi, konseptual cədvəl |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, albom, müxtəlif ləvazimat |

**Dərsin gedişi /Motivasiya**

Müəllim rəssamın bir neçə əsərini nümayiş etdirir və şagirdlərə əsərin işlənilməsi, janrı, üslubu, texnikası, koloriti və s. haqqında suallar verir. Şagirdlərin fərziyyələri dinlənildikdən sonra müəllim dərsin hansı rəssama həsr edildiyini söyləyir.

Müəllim şagirdləri rəssam əsərlərinin adı yazılmış kiçik vərəqlərlə 4 “doğma” qrupa ayırır. Qruplar formalaşandan sonra əsərlərin adını hər qrupdan soruşur. Qrup rəssamın əsərinin adını dedikcə müəllim də onun əsərinin surətini yazı lövhəsindən asır. Beləliklə, lövhədən 4 əsər asılır.

– Gördüyünüz əsərlər təsviri sənətin hansı janrına aiddir? (*mənzərə, natürmort, süjetli əsər, portret*).

– Bu təsvirləri təsviri sənətin hansı növünə aid etmək olar? (*rəngkarlıq, qrafika, heykəltəraşlıq*).

– Gördüyünüz əsərlərin müəllifləri hansı xalqın nümayəndəsi ola bilər? (*Azərbaycan sənətkarları*).

– Bu gün biz sizin tanımadığınız və ya az tanış olduğunuz Azərbaycan sənətkarları haqqında öyrənəcəyik.

*Tədqiqat sualı:* ***Rəssam haqqında nə bilirsiniz? Onun yaradıcılığının əsas xüsusiyyətləri nədir?***

Hər “doğma” qrup fərziyyəsini söyləyir. Fərziyyələrin hamısı müəllim tərəfindən qəbul edilərək yazı lövhəsinə yazılır.

**Tədqiqatın aparılması**

Müəllim şagirdləri “ekspert” qruplarına ayırır. Bunun üçün onlar “doğma” qrupda sənətkarların əsərlərinin sayına uyğun olaraq 1-dən 4-ə kimi sayırlar. “Ekspert” qrupları rəssam haqqında dərslikdə verilmiş mətnlə tanış olur. Hər “ekspert” qrupu sənətkarın yaradıcılığını diqqətlə oxuyur, əsas mətni qrupda müzakirə edir və özü üçün qeyd edir. “Ekspert”lər hazır olduqdan sonra onlar yenidən “doğma” qruplara qayıdırlar və orada öyrəndiklərini bir-birinə danışırlar. Nəticədə qrupun bütün üzvləri sənətkar haqqında məlumat toplayırlar və öyrəndiklərini istədikləri formada təqdimat üçün hazırlayırlar. Müəllim xəbərdarlıq edir ki, dərsin sonunda qrup fəaliyyətinin qiymətləndirilməsi aparılacaq.

Sənətkara aid guşədə verilən əsərləri təhlil etmək də tapşırıla bilər. Şagirdlər dərslikdəki rəssam əsərlərini təhlil etmək üçün sualları cavablandırırlar:

- Əsər nəyə həsr olunub?
- Rəssam hansı koloritdə işləyib? Niyə?
- Əsərin kompozisiyası necə qurulub?



Çap üçün deyil

- Nələr təsvir olunub?
- Əsərin əhvali-ruhiyyəsi necədir? Bu necə ifadə olunub?
- Əsərdə ən əsas, vacib olan nədir?
- Rəssam hansı kompozisiya vasitələrindən istifadə edib?
- Öz əsəri ilə seyrçiyə nəyi çatdırmaq istəyib?
- Ön və arxa planda nələr təsvir olunub?

Mirzə Qədim İrəvani



Əsərin adı .......................................

Növ ...............................................

Janr ...............................................

Kolorit ...........................................

Rəng kontrastı ................................

Xüsusiyyəti .....................................

Usta Qəmbər Qarabaği



Əsərin adı .......................................

Növ ...............................................

Janr ...............................................

Kolorit ...........................................

Rəng kontrastı ................................

Xüsusiyyəti .....................................

Mir Möhsün Nəvvab



Əsərin adı .......................................

Növ ...............................................

Janr ...............................................

Kolorit ...........................................

Rəng kontrastı ................................

Xüsusiyyəti .....................................

Ömər Eldarov



Əsərin adı .......................................

Növ ...............................................

Janr ...............................................

Üsul ...............................................

Material ..........................................

Xüsusiyyəti .....................................

Toğrul Nərimanbəyov



Əsərin adı .......................................

Növ ...............................................

Janr ...............................................

Kolorit ...........................................

Rəng kontrastı ................................

Xüsusiyyəti .....................................

**Məlumat mübadiləsi**

Qruplar sənətkar haqqında öyrəndiklərini hazırladıqları formada təqdim edirlər.

**Məlumatın müzakirəsi və təşkili**

Müəllim vərəqdə (A2 format) əvvəlcədən hazırladığı konseptual cədvəli yazı lövhəsindən asır və şagirdlərlə müzakirə edərək onu doldurur.

Çap üçün deyil

Bu cədvəli hər rəssam üçün ayrıca da tərtib etmək olar.

| Rəssamın adı | Yaşadığı illər | Əsərləri | Əsərləri, əsasən, təsviri sənətin hansı növünə aiddir? |
|---|---|---|---|
| *Mirzə Qədim İrəvani* | | | |
| *Usta Qəmbər Qarabaği* | | | |
| *Mir Möhsun Nəvvab* | | | |
| *Ömər Eldarov* | | | |
| *Toğrul Nərimanbəyov* | | | |

**Ümumiləşdirmə və nəticə**

Müəllim beyin həmləsində yazı lövhəsinə yazılan fərziyyələrin üzərinə qayıdır və onları bir-bir oxuyub təhlil edir. Düz fikirlərin qarşısından "+", səhv fikirlərin qarşısından isə "–" işarəsi qoyur.

**Yaradıcı tətbiqetmə**

Sənətkarlar haqqında müxtəlif mənbələrdən əlavə məlumat toplamaq.

**Qiymətləndirmə**

**Qrup fəaliyyətinin qiymətləndirilməsi** aparılır. Müəllim özü meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Sonda qrupların nail olduğu nəticələr hesablanır.

| Qruplar | MEYARLAR | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Təsvirlərə münasibət bildirilib | Tərtibat | Vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |

---

**QİYMƏTLƏNDİRMƏ (1 saat)**

(3-cü vahidə aid sual və tapşırıqlar vəsaitin sonunda verilib)

Çap üçün deyil

# 4. BÜTÜN XALQLAR YARADICIDIR

## 23. GÜNDOĞAN ÖLKƏ

— Yapon incəsənəti —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.2.; 2.2.1.; 2.2.5.; 2.2.6. | |
| **Dərsin məqsədi** | • yapon incəsənətinin xüsusiyyətlərini, adət-ənənələrinin təsirini nümunələr əsasında şərh edir;<br>• akvarel, tuş, flomaster, pastel təbaşirlər istifadə etməklə sadə təsvirlər, kompozisiyalar yaradır;<br>• real əşya və hadisələri mücərrəd formada təsvir edir;<br>• Yaponiyaya aid çəkdiyi təsvirlərdə ifadə olunmuş fikir və ideyaları şərh edir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | Tex.:1.2.3; Mus.: 1.2.2; 2.1.1; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. | |
| **Yeni sözlər** | Gündoğan ölkə, kalliqrafiya, paqoda, şirma, kimono, sakura | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | qrup işi |
| | **ÜSULLAR** | BİBÖ cədvəli, müzakirə |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, yapon incəsənətinə – geyim, adətlər, memarlığa aid fotolar, qravüra, rəssam əsərləri, poeziya və musiqi nümunələri, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, akvarel, tuş, fırçalar, akvarel üçün kağız, su, flomasterlər, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

Yapon musiqisi səslənir və müəllim şagirdlərin diqqətini yazı lövhəsindən asdığı yapon mədəniyyətinə aid bir neçə fotoşəklə yönəldərək soruşur:

– Musiqi və fotolar hansı ölkəyə məxsusdur? *(Yaponiyaya)*







– Düzdür, bu, Günəşin ilk şəfəq saçdığı ölkə – "Gündoğan ölkə" – Yaponiyadır. Nəyə görə Yaponiyanı "Gündoğan ölkə" adlandırırlar? (*fərziyyələr*).

– Bilirsiniz Yaponiyada necə salamlaşırlar? "Konniçiva" deyərək əlləri sinədə birləşdirir və başı aşağı əyirlər.

– Bu ölkəni həm də "tərsinə olan ölkə" adlandırırlar. Bunu onunla əsaslandırmaq olar ki, burada yazı yazanda bizim kimi soldan sağa deyil, yuxarıdan aşağıya doğru yazırlar, maşının sükanı sol tərəfdə yox, sağ tərəfdə olur, paltonu geyinəndə kişilər yox, qadınlar tutur, burada qaşıqla deyil, çöplərlə yeyirlər, stol arxasında yox, yerdə otururlar. Əgər sizə maraqlıdırsa, bu ölkəni xəritədə də tapa bilərsiniz.

– Yaponlardan soruşanda ki onlarla avropalılar arasındakı fərq nədədir, belə bir ibrətamiz hekayə danışırlar: "Körpünün yanından keçərkən yaxında bitən gözəl bir gül yaponun diqqətini cəlb edir. O, gülə baxır və həzz alır. Həzz aldıqca da ondan əvvəl buradan keçmiş və ondan sonra bu yerdən keçəcək insanların da bu güldən necə həzz alacaqlarını düşünüb çox sevinir. O, düşünür, sevinir və yoluna davam edir. Gülə isə toxunmur. Əgər onun yerinə buradan avropalı keçsəydi, gülü dərər, iyləyər, sevinər və... kənara tullayardı". Yaponlar təbiəti dərin həssaslıqla sevir, gözəlliyə sitayiş edirlər. Yapon incəsənətinin əsas xüsusiyyəti təbiətlə harmoniyaya can atmaqdır: memarlar evləri inşa edərkən onların təbiətlə qovuşmasını nəzərə alırlar, yapon bağbanı – təbiəti miniatürdə yenidən yaratmağa can atır.

> ***Qeyd.*** *Müəllim dərsin motivasiya mərhələsində yapon musiqisi səsləndirir. Bu musiqi sədaları altında müəllim Yaponiyaya aid şeirlər oxuya, fotolar və ya slaydlar da göstərə bilər. Tapşırıqlar arasındakı seçimi müəllim istədiyi kimi edə bilər. Bu tapşırıqları qrup şəklində və ya şagirdlərin öz istəklərini nəzərə alaraq fərdi şəkildə də verə bilər.*

Çap üçün deyil

*Tədqiqat sualı:* ***Təsvir zamanı yapon incəsənətinin xüsusiyyətlərini necə göstərmək olar?***

Müəllim şagirdlərə əvvəlki bilik, təcrübə ilə yeni biliklər arasında əlaqə yaratmaq üçün qabaqcadan hazırlanmış BİBÖ cədvəlini aşağıdakı qaydada hər qrupun qarşısına qoyur. Şagirdlər isə mövzu barəsində və tədqiqat sualı haqqında əvvəlki biliklərini “BİLİRİK” sütununda yazırlar. Sonra onlar cədvəlin “İSTƏYİRİK BİLƏK” hissəsində nə bilmək istədiklərinə dair suallar tərtib edirlər. Sonda qruplar yazdıqlarını təqdim edir.

| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
|---|---|---|
| •<br>•<br>• | ?<br>?<br>? | •<br>•<br>• |

**Tədqiqatın aparılması**

Mətni fərdi şəkildə və ya yanında oturan yoldaşı ilə (cütlükdə) birgə oxuyur və müəllimin söylədiyi informasiya ilə də tanış olurlar.

– Bu gün siz Yaponiya incəsənəti ilə yaxından tanış olacaqsınız. Buranın çox maraqlı və özünəməxsus təbiəti, memarlıq xüsusiyyəti, incəsənəti, adət-ənənələri və bayramları var.

– Yapon incəsənəti olduqca ekzotik, qeyri-adidir. – Yaponiyanın **təbiəti**, **kalliqrafiya** sənəti, ənənəvi yapon **bağı** və **evi** və onun konstruksiyası, qatlanan arakəsmə – **şirmalar**, yapon məbədi olan **paqoda**, qadın geyimi – **kimono** haqqında məlumatlarla dərslikdə tanış olduqdan sonra onlar yenidən ikinci sütundakı suallara qayıdırlar. Şagirdlər mətndə verilən sualların cavabını açıqlayır və üçüncü – **“ÖYRƏNDİK”** sütununda yeni öyrəndiklərini qeyd edirlər. – İndi siz yapon xalqının adət-ənənələrini əks etdirən rəsm çəkəcəksiniz. Sonra **1-ci** qrup **–** ayrı-ayrı mənzərə elementlərini təsvir edir və kəsir; **2-ci** qrup – ümumi fon üzrə kompozisiyanı fikirləşir; **3-cü** qrup – tikililəri; **4-cü** qrup – insanları təsvir edir, sonra ümumi pannoya yapışdırır.

Müəllim şagirdlərə dərəcələr üzrə qiymətləndirmə aparacağını xatırladır və meyarları yazı lövhəsindən asır.

**Müəllim üçün əlavə məlumat**

Fəaliyyət növlərinə görə müəllim istədiyi tapşırığı verə bilər. Əlavə olaraq daha iki fəaliyyət haqqında məlumat verilir. **İkebana** (*ike* – "həyat", *bana* – "güllər", *tərc.* "canlı güllər" və ya *kado* – "güllərin yolu") – kəsilmiş güllərdən müxtəlif kompozisiyalar yaratmaqdan ibarət ənənəvi yapon sənətidir. İkebana üsulu ilə hazırlanmış kompozisiya 3 əsas elementi birləşdirir və adətən 3 gül budağından ibarət olur. Onlar, bəzi inanclara görə, göyü, Yeri və insanı, digərlərinə görə isə Günəşi, Ayı və Yeri simvolizə edir. XV əsrdə Yaponiyada meydana gəlmiş ikebana sənəti əvvəllər dini xarakterli olmuş və allahlara hədiyyə məqsədi daşımışdır. Yapon mədəniyyətində digər bir çox ünsürlər olduğu kimi, *“oru”* (qatlamaq), *“gami”* (kağız) mənasını verən – iki sözün birləşməsiylə yaranan **oriqami** kağız qatlama sənəti Çin mədəniyyəti mənşəlidir. Kağız qatlama sənəti festival və mərasimlərdə bəzək elementi kimi olduqca inkişaf etmişdir. Ağ kağız gizli və müqəddəs elementləri saxlamaq məqsədilə istifadə olunardı və hələ də bəzi məbədlərdə istifadə edilməkdədir. Oriqami sənəti inkişaf etmiş və xalq tərəfindən də bu, bir əyləncə sənəti olaraq mənimsənmiş və məşhurlaşmışdır.

**Məlumat mübadiləsi**

Qruplar BİBÖ cədvəllərində “ÖYRƏNDİK” hissəsini oxuyur və rəsmlərini təqdim edirlər.

**Məlumatın müzakirəsi və təşkili**

Cədvəlin “İSTƏYİRİK BİLƏK” hissəsində olan suallar hamının iştirakı ilə müzakirə edilir.

**Ümumiləşdirmə və nəticə**

– Mövzumuz Yaponiya mədəniyyəti və incəsənəti ilə bağlı idi. Yeni nələr öyrəndiniz? Yaponiyaya səyahət xoşunuza gəldimi? Yapon xalqı onları əhatə edən gözəlliyi necə qiymətləndirir? Ən maraqlısı nə idi?

Həyatın ən kiçik anını başa düşmək, hər bir xırda detalın gözəlliyinə diqqət yetirmək, təbiəti məftunluqla seyr etmək ənənəsi yaponlara ən qədim zamanlardan bir "sənət" kimi aşılanır. Bu cəhət onları digər xalqlardan fərqləndirir. Bu gün biz də yapon xalqı kimi seyr etməyi öyrəndik və bunu tək bu gün deyil, hər bir dərsdə, hər gün və olduğumuz hər yerdə etməyə çalışacağıq.

**Yaradıcı tətbiqetmə**

Yapon xalqının mədəniyyətinə aid məlumat, təqdimat hazırlamaq.

Çap üçün deyil

**Qiymətləndirmə**

Müəllim dərs zamanı müşahidələrinə əsasən dərəcələr üzrə qiymətləndirmə aparır.

| № | MEYARLAR | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1. | Rəsmi vərəqdə yerləşdirir və kompozisiya bütövlüyünə nail olur | | | | |
| 2. | Akvarel vasitəsilə sadə təsvirlər, kompozisiyalar yaradır | | | | |
| 3. | Yapon incəsənətinin xüsusiyyətlərini göstərə bilir | | | | |
| 4. | Real əşya və hadisələri mücərrəd formada təsvir edir | | | | |
| 5. | Yapon xalqının adət-ənənələri, memarlığı, məişəti haqda fikir və ideyaları şərh edir | | | | |
| 6. | Yaponiya barədə kiçik təqdimatlar edir | | | | |
| 7. | Rəsmi səliqəli yerinə yetirir | | | | |

– Bilirsiniz Yaponiyada necə sağollaşırlar? – “Sayonara” deyərək əlləri sinənin qarşısında birləşdirir və başlarını aşağı əyirlər.

– “Siz də sağ olun!” – sözləri ilə müəllim dərsi tamamlayır.

## 24. ŞİMALDA, DAĞ VƏ DÜZƏNLİKDƏ YAŞAYAN XALQLAR

— Tikililərin müxtəlifliyi. Həyat tərzi —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.2.; 2.2.1.; 2.2.6.; 2.2.7.; 3.1.1. | |
| **Dərsin məqsədi** | • şimalda, dağ və düzənlikdə yaşayan xalqların incəsənətinin insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• fırçadan istifadə etməklə akvarel, quaş vasitəsilə müxtəlif mənzərə təsvirlərində tikililərin obrazını yaradır;<br>• çəkdiyi buzlaq, dağ və düzənlik təsvirlərində ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• özünün və digərlərinin çəkdiyi təsvirlərə münasibət bildirir;<br>• verilmiş təsviri sənət nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun şərh etməklə ona münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.:1.3.2; 3.1.1; 3.2.1; A-d.: 2.2.5; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. | |
| **Yeni sözlər** | iqlu, yaranqa, çum, daxma, aul, yurd | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi iş, qrup işi |
| | **ÜSULLAR** | beyin həmləsi, müzakirə |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, dağ, düzənlik və tikililərin təsvirləri (rəssam əsərləri və ya foto), şagird rəsmləri, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan; akvarel, quaş, fırçalar, su, flomasterlər, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

– Gördüyünüz şəkillərdə nələr təsvir olunub? *(dağ massivi, səhra, göllər, çöllər...)* Onlar hansı janra aiddir? *(mənzərə)*







– Burada iqlim şəraiti eynidirmi?

– İnsanın yaşayış tərzi nədən asılıdır?

– İnsan hər şəraitdə yaşaya bilərmi? *(fərziyyələr).*

– Burada insanlar qədim zamanlardan indiyədək necə yaşayıblar? *(fərziyyələr).*

– Bu gün sizinlə insanın müxtəlif şəraitdə necə yaşadığını və həmin mühitdə onun yaşayış tərzi haqqında öyrənəcəyik.

Çap üçün deyil

*Tədqiqat sualı:* ***Dağ və düzənliklərdə yaşayan insanların həyatı, yaşayış tərzi, tikililəri necə olur? Bunu təsvir etmək üçün nəyi bilmək lazımdır?*** Fərziyyələr söylənilir.

**Tədqiqatın aparılması**

Müəllim: İnsanın əmək fəaliyyəti, istifadə etdiyi təbii materiallar, geyimi, məişəti təbii şəraitdən asılı olaraq müəyyənləşir. Gördüyünuz bu tikililəri insanlar yaşadıqları təbii şəraitə uyğun olaraq müxtəlif materiallardan inşa ediblər. Gəlin bu inşaat materiallarını müəyyən edək.


*İqlu*


*Yaranqa*


*Çum*

– Şimalda yaşayan xalqlar – eskimoslar – **iqlu** adlanan evlərini yonulmuş buz parçalarından tikirlər. Maral saxlayan və ovçuluqla məşğul olan şimal xalqları həm də dəridən evlər düzəldirlər – **yaranqa** və **çum**.

Dağ kəndində – **aul**da yaşayan xalqlar qurduqları evləri kiçik, bir-birinin üstündə tikirdilər. Təbiətdən əldə etdikləri gil və daşdan olan bu evlər **daxma** adlanırdı.


*Daxma*

– Hər bir tikilinin fərqli forması var. Onların forması nəyə əsasən seçilir? Düzənliklərdə evlər necə olur? Bu evləri necə təsəvvür edirsiniz? Düzənlikdə yaşayanlar evlərini qoyun yunundan düzəldirlər. **Yurdun** konstruksiyası ağac çubuqdandır. – Materiallar şagirdlər tərəfindən müzakirə edilir.


*Yurd*

– Yurdda istifadə edilən məişət əşyalarını da müxtəlif materiallardan hazırlayırlar. Yurdun daxili hissəsi necədir?



– Siz dəridən heç qab-qacaq görmüsünüz? Köçəri həyat sürən insanlar bu qablardan istifadə edirlər.



– Sizcə, onlar necə geyinirlər? Burada həyat necədir? Düzənliklər hər tərəfə uzanır. Səma, genişlik, xalıya bənzəyən çəmənlər, yaşıl otlar göz oxşayır. Yerli xalqlar at çapmağı çox sevir. İnsan və at bu məkanda sanki doğmalaşır. Siz dağ və çöllərdə yaşayan insanların həyatını, yaşayış tərzini təsvir edəcəksiniz. Çəkəcəyiniz mənzərələrdə çimalın sərt soyuğunu, dağ əzəmətini və düzənliklərin gözəlliyini göstərməyə çalışmalısınız.

– *Kompozisiyanızı düşünün:* alaçığın harada yerləşəcəyini, insanların məşğuliyyətini *(qoyun otarır, at çapır, uşaqlar oynayırlar),* ilin fəslini *(yay fəsli daha yaxşı olar),* günün vaxtını müəyyənləşdirin. İnsan və yaşayış məskəni arasındakı fərqi, proporsiyanı nəzərə almağı unutmayın. Dağ mənzərəsində, əsasən, yuxarıya doğru uzanan daxmaların, düzənlik mənzərəsində isə əksinə, enlənən geniş səmanın, rəngarəng çəmənliyin, qurulan alaçıqların, insanların təsvirinə diqqət yetirmək lazımdır.

Müəllim dərsin sonunda şagirdlərə qrupun özünüqiymətləndirmə cədvəlindən istifadə edəcəklərini xatırladır və meyarları hər qrupun qarşısına qoyur.

**Məlumat mübadiləsi**

Hər qrup öz işini təqdim edir.

**Məlumatın müzakirəsi və təşkili**

– Niyə ocaq yeri alaçığın mərkəzində yerləşir?
– Çəkdiyiniz rəsmlərdəki obyektlərin ölçüsü haqda nə deyə bilərsiniz?
– Üfüq xəttini qeyd etməsəydiniz, rəsminiz necə olardı?
– Çəkdiyiniz hansı detallar təbiətdəki dəyişikliyi bildirir?

**Ümumiləşdirmə və nəticə**

– Bu gün nə haqda öyrəndiniz? Yurdu memarlıq nümunəsi adlandırmaq olarmı? Bunu necə izah edə bilərsiniz?

– Yurdu "günəş saatı" da adlandırırlar. Tavandakı dəlikdən düşən günəş şüaları yurdun ətrafında sanki saat əqrəbi kimi fırlanır. Yurdun haləsi (çevrəsi) 12 hissəyə bölünür və günün vaxtını bildirir.

**Yaradıcı tətbiqetmə**

Orta Asiya xalqlarının nağıllarını oxumaq və bu xalqlar haqqında məlumat toplamaq.

**Qiymətləndirmə**

Müəllim qrupun özünüqiymətləndirmə cədvəlindən istifadə edərək onu hər qrupun qarşısına qoyur.

| № | MEYARLAR | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1. | Şimal, dağ və düzənlik təsvirlərində kompozisiya həllini tapmışıq | | | | |
| 2. | Tikililərin formasında, mənzərə təsvirində perspektivi, üfüq xəttini göstərmişik | | | | |
| 3. | Təsvir etdiyimiz fəslin rənglərini, günün vaxtını göstərə bilmişik | | | | |
| 4. | Çəkdiyimiz tikililərin təsvirində ifadə olunmuş fikir və ideyamızı izah etmişik | | | | |
| 5. | Şimal, dağ və düzənlikdə yaşayan xalqların geyim və məişətini göstərə bilmişik | | | | |
| 6. | Təsviri tapşırılan vaxt ərzində yerinə yetirmişik | | | | |

## 25. SƏHRALIQDAKI ŞƏHƏRLƏR

— Şərq şəhərinin obrazı—

| | | |
|---|---|---|
| **Məşğələ növü** | dekorativ-tətbiqi sənət /aplikasiya | |
| **Alt-standart** | 1.1.2. ; 2.1.1.; 2.2.1.; 2.2.6.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • səhradakı şəhər obrazının insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• Orta Asiya şəhərlərinin memarlıq və dekorativ sənətini əsas xüsusiyyətlərinə görə şərh edir;<br>• rəngli kağızlardan istifadə etməklə aplikasiya vasitəsilə sadə kompozisiyalar yaradır;<br>• yaratdığı kompozisiyalarda ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• özünün və digərlərinin yaratdığı şəhər obrazına münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 1.3.2; 3.1.1; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | cütlərlə iş |
| | **ÜSULLAR** | beyin həmləsi, müzakirə, qalereya gəzintisi |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, rəngli kağızlar, markerlər, səhra, Orta Asiya şəhərlərinin memarlıq nümunələrinin təsvirləri (rəssam əsərləri və ya foto), şagird rəsmləri, qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan, A3 formatlı rəngli kağız və karton, qayçı, yapışqan, flomasterlər, pastel təbaşirlər |

Çap üçün deyil

**Dərsin gedişi / Motivasiya**

– Niyə xalqlar bir-birindən fərqlidir? Bu nədən asılıdır? *(yaşayış yerinin xüsusiyyətinə, ulu babalarının adət-ənənələrinə görə).* – Gördüklərinizə harada rast gəlmək olar? *(səhrada)*







– Səhralar və yarımsəhralar qurunun 1/3 hissəsini təşkil edir. Səhralar da insanlar kimi fərqli olur, bir-birinə bənzəmir. Birinin rəngi, o birinin həcmi digərlərindən fərqlənir. Siz səhralığı necə təsəvvür edirsiniz? *(fərziyyələr)*






– Səhra qumsal ərazidir. Burada günəşin hərarəti çox yüksəkdir. Kənardan seyr etsən, səhralıq dəniz kimi dalğalı və ucsuz-bucaqsızdır. Onun sərtliyi və amansızlığı yalnız səhralıqda doğulub boya-başa çatan adama məlumdur. Siz səhra təsvir etsəydiniz, hansı rənglərdən istifadə edərdiniz? *(fərziyyələr).* Əgər təsvirinizdə yaşıl otluq və ağaclar olsaydı, çox maraqlı kontrast alınardı. Səhralıqda da belə yerlər mövcuddur. Onları **vahə** (oazis) adlandırırlar. Belə yerlər yalnız su olan ərazilərdə əmələ gəlir. Su isə həyat deməkdir. Bu su mənbələri ətrafında insanlar məskən salaraq qəsəbələr, sonra isə şəhərlər yaratdılar. Bu gün sizinlə səhralarda yaranan şəhərlər haqqında öyrənəcəyik.

– Səhra yaşayış üçün yararlıdırmı?

*Tədqiqat sualı:* ***Səhralıqdakı şəhərlərin obrazını yaratmaq üçün nə etmək lazımdır?***

**Tədqiqatın aparılması**



Elə təsəvvür edin ki, çox istidir, heç yerdə su yoxdur. Hər tərəf səhralıqdır**.** Qızmar günəş altında, qaynar qumlar üzərində yolçular çətinliklə hərəkət edirlər. Budur, qarşıda bir şəhər göründü *(müəllim şəhərin fotolarını asır).* Biz sizinlə ora şəhərin incəsənəti, memarlığı, adət-ənənələri ilə tanış olmağa yollanırıq. Görəsən, səhralardakı şəhərlər necə yaranıb? Burada əsas hansı tikinti materialından istifadə edirlər? *(bişmiş kərpic və gil əsas materialdır).*

– Şəhər möhkəmlənir və inkişaf edir, çünki burada su var. Keçmiş zamanlarda səhraya nə ilə yollanmaq olardı? (*dəvə karvanı ilə*).

– Deyirlər ki, qədim zamanlarda buradan özü ilə çoxlu qum gətirən iri çay axırdı. Şəhəri isə iri qala qapıları qoruyurdu. Əsas giriş qapıları cənub tərəfdədir, düzbucaqlıdır, bol ornamentlərlə bəzədilib.

Müəllim sözlər yazılmış vərəqləri yazı lövhəsindən asır.

– Bu sözlərdən bəziləri sizə tanışdır, onların mənasını açıqlayın.

| PORTAL | GÜNBƏZ | MOZAİKA | TAĞ |
|---|---|---|---|

– Səmərqəndin mədrəsələri olduqca gözəldir. Səmərqənd **Orta Asiya**nın ən qədim şəhəridir, onun 3000 ilə yaxın yaşı var. Orada olan tikililəri yerlilərlə yanaşı Hindistan, İran, Suriya, Azərbaycan və digər ölkələrdən gələn sənətkarlar ucaltmışlar. Orta Asiyanın ərazisində beş respublika yerləşir: Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan. Burada müxtəlif xalqlar yaşayır. Ən böyüyü – özbəklərdir. Özbəkistan böyük bir tarixi olan qədim ölkədir.

Müəllim "Orta Asiya" adlı təqdimatı slaydlar və ya şəkillər vasitəsilə göstərir. Şərq musiqisi də səsləndirə bilər. Şagirdləri Orta Asiya şəhərlərinin memarlığı ilə tanış edir. Bu şəhərləri xəritədə də göstərə bilər. Müəllim lövhədə **"REGİSTAN MEYDANI"** sözünü, yanında isə **"QUMLU SƏHRA"** – onun mənasını yazır.

– Səmərqənd bütün zamanlarda insanları öz gözəlliyi və mükəmməlliyi ilə heyran edib. Səmərqəndin möcüzəsi adlanan **Registan kompleksi** "şəhərin ürəyi" sayılır. Bu gün də Registan meydanında üç saray – üç mədrəsə – **Uluq bəy** mədrəsəsi, **Şir-Dor** mədrəsəsi, **Tilya Kari** mədrəsəsi yerləşir. Ən qədim mədrəsə **Şir-Dor** mədrəsəsidir. Mərkəzi portal şir təsvirlərinin mozaikası ilə bəzədilib. Portalın hər iki tərəfində minarələr ucalır. Minarələr də incə ornamentlərlə bəzədilib. Portalın fasadı böyük və kiçik ulduzlu həndəsi naxışlardan ibarətdir. **Tilya Kari** mədrəsəsi

Çap üçün deyil

qızılı rənglərlə bərq vuraraq günəşi özündə əks etdirir. Qədim Səmərqəndin daha bir möcüzəsi – **Gur Əmir** mavzoleyidir. Onun divarları mavi kaşılarla bəzədilib. Mavzoleyin üzərində firuzəyi rəngli günbəz ucalır.



*Registan kompleksi*



*Şir-Dor mədrəsəsi*



*Tilya Kari mədrəsəsi*



*Gur Əmir mavzoleyi*

– Bu gün siz aplikasiya vasitəsilə Orta Asiya şəhərlərinin obrazını yaradacaqsınız. Bunu cütlükdə (parta yoldaşı ilə) birlikdə işləyəcəksiniz. Tikililərin əsas elementlərini unutmayın. Arxa və ön planda olanların ölçülərini nəzərə alın. Detallar simmetrik olduğu üçün rəngli kağızları iki qatlayaraq kəsin. Kompozisiya qaydalarına riayət edin. Yapışdırdıqdan sonra günbəz və tikililərin üzərini ornamentlərlə bəzəyin. Portalı əzəmətli kəsin. Əgər vaxt qalsa, əlavə elementlər də kəsib yapışdıra bilərsiniz. Bu, dəvə, insanlar, ticarət köşkləri ola bilər. İş zamanı bir-birinizə kömək edin.

Müəllim yazı lövhəsində nümunə olaraq şəhərin müxtəlif kompozisiya sxemlərini çəkərək göstərə bilər.

Müəllim cütlüklərin fəaliyyətinin qiymətləndirilməsindən istifadə ediləcəyini bildirir və qiymətləndirmə cədvəllərini hər cütlüyün qarşısına qoyur.

**Müəllim üçün əlavə məlumat**

**MEMARLIQ.** Özbəkistanın tarixi və memarlıq abidələri özbək mədəniyyətinin ayrılmaz hissəsidir. Daşkənd, Səmərqənd, Buxara, Xivə, Kokand, Termez, Muynak, Şəhrisəbz – Özbəkistanın ən mühüm şəhərlərindəndir. Səmərqənd şəhəri Zərəfşan çayı vadisində yerləşir və Özbəkistanın ikinci böyük şəhəridir. Şair və tarixçilər bu şəhəri *"Şərqin Roması", "Göylər altında olan ən gözəl şəhər", "Şərq islamının mirvarisi"* adlandırmışlar. Bibi Xanım məscidi, Registan meydanı, Gur Əmir mavzoleyi şəhərin ən möhtəşəm memarlıq abidələrindəndir. Bibi Xanım məscidi təkcə Səmərqəndin və Özbəkistanın deyil, bütün İslam Türküstanının tanınmış tarixi məscididir. Məscid-sarayın həyətində mərmər Quran yerləşir.

**ƏNƏNƏLƏR.** Özbəklərə məxsus əsas xüsusiyyətlərdən biri qonaqpərvərlikdir. Nahar və ya şam yeməyinə dəvətdən imtina etmək düzgün sayılmır, qonaq üçünsə ən əsası dəqiqlikdir. Süfrəyə öncə şirniyyat, sonra xörək verilir. Ümumiyyətlə, özbəklərdə "çayiçmə" xüsusi mərasim hesab olunur. Çayı kişilər dəmləyir və piyalələrdə süfrəyə verirlər.

### Məlumat mübadiləsi

Hər qrup öz işini təqdim edərək yazı lövhəsinin qarşısına düzür. "Qalereya gəzintisi" üsulundan istifadə etməklə yoldaşlarının işləri ilə tanış olur, onlara öz münasibətini bildirirlər.

### Məlumatın müzakirəsi və təşkili

– Tikililər hansı formalardadır? *(düzbucaqlı, kvadrat, yarımdairə).*

– Onların üzərində hansı ornamentləri görmək olar? – Məscidlə düzənlikdəki alaçığın oxşarlığı nədədir? *(gözəl giriş qapısı var, ornamentlərlə bəzədilib)*

### Ümumiləşdirmə və nəticə

– Orta Asiyanın təbiəti haqqında nə deyə bilərsiniz?



Çap üçün deyil

– Nəyə görə mədrəsələr indiyədək qorunub saxlanılıb?

***– Hər bir xalqın incəsənətində əsrlərin yaddaşı olan abidələr qorunub saxlanılır. Biz də bu abidələri gələcək nəsillər üçün qorumalıyıq. Hər bir şəhərin əsrlərin ənənələrini özündə əks etdirən özünəməxsus memarlıq obrazı var. Biz də bu ənənələrə hörmət etməli və onu qorumalıyıq.***

– Adət və ənənələr, şəhər obrazı, ev, geyim və məişət haqqında “Dünya xalqlarının nağılları”, "Orta Asiya xalqlarının nağılları"nı oxusanız, təsəvvürünüz genişlənər.

**Yaradıcı tətbiqetmə**

Növbəti dərs üçün Qədim Yunanıstan əfsanələri haqqında məlumat toplamaq.

**Qiymətləndirmə**

Cütlüklərin fəaliyyətinin qiymətləndirilməsindən istifadə edilir.

| CÜTLƏR | MEYARLAR | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Kompozisiya quruluşunun həlli | Şəhərin xüsusiyyətləri | Tikililərin əsas elementləri və naxışları | Tapşırığın tam və uyğun yerinə yetirilməsi | Əlavələr | Vaxta qənaət | Nəticə |
| 1-ci | | | | | | | | | |
| 2-ci | | | | | | | | | |
| 3-cü | | | | | | | | | |
| 4-cü | | | | | | | | | |
| 5-ci | | | | | | | | | |
| 6-cı | | | | | | | | | |
| 7-ci | | | | | | | | | |
| 8-ci | | | | | | | | | |
| 9-cu | | | | | | | | | |
| 10-cu | | | | | | | | | |
| 11-ci | | | | | | | | | |
| 12-ci | | | | | | | | | |

## 26. QƏDİM ELLADA

— Qədim yunan incəsənəti —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | dekorativ-tətbiqi fəaliyyət | |
| **Alt-standart** | 1.1.2.; 2.2.1.; 2.2.6.; 2.2.7. | |
| **Dərsin məqsədi** | • qədim yunan incəsənəti və mədəniyyətinin insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• fırçadan, akvarel, quaş və rəngli kağızlardan istifadə etməklə aplikasiya vasitəsilə sadə panno və kompozisiyalar yaradır;<br>• yaratdığı pannoda və ya rəsmdə ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• özünün və digərlərinin yaratdığı insan obrazına münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | H-b.: 1.3.2; 3.1.1; Tex.: 3.1.2; İnf.: 3.3.1; 3.3.3; 3.3.4. | |
| **Yeni sözlər** | Ellada, ellinlər, Afina, Akropol, Parfenon, Erexteyon, Panafineya, Olimpiya oyunları, amfora | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | qrup işi, böyük qrupla iş |
| | **ÜSULLAR** | BİBÖ cədvəli, qrup müzakirəsi |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait,<br>BİBÖ və qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan; akvarel, quaş, fırçalar, su, A2 formatlı kağız və karton, qayçı, yapışqan, flomasterlər, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

– Gördüyünüz şəkillərin oxşar cəhəti nədir? *(insan təsvir olunub)*



Çap üçün deyil

   

– Bu şəkillər həm də qədim yunan incəsənətinə aiddir. Buranın sakinləri özlərini ellinlər, ölkəni isə Ellada adlandırırdılar. İnsan gözəlliyi haqqında ilk dəfə düşünən və onu ilk tərənnüm edən qədim ellinlər olub.

– Bu gün bu ölkənin incəsənəti ilə tanış olacaqsınız. Yunan xalqının hansı tikililəri, bayramları, adət-ənənələri, əfsanələri haqda bilirsiniz? (*fərziyyələr*)

Müəllim şagirdləri yunan incəsənətinə aid şəkillər vasitəsilə qruplara ayırır. BİBÖ cədvəlini əvvəlcədən hazırlanmış aşağıdakı qaydada hər qrupun qarşısına qoyur. Şagirdlər isə mövzu barəsində və tədqiqat sualı haqqında əvvəlki biliklərini “BİLİRİK” sütununda yazırlar. Sonra onlar cədvəlin “BİLMƏK İSTƏYİRİK” hissəsində nə bilmək istədiklərinə dair suallar tərtib edirlər. Qruplar yazdıqlarını təqdim edir.

| BİLİRİK | BİLMƏK İSTƏYİRİK | ÖYRƏNDİK |
|---|---|---|
| • | ? | • |
| • | ? | • |
| • | ? | • |

*Tədqiqat sualı:* ***Qədim yunan incəsənəti və mədəniyyətinin xarakterik xüsusiyyətləri haqqında nə bilirsiniz? Bu ölkənin memarlığı və adət-ənənələrini necə göstərmək olar?***

### Tədqiqatın aparılması

Şagirdlər dərslikdən qədim yunan incəsənətinə aid məlumatı oxuyurlar. Müəllim deyir:

– Afina şəhərinin təpəlik hissəsi – Akropol meydanında ucalan və memarlıq inciləri sayılan Afinanın əzəmətli heykəli, Parfenon məbədi *(yunanca “İlahə Afina məbədi”)*. Elladanın ən əzəmətli tikililərindəndir. Parfenonla üzbəüz çox da böyük olmayan, lakin ecazkar Erexteyon və Zevsin məbədi yerləşir. – Şəhər sakinlərinin adət-ənənələri, ən əlamətdar bayramları olan Panafineya və Olimpiya oyunları, gündəlik məişəti, antik vazalar haqqında məlumat verilir. Sonra şagirdlər öz suallarına mətndə cavab axtarırlar. Hansı suala cavab tapırlarsa, onun qarşısında işarə qoyaraq yeni öyrəndiklərini cədvəlin 3-cü – “ÖYRƏNDİK” hissəsinə yazırlar.

Müəllim şagirdlərə tapşırıq verir və qruplar sərbəst işləməyə başlayır.

– Siz Qədim Yunanıstanda keçirilən “Olimpiya oyunları” mövzusunda panno yaradacaqsınız. Panno üçün A2 formatlı kağızı rəngləyərkən isti çalarlar seçin.

1-ci qrup pannonun fonunu yaradır. Boyanın rənglərini qarışdırmadan dəniz, mavi səma, ağacları, gəmiləri təsvir edirsiniz. Belə bir fon qədim yunan mənzərəsinə bənzəyəcək; 2-ci qrup qaçan atletləri, 3-cü qrup tikililəri – ağ sütunlu məbədi (sütunların sayı eyni olmalıdır), 4-cü qrup isə bayram libası geyinmiş qadınları təsvir edir. Sonra insan fiqurları, tikililərin forması kəsilir və ümumi fona yapışdırılır.

Müəllim xəbərdarlıq edir ki, dərsin sonunda qrup fəaliyyətinin qiymətləndirilməsi aparılacaq.

### Məlumat mübadiləsi

Qruplar BİBÖ cədvəllərini və yaratdıqları pannonu yazı lövhəsinə bərkidirlər. Onlar öncə cədvəlin “ÖYRƏNDİK” hissəsində yazdıqlarını oxuyur, sonra isə həmin məzmuna uyğun olan təsvirləri təqdim edirlər.

### Məlumatın müzakirəsi və təşkili

Müəllim dərsin bu mərhələsi zamanı şagirdlərin diqqətini yazı lövhəsində bərkidilən BİBÖ cədvəlinin 2-ci – “BİLMƏK İSTƏYİRİK” hissəsində olan suallara yönəldir. Onlar yenidən oxunulur və təhlil edilir. Cavab tapmadıqları sual müzakirə edilir və müəyyən nəticəyə gələ bilmədikdə o, ev tapşırığı kimi verilir.

### Ümumiləşdirmə və nəticə

– Dərslikdən tanış olduğunuz hansı qədim yunan abidəsi “dünyanın yeddi möcüzəsi”ndən biridir?

– Olimpin ən qüdrətli tanrısı – Zevsin nəhəng heykəli qədimdə "dünyanın yeddi möcüzəsi"ndən biri hesab olunurdu. Bu heykəl şəhərin mərkəzi meydanındakı məbəddə, digər heykəllərin əhatəsində əzəmətlə ucalırdı. Afina, əslində, şəhər-muzeydir. Akropoldakı Parfenon məbədi isə ilahə Afinanın şərəfinə ucaldılmışdır. Parfenon – dünya memarlığının ən görkəmli əsərlərindən sayılır.



Çap üçün deyil

**Yaradıcı tətbiqetmə**

Yunan əfsanələrinə (məsələn, Herakl haqqında) aid illüstrasiya çəkmək. Təbiətin obrazını, məbəd və insanın konstruksiyasını, insan gözəlliyinin obrazını bu illüstrasiyalarda göstərmək.

**Qiymətləndirmə**

Qrup fəaliyyətinin qiymətləndirilməsi aparılır. Müəllim özü meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Nəticədə hər qrupun topladıqları işarələr sayılır.

| Qruplar | MEYARLAR | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Təsvirlərə münasibət bildirilib | Tərtibat | Vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |

## 27. ORTA ƏSR AVROPA ŞƏHƏRLƏRİ

— Qotik şəhərin obrazı —

| | | |
|---|---|---|
| **Məşğələ növü** | dekorativ-tətbiqi fəaliyyət | |
| **Alt-standart** | 1.1.2; 2.1.1; 2.2.1; 2.2.6; 3.1.1. | |
| **Dərsin məqsədi** | • orta əsr Avropa şəhərləri incəsənətinin və mədəniyyətinin insanlara təsirini nümunələr əsasında şərh edir;<br>• qotik memarlıq və qotik geyim arasındakı əlaqənin əsas xüsusiyyətlərini şərh edir;<br>• fırça, akvarel və ya quaş, rəngli kağızlardan istifadə etməklə aplikasiya vasitəsilə sadə kompozisiyalar və panno yaradır;<br>• yaratdığı təsvirdə ifadə olunmuş fikir və ideyaları şərh edir;<br>• verilmiş təsviri və dekorativ sənət nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun şərh etməklə ona münasibət bildirir. | |
| **Dərsin tipi** | induktiv | |
| **Fənlərarası inteqrasiya** | A-d.: 2.2.5.; H-b.: 1.3.2.; 3.2.1.; Tex.: 3.1.2.; İnf.: 3.3.1.; 3.3.3.; 3.3.4. | |
| **Yeni sözlər** | qotik üslub, qotik kilsə | |
| **İstifadə olunan** | **İŞ FORMALARI** | fərdi və qrup işi |
| | **ÜSULLAR** | beyin həmləsi, konseptual cədvəl |
| **Təchizat** | **Müəllim üçün** | dərslik, metodik vəsait, insan fiqurunun proporsiyalarının təsviri, konseptual və qiymətləndirməyə aid cədvəllər |
| | **Şagird üçün** | dərslik, sadə və rəngli karandaşlar, pozan; akvarel, quaş, fırçalar, su, A1 formatlı rəngli kağız və karton, qayçı, PVA yapışqanı, flomasterlər, pastel təbaşirlər |

**Dərsin gedişi / Motivasiya**

– Gördüyünüz bu memarlıq nümunələrinin adlarını və onların hansı xalqa məxsus olduğunu deyin (“*paqoda*” *– yapon xalqına, Şir-Dor mədrəsəsi – özbəklərə, Parfenon – qədim yunan xalqına aiddir*).






– Sonuncu şəkil – orta əsrlərdə şəhər mərkəzində ucaldılan kilsədir. Orta əsr – qədim və müasir dövr arasındakı zaman kəsiyidir. Orta əsrlərdə Qərbi Avropada yaradılmış şəhər kilsələrini qotik kilsələr adlandırmaq qəbul olunmuşdur. Qotik kilsələri daşdan tikirdilər. Nəticədə daşdan karkas – sütunlar, dayaqlar və itiuclu arakəsmələr



Çap üçün deyil

yaranırdı. Qotik memarlığın əsas ideyası – yuxarıya doğru ucalmaqdır. Qotik kilsələrin memarlığı şəhərin obrazını, simasını tərənnüm edirdi. İndi isə orta əsr Qərbi Avropası haqqında danışaq: onun ərazisində hansı müasir ölkələr yerləşir? (*İtaliya, Fransa, Almaniya, İngiltərə*).

– Şəhərimizin tikililəri arasında qotik üslubda tikilən bina gormüsünüzmü?

– Bu tikililərə baxarkən sizdə hansı ovqat yaranır? (*fərziyyələr*).

– Kilsələr şəhərin mərkəzində yerləşdiyi üçün burada hər zaman nə müşahidə etmək olar? (*insanları, əhalini*)

Müəllim meydanın qarşısında gəzən insan təsvirlərini nümayiş etdirə bilər.



Orta əsr Qərbi Avropa miniatürü. *Limburq qardaşları*





Orta əsr geyimləri

– Onların geyimləri olduqca fərqlidir, bu haqda nə deyə bilərsiniz? *(fərziyyələr)*

*Tədqiqat sualı:* ***Orta əsr Avropa şəhərləri incəsənətinin və mədəniyyətinin əsas xüsusiyyətləri nədir? Qotik memarlıq və qotik geyim arasındakı əlaqəni necə göstərmək olar?***

## Tədqiqatın aparılması

Şagirdlər mətnlə tanış olaraq qotik şəhər, kilsələr, geyim və məişət haqqında məlumatı oxuyurlar. Müəllim şagirdləri qruplara ayırır və deyir:

– Orta əsrlərdə Qərbi Avropa şəhərlərinin mərkəzi meydanının pannosunu düzəldin. Burada insanları təsvir edəcəksiniz. Bunun üçün də onların geyimlərinə diqqət yetirin. Müxtəlif peşə sahiblərinin fərqli geyimi nəzərə alınmalıdır. Orta əsrlərdə hər bir rəngə xüsusi simvol kimi baxırdılar. Ag rəng – paklıq; qara – qəm, qüssə, sadiqlik; mavi isə incəlik rəmzi idi. Rəng simvolikasını unutmayın və geyimlərdə göstərin. – 1-ci qrup – qotik tikililəri, 2-ci qrup – təsvirin fonunu, 3-cü qrup – insanları, 4-cü qrup – kiçikyaşlı uşaqları təsvir edir, sonra hər qrup çəkdiyi obrazı kəsərək ümumi pannoya yerləşdirir. Qrup ilk növbədə pannonun süjetini fikirləşib müəyyən edir. Buna ən yaxşı nümunə dərslikdəki təsvirlər ola bilər. Pannonun kompozisiyasının tərtibatında – fon, təbiət, qayaları yerləşdirmək üçün A1 formatlı ağ və rəngli vərəqlərdən istifadə edirlər. Əvvəlcədən yaradacaqları pannonun eskizini çəkib müəyyənləşdirirlər. Rəng seçiminə xüsusi diqqət yetirmək lazımdır.

Müəllim qrup fəaliyyətinin qiymətləndirilməsinin aparılacağını xatırladır və meyarlarla şagirdləri tanış edir.

## Məlumat mübadiləsi

Qrupların hər biri onlara aid olan işləri kəsərək təqdim edir. Hər qrup üzvü pannonun elementləri hazır olduqdan sonra onu pannodakı münasib yerlərə yapışdırır.

– İşin başa çatdırılması üçün yaratdığınız pannonun kompozisiyasının xırda elementlərini də çəkib tamamlayın.

## Məlumatın müzakirəsi və təşkili

**–** Vitraj haqqında nə deyə bilərsiniz? (*pəncərənin sahəsini dolduran rəngli şüşədir*). – Düzdür, lakin siz bilirsiniz ki, vitrajı qotik kilsənin "*qızılgülü"* adlandırırlar.

Yiyələndikləri biliklərə əsasən şagirdlər cədvəldə tanış olduqları ölkələrin müqayisəsini tərtib edirlər.

| Ölkələrin adı | Hansı şəhərlər daxildir? | Hansı fərqli xüsusiyyətlərə malikdir? | Memarlıq abidələri | Yaşayış tərzi (geyim və məişət) | Adət-ənənələr | İncəsənət | Bayramlar |
|---|---|---|---|---|---|---|---|
| Gündoğan ölkə | | | | | | | |
| Orta Asiya şəhərləri | | | | | | | |
| Qədim Ellada | | | | | | | |
| Qərbi Avropa | | | | | | | |



Çap üçün deyil

**Ümumiləşdirmə və nəticə**

– Düzəltdiyiniz panno haqqında nə deyə bilərsiniz? O, sizdə hansı hissləri yaradır?
– Qeyri-adi tikililəri bizə görməyə kömək edən incəsənət necə adlanır?

**Yaradıcı tətbiqetmə**

"Bütün xalqlar yaradıcıdır" vahidi üzrə məlumat toplamaq və ona aid illüstrasiyalarla tanış olmaq. Onlara əsasən jurnal və ya kiçik kitabça düzəltmək.

**Qiymətləndirmə**

Qrup fəaliyyətinin qiymətləndirilməsi aparılır. Müəllim özü meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Nəticədə hər qrupun topladıqları sayılır.

| Qruplar | MEYARLAR | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Təsvirlərə münasibət bildirilib | Tərtibat | Vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |

## QİYMƏTLƏNDİRMƏ (1 saat)

(4-cü vahidə aid sual və tapşırıqlar vəsaitin sonunda verilib)

Çap üçün deyil

## — TERMİNLƏR LÜĞƏTİ —

I – IV siniflər üzrə

**Abidə** (ərəb sözü) – şəhər küçələrini və ya meydanını bəzəyən daş və ya tunc heykəllər. Tarixi hadisələrin və görkəmli insanların şərəfinə xatirə olaraq ucaldılır.

**Akvarel** (latınca "aqua" – su) – incə, şəffaf boya. İş zamanı sudan çox istifadə olunur. Bu boyalarla işlənilmiş rəsmlərə də "akvarel" deyilir.

**Aplikasiya** (latınca "applicaatio" – yapışdırma) – rəngli kağız, dəri, məxmər parçaların kağız və ya parça üzərinə yapışdırılması; yapışdırma yolu ilə ornament və bədii rəsmlərin hazırlanması.

**Arxitektura** (yunan sözü) – inşaat, memarlıq.

**Bədii obraz** – insanın yaddaşında qalan təəssürat. Obraz – incəsənətdə anlama, xüsusi dünyagörüşü, ətraf aləmin bədii gözəlliyini ifadə etmə deməkdir.

**Blik** (alman sözü) – parlayan işıq. Təsvirin ən işıqlı nöqtəsi.

**Bulvar** (fransızca "boulevard" – ilkin məna: şəhər istehkamı) – geniş şəhər xiyabanı və ya ağaclar əkilmiş geniş küçə.

**Bürc, qüllə** – qala hasarlarının hündür küncləri, qala keşikçilərinin dayandığı yer.

**Dekorativ-tətbiqi sənət** (latınca "dekoro" – bəzəyirəm) – özünəməxsus dekorativ obrazlılıq və bədii mahiyyətə malik olan incəsənət növü; müxtəlif materiallardan (ağacdan, gildən, daşdan, parçalardan, şüşədən, metallardan) hazırlanan əsərlər.

**Dekorasiya** (latınca "decorare" – bəzəmək) – tamaşa qəhrəmanlarının geyimi, onları əhatə edən səhnə elementləri.

**Dizayn** (ingiliscə "design" – rəsm, ideya, fikir) – əşyaların layihələndirilməsi ilə bağlı yaradıcı sahə. Dizaynerin əsas məqsədi hazırladığı məhsulun rahat və cəlbedici olmasıdır.

**Eksponat** (latınca "exponatus" – nümayiş etdirilən) – muzeydə nümayiş etdirilən məmulat.

**Ekspozisiya** (latınca "expositio" – ifadə və ya təsvir etmə) – eksponatları nümayiş etdirmək üçün onların müəyyən qaydada düzülüşü.

**Eskiz** (fransızca "esquisse" – ilkin) – təsəvvür edilən əsərin ilkin qaralaması.

**Etüd** (fransızca "etude" – öyrənmə) – naturadan çəkilən təsviri incəsənət əsərinin ilkin nümunəsi.

**Əsas rənglər** – digər rənglərin qarışığı nəticəsində alınmayan qırmızı, göy və sarı rənglər.

**Fantaziya** (yunanca "phantasia" – təxəyyül, təsəvvür etmə) – arzu, xülya, reallıqda mövcud olmayan uydurma.

**Fon** (fransızca "dərinlik") – təsvirin arxa hissəsi.

**Günbəz, qübbə** – dam örtüyü.

**Hasar** – tikilinin ətrafına çəkilən divar.

**Hava perspektivi** – yaxın və uzaq (ön və arxa plan) formalar arasındakı rəng və ölçü nisbətinin dəyişməsi.

**Həndəsi naxışlar** – həndəsi fiqurlardan (onların elementlərindən) ibarət bəzək növü.

**Heykəl** – insan və heyvan təsvirlərinin həcmli şəkildə hazırlanması (düzəldilməsi). Heykəl həcmli olduğu üçün ona hər tərəfdən baxmaq mümkündür. Metal, daş, gil, ağac, gips, qum, buz və digər materiallardan düzəldirlər.

**Heykəltəraş** – heykəllər yaradan sənətkar. O, heykəlləri gildən, plastilindən yapma, daşdan yonma, ağacdan oyma üsulu ilə yaradır.

**Heykəltəraşlıq** – ən qədim təsviri sənət növlərindən biri. Heykəltəraşlıq əsərləri həcmli formaya malikdir. Müxtəlif bərk və plastik (yoğrulan, istənilən şəklə salına bilən) materiallardan hazırlanır.



Çap üçün deyil

**İkebana** (ike – "həyat", bana – "güllər", tərc. "canlı güllər" və ya kado – "güllərin yolu") – kəsilmiş güllərdən müxtəlif kompozisiyalar yaratmaqdan ibarət ənənəvi yapon sənəti. İkebana üsulu ilə hazırlanmış kompozisiya üç əsas elementi birləşdirir və adətən, üç gül budağından ibarət olur. Onlar, bəzi inanclara görə, göyü, Yeri və insanı, digərlərinə görə isə Günəşi, Ayı və Yeri simvolizə edir.

**İllüstrasiya** (latınca "illustratio" – izah etmə, aydın təsvir) – kitabda mətnlə yanaşı rəssam təsvirləri – mətnin təsvir vasitəsilə ifadəsi. Bu təsvirlər əsərin qəhrəmanlarını, hadisələrin baş verdiyi məkanı əks etdirir.

**İsti rənglər** – rəng dairəsinin isti – qırmızı, narıncı, sarı rəng çalarları olan hissəsində yerləşir. İncəsənət əsərlərində isti rənglər günəş, alov rəngləri ilə əlaqələndirilir.

**Karandaş** (türkcə "qara daş") – təbii material olan qrafitdən və ya xüsusi rəngləyici maddələrdən hazırlanan rəsm aləti. Qrafitin səthi, adətən, taxta qabıqla örtülür.

**Karikatura** (italyanca "caricatura" – artırmaq, şişirtmək) – xarakterik cizgilərin (insan, real sima və məişət hadisələri) satirik təsviri.

**Keramika** (dulusçuluq sənəti) – təbii gildən müxtəlif məmulatları yaratma sənəti.

**Kətan** – üzərində yağlı boya ilə işləmək üçün material.

**Kolorit** (latınca "color" – rəng) – rəsm əsərinin rəng uyğunluğu. İsti və soyuq ola bilər.

**Kolleksiya** (latınca "collectio" – toplum) – nadir əşyaların və ya incəsənət əsərlərinin (kitablar, əlyazmalar, şəkillər, keramikalar, şüşələr, silahlar, daşlar, markalar, sikkələr və s.) toplusu.

**Kompozisiya** (latınca "compositio" – qurulma, tərtib etmə, yaratma) – rəssam əsərlərini təşkil edən elementlərin bir-biri ilə uyğunluğu və əlaqəsi.

**Kontrast rənglər** – bir-birindən kəskin fərqlənən rənglər. Onlar rəng dairəsində qarşı tərəflərdə yerləşir. Qırmızı – yaşıl, göy – narıncı, sarı – mavi isə kontrast rənglərdir. Kontrast rənglərə **təzadlı** (ərəbcə "təzad" – ziddiyyət, əks olan) **rənglər** də deyilir.

**Kömür** – rəsm çəkmək üçün nazik çubuq şəklində olan material; müəyyən növlü ağac budaqlarından (cökə, söyüd) yandırılaraq hazırlanır. Kömürlə çəkilən rəsmlər zərif tona malik olur.

**Qarışıq rənglər** – əsas rənglərin qarışığından alınan narıncı, yaşıl və bənövşəyi rənglər.

**Qazon (**fransızca "gazon") – bağ və parklardakı yaşıl otlu sahə, çəmənlik.

**Qovuşma nöqtəsi** – uzaqlaşan paralel xətlərin birləşmə nöqtəsi. O, üfüq xəttində, müşahidəçinin gözləri qarşısında yerləşir.

**Qrafik** – qrafika sahəsində çalışan rəssam.

**Qrafika** (yunanca "graphike" – çəkirəm, yazıram) – səth üzərində yaradılan təsviri incəsənətin növü. Kağız və ya karton üzərində karandaş, kömür, qələmlə çəkilir. Az rəng istifadə olunmasına görə rəngkarlıqdan fərqlənir. Qrafikanın əsas ifadə vasitələri – xətt, ştrix, kontur, ləkə və ton.

**Quaş** (italyanca "guazzo" – nəm) – şəffaflığı olmayan, örtücü xüsusiyyətə malik boya. İş zamanı boyadan çox, sudan az istifadə olunur.

**Qurşaq** – tikilinin dekorativ elementi. Hasarı tamamlayan başlıq.

**Lessirovka** (alman sözü) – rəng çalarını gücləndirmək (dolğun) və ya zəiflətmək (solğun) üçün qurumuş rəng təbəqəsi üzərinə yeni rəngin yaxılması.

**Maket** (fransızca "maquette") – layihəsi qalın kağız və ya kartondan hazırlanan hər hansı predmetin həcmli görünüşü, ilkin nümunəsi.

**Maska** (fransızca "masque") – göz kəsikləri olan, tanınmamaq üçün sifətə taxılan və yeni obraz (real və ya mifoloji) yaratmaq üçün örtük.

**Marionetka** (italyanca "marionetta") – iplərin köməyi ilə insan tərəfindən canlandırılan kukla.



Çap üçün deyil

**Mazğal** – qala divarında atışma üçün qoyulan və ensiz pəncərəyə oxşayan şaquli yarıq.

**Memar** – bina, körpü və digər tikililərin konstruksiyasını, tərtibatını işləyib hazırlayan rəssam.

**Memarlıq abidələri** – xalqın, ölkənin, şəhərin milli tarixini əbədiləşdirən memarlıq tikililəri. Onlar, adətən, dövlət tərəfindən qorunur.

**Məişət janrı** – şəhər və ya kənd sakinlərinin gündəlik həyatlarını əks etdirən təsvirlər.

**Mənzərə janrı** (fransızca "paysage" – məkanın görünüşü) – təbiətin sonsuz müxtəlifliyini (dağ, çay, meşə, tarla, dəniz, şəhər və s.) təsvir edən janr. Mənzərə təsvirləri rəssamın ətraf aləmə münasibətini, hiss və əhvali-ruhiyyəsini əks etdirir.

**Mərasim** – müəyyən qayda ilə icra olunan adət, ənənə.

**Miniatür** (italyanca "miniatura") – qədim əlyazmalarda çəkilən və dekorativ tərtibatı ilə fərqlənən kiçikölçülü təsvir.

**Monumental** (latınca "monumentum" – heykəl) – əzəmətli, möhtəşəm.

**Mozaika** (fransızca "mosaque", italyanca "mosaico" – ilahələrə ithaf edilən) – alabəzək saxsı parçalarından quraşdırılmış tematik təsvir və ya ornamental bəzək.

**Muzey** (yunanca "museion", muza – incəsənət və elm ilahəsi) – tarixi, maddi və mənəvi dəyərlərin saxlandığı, qorunduğu, öyrənildiyi məkan.

**Natura** (latınca "natura" – təbiət) – təsvir zamanı rəssamın qarşısında olan və müşahidə edilən real obyektlər (insan, əşya, təbiət və s.).

**Natürmort janrı** (fransızca "nature morte", italyanca "natura morta" – dəqiq tərcüməsi: "cansız təbiət") – məişət, əmək, yaradıcılığı əks etdirən əşyalar, adətən, çiçəklər, qida məhsulları təsvir edilən əsərlər. Natürmortlarda, əsasən, əşyalar və onların məxsus olduğu insanın yaşadığı mühit təsvir edilir.

**Nəbati naxışlar** – təbiət varlıqları olan gül, yarpaq, budaq və digər elementlərdən ibarət bəzək növü.

**Oriqami (**"oru" – qatlamaq, "gami" – kağız) **–** yapon mədəniyyətində kağızqatlama sənəti.

**Ornament** (latınca "ornamentum" – bəzək) – müxtəlif xətt, fiqur, forma və təbiət varlıqlarından (gül, yarpaq, budaq, balıqqulağı, həşərat), heyvan motivlərindən ibarət naxış kompozisiyası.

**Pastel təbaşirlər** (italyanca "pasta" – xəmir) – bədii material; tərkibi bağlayıcı maddələrlə zəngindir (bu maddələr tabaşirin formasını saxlamağa imkan verir). Pastel təbaşirlərdə hər rəngin müxtəlif çalarları mövcuddur.

**Park heykəltəraşlığı** – təbiət qoynunda ucaldılan heykəllər. Bu zaman heykəl də, təbiət də bir-birini tamamlayır.

**Panno** – məhdudlaşdırılmış səth üzərində dekorativ kompozisiya, yəni divarın, tavanın bəzədilmiş səthi.

**Perspektiv** (fransız sözü) – məsafədən asılı olaraq forma və rəngin dəyişməsi.

**Plastilin** (yunanca "plastos" – yapma) – heykəltəraşlıqda yapma material. Gil kimi, plastilin də müvəqqəti, yardımçı materialdır.

**Proporsiya** (latınca "proportio" – nisbət, uyğunluq, mütənasiblik) – bədii əsərin ölçülərinin bir-birinə nisbəti.

**Portret janrı** (fransızca "portrait" – dəqiq cizgilər) – insan surəti təsvir edilən əsərlər. Bu əsərlərdə onun daxili aləmi, xarakterinin əsas xüsusiyyətləri əks edilir.

**Pyedestal** (fransızca "piedestal") – heykəlin dayandığı bəzəkli altlıq (özül).

**Reallıq** (latınca "realis" – həqiqi) – obyektiv mövcud olan hal, fakt, gerçəklik.

**Relyef** (latınca "qabartma") – heykəltəraşlığın bir növü; səth üzərində qabarıq təsvir. Öndən (qarşıdan), sağ və soldan görünüş üçün nəzərdə tutulur.

**Refleks** (latın sözü) – əşyanın kölgə tərəfində digər səthin işıq və rənginin əksi.

**Rəng çalarları** – incəsənət əsərinin koloriti. Rəng çalarları isti, soyuq, əlvan, tutqun, açıq və s. olur.



Çap üçün deyil

**Rəng dairəsi** – çevrədə təsvir edilən rəng çalarlarının ardıcıl keçidi. Bu rəng dairəsində əsas – qırmızı, sarı və göy rənglər qarışıq – narıncı, yaşıl və bənövşəyi rənglərlə əvəzlənir. İki əsas rəngin qarışığından əlavə qarışıq rəng alınır. Rəng dairəsini, adətən, isti və soyuq hissələrə bölürlər.

**Rəng kontrastı** – parlaq rənglərin bir-birinə görə kəskin fərqi.

**Rəngkar** – kətan, lövhə, karton, kağız üzərində rənglərlə işləyən rəssam.

**Rəssam** – yaradıcılıq istedadına malik, incəsənəti anlayan və incəsənət əsəri yaradan, ətraf mühitin gözəlliyini insanlara təsvir vasitəsilə çatdıran sənətkar.

**Rəsm** – səth üzərində kontur (xətt, cizgi), rəng vasitəsilə yaradılan təsvir.

**Ritm** (yunanca "rhythmós" – axma, növbələnmə, ardıcıllıq) – əsərdə kompozisiya elementlərinin təkrarı, ardıcıllığı, ahəngi. Ritm – kompozisiya elementlərinin növbə ilə təkrarlanması, düzülməsi nəticəsində əmələ gəlir. Ritm musiqidə, ədəbiyyatda və s.-də ifadə vasitəsidir.

**Siluet** (fransızca "silhouette" – kölgə ) – kölgəni xatırladan birrəngli təsvir.

**Simmetriya** (yunanca **"**symmetria" – uyğunluq, tarazlıq) – əşya mərkəzindən keçən xəttin böldüyü hissələr üst-üstə düşərsə, o, simmetrikdir.

**Soyuq rənglər** – rəng dairəsinin soyuq – göy, yaşıl, bənövşəyi rəng çalarları olan hissədə yerləşir. İncəsənət əsərlərində soyuq rənglər buz və qar, dəniz rəngləri ilə əlaqələndirilir.

**Stek** (italyanca "stecca" – çubuq) – yumşaq materiallarla işləmək (kəsmək) üçün plastmas və ya ağacdan hazırlanan heykəltəraş aləti.

**Simvol** (yunanca "symbolon" – işarə) – hər hansı bir anlayışın, ideyanın, hadisənin şərti işarəsi.

**Şəbəkə** (ərəbcə "shabaka" – tor**)** – ağac və rəngli şüşələrdən düzəldilmiş naxış.

**Şirma** (pərdə) – üzərinə parça çəkilmiş çərçivə, bükülən arakəsmə.

**Tablo** (fransız sözü) – şəkil, rəsm və ya iri şəkil.

**Tağ, portal** – alaqapı, əsas giriş qapısı.

**Tarixi janr** – tarixi hadisələrə (unudulmaz görüşlər, döyüşlər, təntənələr və s.) həsr olunmuş əsərlər. Bu janrın yarımnövü batal janrıdır. Batal janrında rəssamlar müharibənin həlledici məqamlarını əks etdirirlər.

**Tavan** – damın daxili hissəsi.

**Teatr** (yunanca "teatron" – tamaşa məkanı) – kollektiv surətdə tamaşa edilən incəsənət məkanı; tamaşaçılar qarşısında aktyorların istənilən mövzuda hazırladıqları, ifa etdikləri tamaşa.

Çap üçün deyil

**DƏRSLİKDƏ İSTİFADƏ OLUNAN REPRODUKSİYALARIN SİYAHISI**

1. Kamil Xanlarov. *Mənzərə* (dərs 1, səh. 9)
2. Əyyub Məmmədov. *Kür üzərində sakitlik* (dərs 1, səh. 10)
3. Məhəmməd Orucov. *Xəzərin keşiyində* (dərs 1, səh. 10)
4. Maral Rəhmanzadə. *Sevimli Araz* (dərs 1, səh. 11)
5. Toğrul Nərimanbəyov. *Natürmort* (dərs 2, səh. 12)
6. Oqtay Sadıqzadə. *Çaybecərən Rəhimova və Bayramovanın portreti* (dərs 5, səh. 20)
7. Mikayıl Abdullayev. *Çəltikçi qızlar* (dərs 5, səh. 21)
8. Maral Rəhmanzadə. *Azərbaycan qadınları* (dərs 5, səh. 21)
9. Elmira Şahtaxtinskaya. *İtkisiz böyüdəcəyəm* (dərs 5, səh. 21)
10. Asəf Cəfərov. *Azərbaycanım* (dərs 6, səh. 23)
11. Ələkbər Rzaquliyev. *Öküzün nallanması* (dərs 6, səh. 23)
12. Ağa Mirək. *Xosrovun taxta çıxması. Orta* əsr miniatürü (dərs 12, səh. 38)
13. Ələkbər Rzaquliyev. *Yumurta döyüşü* (dərs 17, səh. 48)
14. Ələkbər Rzaquliyev. *Novruz bayramına hazırlaşırlar* (dərs 17, səh. 48)
15. Məhəmməd Orucov. *Bayram axşamı* (dərs 17, səh. 49)
16. Mirzə Qədim İrəvani. *Fətəli şah Qacar*; *İrəvan şahzadəsi Mah Tələt xanım*; *Qadın portreti*; *Oğlan portreti*; *İrəvanlı Həsən xan (Sarı Aslan); İrəvan sərdarı*; *İrəvan sərdarı* (dərs 18, səh. 51)
17. Usta Qəmbər Qarabaği. *Şəki xanlarının yay sarayının divar və tavanındakı naxış və rəsmlər*. Fraqmentlər (dərs 19, səh. 53)
18. Usta Qəmbər Qarabaği. *Şəki xanlarının saray divarlarını bəzəyən hərb səhnələri. Fraqmentlər* (dərs 19, səh. 53)
19. Mir Möhsün Nəvvab. *Rəssamın evini bəzəyən quş və çiçək təsvirləri*; *Əmir Teymurun portreti* (dərs 20, səh. 54)
20. Mir Möhsün Nəvvab. *Dərviş Nurəli şahın portreti*; *Əbdürrəhman Caminin portreti*; *İllüstrasiyalar* (dərs 20, səh. 55)
21. Ömər Eldarov. *M.Füzuli*; *Natəvan*; *Ü.Hacıbəyli* (dərs 21, səh. 56)
22. Toğrul Nərimanbəyov. *Göyçay bağlarında*; *Bakıda bahar*; *Nar və armud* (dərs 22, səh. 57)
23. Limburq qardaşları. *Orta əsr şəhəri. Miniatür. Fraqment* (dərs 27, səh. 70)

Çap üçün deyil

**— Kiçik summativ qiymətləndirmə nümunəsi —**

IV sinif
“Doğma incəsənətin mənbəyi” vahidi üzrə
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №1)

Şagirdin adı_______________Soyadı________________________Sinfi________Tarix______________

<table>
<tr><th>Suallar</th><th>1</th><th>2</th><th>3</th><th>4</th><th>5</th><th>6</th><th>7</th><th>8</th><th>9</th><th>10</th><th rowspan="6">Yaradıcı tapşırıq</th><td>Mənzərənin kompozisiyası</td><td></td><td rowspan="6">Ümumi qiymət (cavab variantı+ yaradıcı tapşırıq)</td></tr>
<tr><td rowspan="4">Cavab variantı</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td></td><td></td><td></td><td>Üfüq xətti</td><td></td></tr>
<tr><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td></td><td></td><td></td><td>Perspektivin qanunu</td><td></td></tr>
<tr><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td></td><td></td><td></td><td>Hava perspektivi</td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td>Rəngləmə</td><td></td></tr>
<tr><td>Qiymət</td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td>Qiymət</td><td></td></tr>
</table>

1. Üfüq xətti neçə səviyyədə olur?
*a) 3* *b) 4* *c) 2*

2. Perspektiv – dəyişmədir:
*a) forma, ölçü və rəngin*
*b) formanın*
*c) rəngin*

3. Təsvirdə əşyanın ən işıqlı yeri necə adlanır?
*a) refleks* *b) blik* *c) kölgə*

4. Səma ilə yerin qovuşduğu xətt necə adlanır?
*a) düz xətt* *b) üfüq xətti* *c) şaquli xətt*

5. İnsanın qədim zamanlarda istifadə etdiyi material: *a) şüşə* *b) daş* *c) plastmas*

6. Köçəri mənzil necə adlanır?
*a) alaçıq* *b) koma* *c) çovustan*

7. Yurdumuzun ən qədim bayramı hansıdır?
*a) şum mərasimi*
*b) məhsul yığımı*
*c) yeni il*

8. Cümləni tamamla:
*NATÜRMORT – təsviri sənətin* _______________
_____________________*biridir.*

9. Meyvə üzərində işıq-kölgənin əsas ifadəli vasitələrini qeyd et:

*1. Blik*
*2. İşıq*
*3. Yarımkölgə*
*4. Refleks*
*5. Xüsusi kölgə*
*6. Düşən kölgə*



10. Tikili haqqında bildiklərini qeyd et.



*Adı*________________________

*Forması* ____________________

*İnşaat materialı*______________________________

*Əsas xüsusiyyəti*______________________________

**Yaradıcı tapşırıq:** Perspektivin qanununu nəzərə alaraq mənzərə təsvir et. Rəsmə başlarkən əvvəlcə üfüq xəttini müəyyənləşdirməyi unutma.

Çap üçün deyil

## — QİYMƏTLƏNDİRMƏ ÜÇÜN SUAL VƏ TAPŞIRIQLAR —

### 1. DOĞMA İNCƏSƏNƏTİN MƏNBƏYİ

• Səma ilə yerin qovuşduğu xətt necə adlanır? a) düz xətt b) üfüq xətti c) şaquli xətt

• Qovuşma nöqtəsi nəyin birləşməsidir? a) kompozisiyanın b) paralel xətlərin c) rəsmin

• Üfüq xətti harada yerləşir? a) solda b) sağda c) göz səviyyəsində

• Üfüq xətti neçə səviyyədə olur? a) 3 b) 4 c) 2

• Qovuşma nöqtəsi harada yerləşir? a) üfüq xəttində b) səmada c) obyektlərin üzərində

• Perspektiv nədir? a) forma, rəng və ölçülərin dəyişməsi b) əşyaların dəyişməsi c) rəngin dəyişməsi

• Hava perspektivi nəyin dəyişməsidir? a) rəng nisbətinin və formanın b) formaların c) kompozisiyanın

• Perspektivə əsasən, əşyalar belə görünür: a) yaxındakılar – kiçik, uzaqdakılar – iri b) yaxındakılar – iri, uzaqdakılar – kiçik c) yaxındakılar – zəif, uzaqdakılar – aydın

• Üfüqdə rəng çalarının əlvanlığı necə olur? a) güclü b) zəif c) olmur

• Natürmortda əsasən təsvir olunur: a) insanlar b) əşyalar c) hadisələr

• Əşyanın həcmli olduğunu müəyyən edir: a) forma b) kompozisiya c) işıq-kölgə

• Əşyanın ən parlaq yeridir: a) refleks b) blik c) kölgə

• Əşyanın işıqlanmayan səthidir: a) blik b) refleks c) xüsusi kölgəsi

• Əşya üzərində digər səthin işıq və rənginin əksi: a) yarımkölgə b) refleks c) blik

• Əşyanın səthində işıqlanan yer: a) işıq b) blik c) refleks

• Əşyanın işıqlanmayan hissəsi: a) düşən kölgədir b) kölgədir c) yarımkölgədir

• İşıqdan kölgəyə keçid hissədir: a) xüsusi kölgəsi b) işıq c) yarımkölgə

• Bir əşyadan digər əşyaya əks olunur: a) düşən kölgə b) blik c) yarımkölgə

• Qurumuş rəng təbəqəsinin üzərinə yeni rəngin yaxılması: a) kompozisiya b) lessirovka c) rəngkarlıq

• Ölçülərin bir-birinə nisbəti, uyğunluğudur: a) rəng b) kompozisiya c) proporsiya

• Akvarel boyasının xüsusiyyətləri bunlardır: a) incədir, düzəlişlər etmək olmur b) qatıdır, səhvləri düzəltmək mümkündür c) heç bir xüsusiyyəti yoxdur

• İnsanın qədim zamanlarda istifadə etdiyi material: a) şüşə b) daş c) plastmas

• İnsanın ilk tikilisidir: a) ev b) ocaq yeri c) mağara

• Qədim insanın ilk rəsm aləti: a) ağac b) daş c) gil

• Köçəri mənzili necə adlanır? a) alaçıq b) koma c) çovustan

• Alaçığın konstruksiyası ibarətdir: a) çubuq və keçədən b) daş və çiy kərpicdən c) ağac və qamışdan

• Alaçığın divar və dam örtüyünün materialı: a) saman b) keçə c) küləş

• Komanın forması: a) dairəvi b) üçbucaq c) dördbucaq

• Komanın damında yerləşir: a) pəncərə b) baca c) quyu

• "Kom" nə deməkdir? a) səpmək b) dağıtmaq c) toplamaq

• Komanı nədən tikirlər? a) çubuq və keçədən b) daş və çiy kərpicdən c) ağac və qamışdan

• Çovustanın forması: a) dairəvi b) üçbucaq c) dördbucaq

• Çovustanın dam örtüyü: a) küləş b) keçə c) saman

• Çovustanın inşasında istifadə olunan material: a) çubuq və keçə b) daş və çiy kərpic c) qarğı və küləş

• Yurdumuzun ən qədim bayramı hansıdır? a) şum mərasimi b) məhsul yığımı c) taxıl biçini

---

• **Cümlələri tamamla:**

*1. **Mənzərə** təsviri sənətin __________. Bu əsərlərdə rəssamlar _______,_________,_______təsvir edir.*

*2. Səmanın __ qovuşduğu xəttə **üfüq xətti** deyilir. Üfüq xətti **nəzər nöqtəsinə** əsasən ___ səviyyədə ola bilər:_,_,_.*

*3. Mənzərələrdə ___ və uzaqda yerləşən formalar arasında ____və____nisbəti dəyişir. Bu dəyişikliyə____ **perspektivi** deyilir.*

*4. **Natürmort –** təsviri sənətin __________ biridir. Natürmortlarda əsasən _______________təsvir olunur.*

*5. **Blik** – əşyanın ______________ hissəsidir. **Düşən kölgə** – əşyadan ___________________________kölgədir.*

*6. Rəssamların rəngkarlıq əsərlərində _____və___ əsas ifadə vasitəsidir. Onların köməyi ilə rəssam ____ yaradır.*

*7. **Relyef** – ____ bir növüdür, səth üzərində _________təsvirdir. Əsasən_________görünüş üçün_____________.*

*8. **Portret** sözünün mənası "________________" deməkdir. Bu əsərlərdə ______________________təsvir edilir.*

• **Kürə işıqlanarkən hansı dəyişikliklər baş verir? Ton dərəcələrini müəyyənləşdir və qeyd et:**
1. Blik. 2. İşıq. 3.Yarımkölgə. 4. Refleks.
5. Xüsusi kölgəsi. 6. Düşən kölgə.





Çap üçün deyil

- **Tikililər necə adlanır? Onlar haqqında nə bilirsən?**

 ***Qeyd.*** *Müəllim tapşırığı bir tikili üzərində də qura bilər.*

| | | | |
|---|---|---|---|
| |  |  |  |
| Tikilinin adı | | | |
| Forması | | | |
| Xüsusiyyətləri | | | |
| İnşaat materialları | | | |
| Həyat tərzi | | | |

---

**1.** Rəsmi yerləşdirmək üçün vərəqi üfüqi və ya şaquli vəziyyətdə tuturlar. Bu nədən asılıdır?
**2.** Üfüq xəttinin səviyyələrinə əsasən hansı dəyişikliklər baş verir?
**3.** Natürmortu çəkmək üçün hansı mərhələlərə əməl etmək lazımdır?
**4.** Qaya üzərində nələr təsvir olunub və bu rəsmlər nə haqqındadır?
**5.** Panno nədir? Onu necə yaradırlar?
**6.** Tikilinin möhkəmliyi və daimiliyi nədən asılıdır?
**7.** Portretlərdə nələr əks olunur?

---

Çap üçün deyil

## QƏDİM ABİDƏLƏR DİYARI

• Simvol nədir?
a) rəsm b) şərti işarə c) bəzək
• Daş – ... rəmzi sayılır. a) yumşaqlıq b) əbədilik c) möhkəmlik
• Qoç fiquru ... rəmzidir. a) qoyunçuluq b) mərdlik c) maldarlıq
• At fiquru ... rəmzidir.
a) igidlik b) ovçuluq c) şərəf
• Qədim daş fiqurlar üzərindəki simvollar nədir? a) rəmz b) yazı c) şəkil
• Türbə hansı məqsədlə tikilir?
a) yaşayış b) xatirə c) gözəllik
• Məbəd nədir?
a) ibadət yeri b) ev c) məktəb
• Relyef – ... təsvirdir.
a) yastı b) qabarıq c) həcmli
• Relyef – təsviri sənət növlərindən birinə aiddir:
a) rəngkarlığa b) heykəltəraşlığa c) qrafikaya
• Məbədin ən hündür nöqtəsi:
a) portal b) divar c) qübbə
• Günbəz nədir?
a) divar b) dam c) qapı
• Günbəzin forması: a) düzbucaq b) trapesiya c) yarımkürə
• Ən davamlı körpülər hansılardır?
a) taxta körpü b) asma körpü c) daş körpü
• Körpü hansı məqsədlə tikilir?
a) keçid üçün b) sərhəd üçün c) yaşamaq üçün
• Konstruksiya nədir? a) quruluş b) üsul c) tikili
• Qala divarında ensiz pəncərə:
a) bürc b) qurşaq c) mazğal
• Qalalar hansı məqsədlə tikilir?
a) yaşamaq üçün b) müdafiə üçün c) gözəllik üçün
• Proporsiya nəyi bildirir? a) ölçü vahidini b) ölçülər üçün əlaqəni c) ölçülər arasındakı nisbəti
• Şəhərin ən etibarlı müdafiəçisi:
a) qalalardır b) əsgərlərdir c) insanlardır
• Qübbə nəyin damıdır? a) məbədin b) evin c) məktəbin
• Tağ, portal nə deməkdir? a) divar b) qapı c) pəncərə

---

• **Cümlələri tamamla:**

**1.** *Əcdadlarımız **daş büt** adlanan __________fiquruna_______edirdilər. Fiqurun ön və arxa _____ bəzəkləri ______________________ və _____________________üsulu ilə işlənib.*
**2.** ***Türbə** adlanan tikililər _______üçün ucaldılırdı. Onlar ________və __________formalarda olurdu.*
**3.** ***Məbədləri** ________ üçün inşa edirdilər. Hər birinin müxtəlif _____________ və ________var.*
**4.** *____________________________üçün inşa olunan **qalalar** ______________________________________rəmzi sayılırdı. Onun enli___________________keşikçi_______ , divarlarda isə ________________var idi.*
**5.** ***Karvansaralar**____, ____, ____müvəqqəti qalması üçün tikilirdi. Karvansara **hücrəsi** ___üçün nəzərdə tutulurdu.*
**6.** *Sarayın **divanxanasında**__________, __________elan edilirdi.*

• **Tikililər haqqında bildiklərini qeyd et.**
***Qeyd.** Müəllim tapşırığı bir tikili üzərində də qura bilər.*

| |  |  |  |  |  |
|---|---|---|---|---|---|
| Tikilinin adı | | | | | |
| Forması | | | | | |
| Xüsusiyyətləri | | | | | |
| İnşaat materialları | | | | | |

---

**1.** Abidə nə üçün ucaldılır?
**2.** Türbələr nə üçün tikilir?
**3.** Şəhəri niyə qoruyurdular?
**4.** Məbədin əsas hissələri hansılardır?
**5.** Körpülərin oxşar və fərqli xüsusiyyətləri hansılardır?
**6.** Qala divarlarının bürcləri, qüllələri nə üçündür?
**7.** Karvansaraların digər tikililərdən fərqli xüsusiyyətləri nədir?
**8.** Karvansara və sarayın fərqli cəhətləri hansılardır?

Çap üçün deyil

# — III —
# YURDUMUZUN İNCƏSƏNƏTİ

• “Şəhərin özəyi” sayılırdı:
a) evlər b) məbədlər c) qalalar
• Məbəd, divanxana, saray, evlər harada yerləşirdi? a) yol kənarında
b) qala ərazisində c) çayın sahilində
• Zərgər, xalçaçı, dəmirçi və dulusçular necə adlanırdılar?
a) sənətkarlar b) fəhlələr c) işçilər
• Dabbaqxana nədir? a) yaşayış evi
b) dəri emalatxanası c) heyvanxana
• Yurdumuzun hansı şəhəri dəmirlə zəngin idi?
a) Bərdə b) Gəncə c) Şəki

• Gəncə sənətkarlarının fəxri sayılırdı: a) ev pəncərələri b) qala qapısı c) imarət qapıları
• Şamaxı sənətkarlarının yun və baramadan hazırladığı məhsullar:
a) xalça və ipək b) pərdə c) süfrə
• Süjetli xalçaların məzmunu ibarətdir: a) naxışlardan b) məişət səhnələrindən c) zolaqlardan
• Miniatür üslubunu, xalq sənətini və Avropa rəngkarlıq ənənələrini öz yaradıcılığında birləşdirən ustad:
a) M.M.Nəvvab b) U.Q.Qarabaği
c) M.Q.İrəvani

• Şəki xanlarının yay sarayının divar və tavanındakı naxış və rəsmlər hansı sənətkara aiddir: a) U.Q.Qarabağiyə
b) M.M.Nəvvaba c) M.Q.İrəvaniyə
• Şuşadakı Gövhərağa məscidinin bəzədilməsində iştirak edib:
a) M.Q.İrəvani b) M.M.Nəvvab
c) U.Q.Qarabaği
• Xurşidbanu Natəvanın heykəlini hansı heykəltəraş yaradıb?
a) Tokay Məmmədov b) Mirəli Mirqasımov c) Ömər Eldarov
• Öz əsərlərində ən çox nar bitkisini təsvir edən rəssam:
a) S.Bəhlulzadə b) T.Nərimanbəyov
c) B.Mirzəzadə

---

• **Cümlələri tamamla:**

*1.* ***Şəhərlər*** *birdən-birə______ . Onlar özək sayılan _________əhatəsində tədricən böyümüş, boy atmışdı.*
*2. Qədim zamanlarda _______ divarlarının əhatə etdiyi ərazidə ______, _______, _____saray əhlinin – ___ və____evləri yerləşirdi. Şəhərin* ***mərkəzində****_____meydanı, ətrafda isə____,______, ___,____emalatxanaları yerləşirdi.*
*3. Qədim* ***Gəncə*** *ərazisindən çıxarılan _________sənətkarlar əşyalar hazırlayırdılar. Onların hazırladığı _________ilə bütün şəhər fəxr edir.*

• **Rəssamlar haqqında nə bilirsən? Onların məşhur əsərlərini təhlil et.**
***Qeyd.*** *Müəllim tapşırığı bir rəssam əsəri üzərində də qura bilər.*

| Mirzə Qədim İrəvani | | Usta Qəmbər Qarabaği | |
|---|---|---|---|
| <br>“Gənc qadın” | | <br>Şəki xanlarının yay sarayının divar naxışları | |
| Ömər Eldarov | | Toğrul Nərimanbəyov | |
| <br>Xurşidbanu Natəvan | | <br>“Nar pərisi” | |
| Mir Möhsun Nəvvab | | | |
| <br>İllüstrasiya | | | |

---

**1.** Şəhər üçün ən vacib tikililər hansılardır? **2.** Şəhərləri məşhurlaşdıran nədir? **3.** Gəncə hansı memarlıq və sənətkarlıq nümunələri ilə zəngindir? **4.** Dekorativ-tətbiqi sənətin hansı növləri var? **5.** “Hər bir şəhərin öz siması var” ifadəsi nə deməkdir?



Çap üçün deyil

## — IV —
## BÜTÜN XALQLAR YARADICIDIR

• Hansı ölkə Gündoğan adlanır?
a) Azərbaycan b) Yunanıstan
c) Yaponiya
• Kalliqrafiya nə deməkdir?
a) rəngkarlıq b) gözəl yazı
c) qrafika
• Kalliqrafiyanı nə ilə yazırlar?
a) qələmlə b) boya ilə c) tuşla
• Paqoda nədir?
a) ev b) məbəd c) məktəb
• Şirma – üzərinə parça çəkilmiş çərçivə, bükülən ... a) şəkildir
b) tavandır c) arakəsmədir
• Yapon xalqının ən sevimli bayramı: a) sakuranın çiçəklənməsi
b) təbiətin oyanması c) bahar bayramı
• Kimono nəyə deyilir? a) məbədə
b) geyimə c) yeməyə
• İqlu hansı formadadır? a) düzbucaqlı b) dairəvi c) üçbucaqlı
• Çumun forması hansıdır?
a) konus b) dairəvi c) düzbucaqlı
• İqlunu nədən tikirlər? a) kərpicdən
b) taxtadan c) buzdan
• Yaranqa hansı formada olur?
a) dairəvi b) silindr c) konus
• İqlunu hansı xalq tikir? a) dağlılar
b) eskimoslar c) yaponlar
• Aul – qaranquş yuvasını xatırladan... a) kənd evidir b) dağ kəndidir c) kənd yoludur
• Damında yatmaq, meyvə qurutmaq olar: a) iqlunun b) yaranqanın
c) daxmanın
• Yurdun bacası nə üçündür? a) tüstü çıxmaq üçün b) ərzaq asmaq üçün
c) giriş üçün
• Yurdun üstü nə ilə örtülür? a) palçıqla b) keçə ilə c) örtülmür
• Yurdun mərkəzində nə yerləşir?
a) oturacaq (stol) b) ocaq c) beşik
• Köçəri həyat sürənin yaşayış yeri hansıdır? a) koma b) yurd c) iqlu
• Fasad – binanın görünüşüdür:
a) yuxarıdan b) öndən c) yandan
• Portal nədir? a) pəncərə b) dam örtüyü c) giriş qapısı
• Parfenon məbədi hansı xalqa məxsusdur?
a) yapon b) yunan c) Azərbaycan
• Akropol nədir?
a) məbəd b) təpə c) düzənlik
• Akropolun mənası: a) içəri şəhər
b) yuxarı şəhər c) aşağı şəhər
• Yunan vazalarının üzərində əsasən təsvir edirdilər:
a) insanı b) məbədi c) təbiəti
• Təsvirləri ilə sənət nümunəsi sayılan amfora:
a) şəkildir b) vazadır c) tikilidir

• **Cümlələri tamamla:**
*1._____– yapon qadınının milli geyimidir. Onun ________və ________qolları, belində isə __________________olur.*
*2. **Şimal xalqı** öz evlərini ____________________tikir. Onların _____________ adlanan ___________formalı evləri çox möhkəmdir.*
*3. **Köçəri** həyat sürənlər üçün ______ən rahat mənzildir. Onun ______ evi şər qüvvələrdən, bədnəzərdən qoruyur.*
*4. **Portal** –______, ______və ya daş oymalarla bəzədilmiş ________.*
*5.__________________________________________Qədim **Yunanıstanda** ən böyük bayram hesab edilirdi. Ölkədə “__________________________________________________________” elan olunurdu.*
*6.__________________________sakinləri **ilahənin** şərəfinə təntənəli mərasim – ___________________ keçirərdilər. Bu, ________________________________________________________________adlanırdı.*

**1.** Gündoğan ölkə haqqında nə bilirsən? **2.** Şimal xalqları və düzənlikdə yaşayan insanların yaşayış tərzi necədir? **3.** Səhralıqdakı şəhərlər haqqında nələri xatırlayırsan? **4.** Qədim yunan incəsənəti və mədəniyyəti haqqında nələr öyrəndin? **5.** Qotik memarlıq və qotik geyimlərin əsas xüsusiyyətləri nədir? **6.** Bütün xalqları nə birləşdirə bilər?

• **Tikililər haqqında nə bilirsən? Onlar necə adlanır?**
***Qeyd.*** *Müəllim tapşırığı bir tikili üzərində də qura bilər.*

| |  |  |  |  |  |  |  |  |
|---|---|---|---|---|---|---|---|---|
| Tikilinin adı | | | | | | | | |
| Hansı xalqa məxsusdur | | | | | | | | |
| Forması | | | | | | | | |
| Xüsusiyyətləri | | | | | | | | |
| İnşaat materialları | | | | | | | | |

***Qeyd.*** ***Mavi rənglə*** *qeyd olunanlar düzgün cavablardır.*



Çap üçün deyil

**Müəllim qiymətləndirmə vasitələrinin hazırlanmasında dərsliyin hər bölmə üzrə “ÖZÜNÜ YOXLA” blokunda olan tapşırıq növlərindən də istifadə edə bilər.**
















Çap üçün deyil

## MƏNBƏLƏR


1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, "Təhsil", 2008.
2. C.Həsənzadə, E.Hacınski. "Ayna" Uşaq Ensiklopediyası "EXXON" MMM. İncəsənət. Bəşəriyyətin misilsiz sərvəti. Bakı, "Ayna Mətbu Evi", 1999.
3. Salamzadə Ə.R., Məmmədzadə K.M. "Şəki xanlarının sarayı". Bakı, "Elm", 1986.
4. Rasim Əfəndi. "Azərbaycanın daş plastikası". Bakı, "İşıq" nəşriyyatı, 1986.
5. Rasim Əfəndiyev. "Azərbaycan xalq sənəti". Bakı, "İşıq" nəşriyyatı, 1984.
6. Rasim Əfəndi. "Azərbaycan incəsənəti". Bakı, "Şərq-Qərb ", 2007.
7. Sadıqzadə Ş.H. "Qədim Azərbaycan bəzəkləri". Bakı, "İşıq" nəşriyyatı, 1971.
8. "Altay Hacıyev". Bakı, "İşıq" nəşriyyatı, 1974.
9. Azərbaycan Uşaq Folkloru Kitabxanası. "Mərasimlər, adətlər, alqışlar..." 1-ci kitab. Bakı, "Gənclik", 1993.
10. Məmmədov V.S., Əmiraslanov İ.R., Nəcəfov H.N., Mürsəliyev A.A. "Naxışların yaddaşı". Bakı, "Azərnəşr", 1981.
11. Cəfər Qiyasi. "Nizami dövrü memarlıq abidələri". Bakı, "İşıq" nəşriyyatı, 1991.
12. Rzayev N., Qeybullayev Q., Rzayev Ş. "Rusca-azərbaycanca memarlıq-inşaat lüğəti", Bakı, "Elm", 1998.
13. Lətif Kərimov."Azərbaycan xalçası". Bakı, "Yazıçı", 1985.
14. Azərbaycan dilinin izahlı lüğəti, 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.
15. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, "Lider", 2004.
16. Tahir Salakhov. Aurora Art Publishers, Leninqrad, 1980, Printed in Austria.
17. Наджафов М. "Саттар Бахлулзаде". Живопись. Москва, "Советский художник", 1985.
18. Живопись Азербайджанской ССР. 1960-е годы. Москва, "Советский художник", 1976 г. Автор-составитель М.Наджафов.
19. Дехтярь А. Мастера Советского искусства. "Тогрул Нариманбеков". Живопись. Москва, "Советский художник", 1984.
20. Искусство Советского Азербайджана. Живопись. Графика. Скульптура. Москва, "Советский художник".
21. Преттье М.К. и Капальдо А. "Творчество и выражение", том 2. Москва, "Советский художник", 1985.
22. Детская энциклопедия. Том 12. Москва, издательство "Педагогика" , 1977.
23. Корзухин А. "Беюк Ага Мирзазаде". Москва, "Советский художник", 1980.
24. Лавров А.М. "Школа. Учитель. Искусство". Москва, "Просвещение", 1981.
25. Белютин Э.М. "Основы изобразительной грамоты". Издательство "Советская Россия", Москва, 1961.
26. "Рисунок и живопись", том 1. Государственное издательство "Искусство". Москва, 1961.
27. "Энциклопедический словарь юного художника" . Москва, "Педагогика", 1983.
28. "Изобразительное искусство Азербайджанской ССР". Москва, "Советский художник", 1978.
29. "Изобразительное искусство для детей. Виды и жанры изобразительного искусства". Сокольникова Н.М., Ломов С.П. Книга для семейного чтения и творческого досуга. АСТ. Астрель, Москва, 2009.
30. "Цвет и линия". Ю.Аксенов, М.Левидова. Практическое руководство по рисунку и живописи. Москва, "Советский художник", 1976.
31. Роджер Эрб, Стефан Зелевски. "Цвет и свет". Энциклопедия. Издательство "Мир книги", 2007.
32. Ящухин А.П. "Живопись". Москва, "Просвещение", 1985.
33. Кастерман Ж. "Живопись". Рисуй и самовыражайся. Детское справочное бюро. Москва, издательство АСТ. Астрель, 2002.
34. Элвин Крошо, "Акварель", как рисовать. Москва, издательство АСТ. Астрель, 2006.
35. "Rysowanie dla poczatkujacych". Mark i Mary Willenbrink. Wydawnictwo K.E.Liber, 2008.
36. "Moja pierwsza ksiazka o risowaniu". Jan Jager and Ica Bokforlaq. Wydawnictwo REA. Warszawa 2010.
37. PC CD-ROM / Самоучитель TeachPro. "Изобразительное искусство" (для младших школьников). ООО "1С-Паблишинг", 2007.
38. Rauf Məlikov, Nizami İbrahimov. "Məktəblinin tarix lüğəti". "Ayna Mətbu Evi", Bakı, 2004.
39. Н.М.Конышева. Наш рукотворный мир. М., 1996
40. Azərbaycan Sovet Ensiklopediyası (IV cild), məqalə – s. 517, Mirzə Qədim Məmmədhüseyn oğlu İrəvani. Bakı, 1980.
41. Azərbaycan Sovet Ensiklopediyası (VII cild), məqalə – s. 217, Mir Möhsün Hacı Mirəhməd oğlu Nəvvab. Bakı, 1983.
42. http://azerbaijan.az/portal/index_a.html?lang=az
43. http://azerbaijan.az/portal/Nature/General/generalInfo_a.html
44. http://www.irs-az.com/index/rub.php?lang=1&n=4
45. http://karabakhblog.com/
46. http://www.etnolog.ru/image.php?id=ENGG
47. http://www.etnolog.ru/world-house.php
48. http://memorial.aznet.org/centxix3.shtml (az.görkəmli şəxsiyyətləri)
49. http://www.adam.az/az.php?category=1
50. http://www.azeri.ws/culture/
51. http://www.azeri.ws/culture/providence.shtml
52. http://www.advantour.com/rus/azerbaijan/ (az.sheherleri)
53. http://www.azerbaijan.az/portal/maps/tourism_a.html
54. http://www.barda-mks.az/sheher.html
55. http://www.nakhchivan.az/portal-1/tarx-abideler.htm
56. http://www.baku-icc-2009.az/content.php?lang=az&page=74
57. http://www.ntravel.az/?/ru/objects/13/
58. http://www.infoaz.eu/index.php?option=com_
59. http://www.azturk.biz/viewpage.php?page_id=80
60. http://www.sheki-mks.az/index.php?option=com_content&view=article&id=68&Itemid=62




Çap üçün deyil

KİTABIN İÇİNDƏKİLƏR

Dərslik komplekti haqqında ................................................................. 3
IV sinif üzrə məzmun standartları......................................................... 5
Şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və
üsulları 9
İnklüziv təlim prinsipləri .................................................................... 13
Müəllim üçün metodik vəsaitdə istifadə olunan üsullar ....................... 14

1. DOĞMA İNCƏSƏNƏTİN MƏNBƏYİ .......................................... 19

2. QƏDİM ABİDƏLƏR DİYARI ........................................................ 34

3. YURDUMUZUN İNCƏSƏNƏTİ ................................................... 45

4. BÜTÜN XALQLAR YARADICIDIR ............................................ 55

Terminlər lüğəti ..................................................................................... 67
Dərslikdə istifadə olunan reproduksiyaların siyahisi ........................... 71
Kiçik summativ qiymətləndirmə nümunəsi ........................................ 72
Qiymətləndirmə üçün sual və tapşırıqlar ............................................ 73
Mənbələr ................................................................................................ 79



Çap üçün deyil